www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 yanvar 2015-ci il Cümə № 4 (6032) Qiyməti 40 qəpik

**Xəbər**

## Vasif Talıbovdan məmurlarla bağlı daha bir əcaib sərəncam

yazısı səh.4-də

**Gündəm**

### Əli Həsənov ABŞ-la münasibətlərə dair hər şeyi açıqladı



"Cənab Kerrinin Azərbaycan prezidentinə zənginin "Azadlıq"ın Bakı ofisindəki axtarışla heç bir əlaqəsi yoxdur"

yazısı səh.5-də

### Arif Hacılının təyinatına qarşı çıxanlara sərt cavab

yazısı səh.7-də

### ABŞ Cənubi Qafqazı Rusiyaya güzəştə gedir?

yazısı səh.9-da

### Azərbaycanı sanksiyalardan qoruyan əsas qüvvə - Pentaqon

yazısı səh.8-də

### NİDA-çı gənclər həbsxanaya köçürülüblər

yazısı səh.7-də

### Müxalifət partiyalarının əməkdaşlıq mərkəzində fikir ayrılığı

yazısı səh.6-da

### "Hafka"nın klubunu tailandlılar alır

yazısı səh.4-də

### ABŞ nəşrindən sensasion iddia

"İran Azərbaycanda müharibə olmasında maraqlıdır"

yazısı səh.8-də

### Zabratdakı qəddar cinayəti törədən tutuldu

yazısı səh.15-də

### Pulunu ver, Avropada vətəndaşlıq al...

yazısı səh.13-də

### Nüsrət Kəsəmənlinin oğlu həbsdə qaldı

yazısı səh.15-də

**Kompensasiya və rüşvət üstündə canlarına qıydılar**

# ÖLKƏDƏ İKİ DƏHŞƏTLİ İNTİHAR - TƏFƏRRÜATLAR

Bakının "Sovetski" məhəlləsində Eldar Tağıyevin yanmış meyiti tapıldı, Goranboyda isə Qarabağ qazisi olduğu deyilən Bəxtiyar Əhmədov özünü 5-ci mərtəbədən atdı; səbəblərlə bağlı şahidlərin və rəsmilərin açıqlamaları ziddiyyət təşkil edir, lakin...

yazısı səh.4-də




# Parisi qana boyayanlar tutuldu

Karikatura terrorunun arxasında çoxsaylı suallar yatır; dünya üzrə ilk 10-luqda olan Fransa kəşfiyyatı Suriyada döyüşlərdən qayıdan iki qardaşdan niyə "xəbərsiz" olub?

yazısı səh.3-də



*Abdulla Amir Haşimi:*

### "Bakı hər bir güneylinin Kəbəsidir"

yazısı səh.11-də



### Şeyx hakimiyyətdəki rəqiblərinə qarşı yeni cəbhə açır

yazısı səh.4-də



Elnarə Tofiqqızı

### Dekanın ölüm işinə dair məhkəmədə şok etiraflar

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 4 (6032) 9 yanvar 2015



# Siyasi partiyalara 2,5 milyon manat ayrıldı

**Azərbaycanda 2015-ci ildə siyasi partiyalara ayrılan vəsaitin miqdarı açıqlanıb. APA-nın Maliyyə Nazirliyinin təqdim etdiyi "Vətəndaşın büdcə bələdçisi" kitabına istinadən verdiyi məlumata görə, 2015-ci ilin dövlət büdcəsində "Siyasi partiyalar haqqında" Qanunun icrası üçün siyasi partiyaların fəaliyyətinə 2,5 milyon manat vəsait ayrılması nəzərdə tutulub.**

Qeyd edək ki, "Siyasi partiyalar haqqında" Qanuna əsasən, dövlət büdcəsindən ayrılmış vəsaitin 10 faizi irəli sürdüyü namizədlər Milli Məclisə keçirilmiş son seçkilərdə etibarlı səslərin azı 3 faizini qazanmış, lakin Milli Məclisdə təmsil olunmayan siyasi partiyalar arasında qazanılmış səslərin sayına proporsional olaraq bölünür. Vəsaitin 40 faizi Milli Məclisdə təmsil olunan siyasi partiyalar arasında bərabər, 50 faizi isə seçilmiş deputatlarının sayına proporsional olaraq bölünür.

Xatırladaq ki, maliyyə naziri Samir Şərifov 2014-cü il noyabrın 28-də Milli Məclisdə büdcə müzakirələri zamanı bildirib ki, 2014-cü ildə siyasi partiyalara ayrılan vəsaitin 10% qənaət nəticəsində 250 min manatı bölüşdürülməmiş qalıb və bu məbləğ 2015-ci ildə siyasi partiyalar arasında tam şəkildə bölüşdürüləcək. Bununla bağlı qanun layihəsi hazırlanaraq Milli Məclisə təqdim olunmalıdır.

Səbəb odur ki, qanunda nəzərdə tutulsa da, hazırda Milli Məclisə keçirilmiş son seçkilərdə etibarlı səslərin azı 3 faizini qazanmış, lakin Milli Məclisdə təmsil olunmayan siyasi partiya yoxdur.

# Xədicə İsmayıl nikbindir

## AzadlıqRadiosu canlı verilişlərini davam etdirir

**AzadlıqRadiosunun həbsdəki əməkdaşı Xədicə İsmayıl növbəti məktub-müraciətini yollayıb. X.İsmayıl məktubunda bildirib ki, prokurorluq və məhkəmə işçilərinin çarəsiz durumuna baxıb onların halına acıyır: "Nə qədər qəribə səslənsə də, bu proseslərdə məhz onları görməkdən fərəhlənirəm. Bu qanun məmurları ilə müqayisədə nə qədər azad, nə qədər rahat olduğunu düşünmək gözəldir".**

X.İsmayıl yazıb ki, həbsin məhrumiyyətləri olsa da, qorxulu deyil: "Amma yeganə çətinliyim ünsiyyətlə bağlıdır. Sizi - əziz dostlarımı, həmfikirlərimi kitablar əvəzləyir".

Xanım jurnalist onu şərləyənlərlə bağlı da öz fikirlərini yazıb: "Bilmirəm, bizlərin üzünə duran polis nəfərlərinə, bizi ittiham edən prokurorlara və bu ittihamları hökmə çevirən hakimlərə içməyə nəsə verirlərmi, amma əminəm ki, günahsız insanlara pislik etməklə özünün varlığını təmin edən istənilən şəxsin "kapo"lar kimi stress çıxarmağa ehtiyacı olmalıdır. Əziyyətlərimizi qaz kamerası ilə də müqayisə eləmək istəmirəm. Amma bu yazıqların yerində olmağı düşmənimə də arzulamaram.

Kim olduğuma görə, kimlərlə çiyin-çiyinə durduğuma görə keçirdiyim xoşbəxtlik hissi bütün qanqaraldacaq reallıqları mənasız edir. Leyla xanım, İntiqam müəllim, Seymur, Anar, Başir, Rəsul, NİDA-çılar və başqa dəyərli insanlarla bir yerdə eyni məhrumiyyətləri hiss etməkdən qürur duyuram. Haqlı olduğunu duymaqdan dolayı keçirdiyin qürur dünyanın bütün əzab-əziyyətlərinə dəyər!"

Qeyd edək ki, AzadlıqRadiosu canlı verilişlərini davam etdirir. Bu barədə radionun saytında məlumat yer alıb. Məlumatda qeyd olunub ki, yanvarın 8-dən dinləyicilərlə görüşə gələcək.

❑ Sevinc TELMANQIZI

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# DİN Bakıda əməliyyat keçirdi



# Ərdoğanın qızı AKP-yə sədr gətirilə bilər

**Türkiyənin hakim partiyası olan AKP sədrinin müavini Süleyman Soylu sensasion açıqlama ilə çıxış edib.**

Virtualaz.org saytı türk KİV-lərinə istinadən xəbər verir ki, S.Soylu prezident Ərdoğanın qızı Sümeyya Ərdoğanın AKP sədri postuna namizəd ola biləcəyini bildirib.

S.Soylu AKP-də bu ilin iyununda keçiriləcək seçkilərə hazırlıq işlərindən danışarkən deyib ki, S.Ərdoğan hakim partiyanın fəaliyyətində yaxından iştirak edir və bundan sonra da edəcək.

"Bu, mənim şəxsi qənaətimdir. ABŞ-da və digər ölkələrdə də belədir. Siyasətdə də atadan övladlara keçən genetik bağlantılar var. Bizim prezident hazırda aktiv siyasi fəaliyyətlə məşğuldur. Çox yaxşı olardı ki, onun qızı partiya sədrliyinə namizədliyini irəli sürsün. Məncə, Süməyya Ərdoğan siyasi səhnənin ən güclülərindən biri olar" - deyə S.Soylu bildirib.

# Dövlət Komitəsi "siçanlı limonad"la bağlı araşdırmaya başladı

**İmişlidə bir ailənin 3 üzvü limonaddan zəhərlənib. APA-nın məlumatına görə, rayonun Xəlifəli kənd sakinləri - 2000-ci il təvəllüdlü Əliyeva İlkanə Kazım qızı, 2001-ci il təvəllüdlü Əliyev Cahid Kazım oğlu və 1997-ci il təvəllüdlü Əliyeva Türkanə Kazım qızı limonaddan zəhərləndiklərinə görə İmişli rayon xəstəxanasının infeksion xəstəliklər şöbəsinə yerləşdirilib. Xəstəxanadan bildirilib ki, hazırda onların vəziyyəti qənaətbəxşdir.**

Uşaqların atasının dediyinə görə, limonadın içindən siçan çıxıb.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməti "Caillou" nişanlı limonadın içindən siçanın çıxması ilə bağlı araşdırmalara başlayıb.



**Daxili İşlər Nazirliyinin əməkdaşları əməliyyat keçirib. Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, əməliyyat Təhlükəsiz Şəhər Xidməti, Salyan Rayon Polis Şöbəsi və Binəqədi Rayon Polis İdarəsi 6-cı polis bölməsi əməkdaşları tərəfindən keçirilib.**

Həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində yanvarın 5-də Elnur Qiyamovdan və Tofiq Abbasovdan hədə-qorxu ilə pul və qızıl əşyalar almış qrupun digər üzvü - Bakı şəhər sakini Elvin Həsənzadə tutulub.

Polislər onu idarə etdiyi "Runna" markalı avtomobildə saxlayıblar.

Faktla bağlı araşdırma aparılır.

# Səfərbərlik Xidmətindən Səfər Əbiyev açıqlaması



**Son günlər ölkə mətbuatında Azərbaycanın keçmiş müdafiə naziri Səfər Əbiyevin ölkəni tərk etməsi barədə məlumatlar yayılıb. Yayılan xəbərlərdə qeyd olunub ki, S.Əbiyev Çexiyada vətəndaşlıq alıb. Eks-nazirin qayını ötən gün bu məlumatları təkzib edərək S.Əbiyevin Azərbaycanda olduğunu bəyan edib.**

Hərbi sirr daşıyıcısı olan S.Əbiyevin yaşayış yerini dəyişməsi ilə bağlı azvision.az-ın sorğusuna Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən rəsmi cavab verilib.

SHXÇDX-nin mətbuat xidmətindən bildirilib ki, istənilən hərbi vəzifəli şəxs yaşayış yerini dəyişdirməsi ilə bağlı xidmətin yerli idarə, şöbə və bölməsinə məlumat verməlidir: ""Hərbi vəzifə və Hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin, 2-ci bəndinə əsasən hərbi vəzifəlilər və çağırışçılar yaşayış yerini 3 aydan çox müddətə dəyişdirdikdə, yaşayış yeri üzrə hərbi qeydiyyyatdan çıxmalı və olduqları yer üzrə hərbi qeydiyyata durmalıdırlar. Bura ehtiyata buraxılan hərbçilər də daxildirlər. İnzibati Xətalar Məcəlləsinin 354-cü maddəsinə əsasən, hərbi vəzifəlilərin və çağırışçıların Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş hərbi uçot qaydalarını pozmasına, habelə çağırış üzrə hərbi komissarlığa üzürlü səbəblər olmadan gəlməməsinə və ya hərbi uçotda durduğu uçot orqanına yaşayış yerinin ünvanının, təhsilinin, iş yerinin və vəzifəsinin dəyişməsi haqqında məlumatları vaxtında bildirməməsinə görə xəbərdarlıq edilir və ya on beş manatdan iyirmi manatadək miqdarda cərimə edilir.

Səfər Əbiyevin xaricdə vətəndaşlıq alması ilə bağlı biz heç nə deyə bilmərik. Hərbi vəzifəlilər ehtiyata buraxıldıqdan sonra 7 gün müddətində SHXÇDX -nin yerli idarə və bölmələrinə gələrək yaşayış yeri üzrə hərbi qeydiyyata alınmalıdırlar.

Vətəndaşlıqdan çıxma məsələsi SHXÇDX-nin səlahiyyətinə daxil deyil. Bununla digər dövlət strukturları məşğul olurlar. Həmin şəxs müvafiq orqanlara vətəndaşlıqdan çıxmaqla bağlı müraciət edir. Bundan sonra həmin orqandan bizə o şəxsin Azərbaycan vətəndaşlığından çıxması ilə bağlı məlumat daxil olur. Nəticədə SHXÇDX həmin şəxsi hərbi qeydiyyatdan çıxarır".

# Sabiq nazirin damarlarını dəyişdirdilər

**"Ayaqlarımın yaraları yavaş-yavaş sağalır, inşallah, 5-10 günə daha da yaxşı olacaq". Lent.az-ın məlumatına görə, bunu aznews.az-a açıqlamasında sabiq təhsil naziri Firudin Cəlilov deyib. O, əlavə edib ki, ayaq damarlarında ciddi problem olub: "Ayaq damarlarımı dəyişdirdilər. Bu əməliyyatdan sonra hər şey yaxşılığa doğru gedir. Hər iki aydan bir Türkiyəyə yoxlamaya gedəcəm".**

Qeyd edək ki, sabiq təhsil naziri, professor Firudin Cəlilov dekabrın 15-də Türkiyədə yenidən əməliyyat olunub. Əməliyyat Ankaranın Bayındır xəstəxanasında həyata keçirilib.



# Araz Ağalarovun anası dəfn edildi

**Rusiyada yaşayan tanınmış azərbaycanlı iş adamı Araz Ağalarovun anası Əminə Nuriyeva bu gün dəfn edilib.**

Lent.az-ın məlumatına görə, günorta saatlarında Ə.Nuriyevanın cənazəsi yaşadığı Azərbaycan prospekti 11 ünvanından götürülüb və Qurd Qapısı məzarlığında dəfn edilib.

Bu gecə ABŞ-dan Azərbaycana gələn Araz Ağalarovla yanaşı, bir sıra tanınmış dövlət xadimləri, ictimaiyyət nümayəndələri, biznesmenlər də dəfndə iştirak ediblər.

Qeyd edək ki, Ə.Nuriyeva yanvarın 6-da dünyasını dəyişib.

# Kılıcdaroğluna ayaqqabı atdılar

**Türkiyədə ana müxalifət partiyası CHP-nin lideri Kamal Kılıcdaroğlu hücuma məruz qalıb.**

Virtualaz.org saytı Türkiyə KİV-lərinə istinadən xəbər verir ki, hadisə yanvarın 8-də baş verib.

Kılıcdaroğlu "Mövenpick Hotel"də pensiyaçıların problemləri və həll yollarına həsr olunmuş toplantıya qatılarkən kimliyi müəyyən edilməyən şəxs əvvəlcə ona "Atam sığortasız işlədilir" deyə bağırıb.

Mühafizəçilər onu susdurmağa çalışıb, daha sonra həmin şəxs müxalifət liderinə ayaqqabı atıb. Mühafizəçilər bu şəxsi Kılıcdaroğlundan uzaqlaşdırıblar, ancaq salondan çıxarmayıblar.

Hücum edən şəxsin Kılıcdaroğluna ayaqqabı atarkən "Bu zəmanənin Allah bəlasını versin" deyə qışqırdığı bildirilir.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

YENİ MÜSAVAT
N 4 (6032) 9 yanvar 2015

# Parisi qana boyayanlardan biri təslim oldu

## Terroru törətməkdə şübhəli bilinən digər iki qardaşın isə axtarışları davam edir



**Fransanın prokurorluq orqanları "Charlie Hebdo" jurnalına silahlı basqın edərək 12 nəfəri öldürməkdə şübhəli bilinən şəxslərin adını açıqlayıb. "Reuters" agentliyi xəbər verir ki, ilk olaraq 1996-cı il təvəllüdlü Həmid Murad könüllü təslim olub. O, polisə deyib ki, hücumda iştirak etməyib: "Hücum olan saatlarda liseydə idim və mənə qarşı irəli sürülən ittihamlar yalandır, əsassızdır. Günahsız olduğumu sübut etmək üçün də polisə təslim oldum".**

Günün sonuna qədər qaçaq düşən Səid və Şərif Kuyaşi qardaşlarının axtarışı davam edib. Polis bildirib ki, hücum edənlərdən birinin kimliyi qaçarkən maşında qoyduğu şəxsiyyət sənədindən bəlli olub. Bundan başqa, axtarışda olan iki qardaşdan biri - Şərif Kuyaşi əvvəllər terrorçuluq ittihamı ilə 18 ay həbsxana cəzası çəkib. O, 2005-ci ildə Şərqi Parisdəki məsciddə İraqda amerikalılara qarşı döyüşmək üçün yaraqlıları səfərbər edən qrupun üzvü olub. Polis qardaşların son dərəcə təhlükəli və silahlı olduqları barədə əhaliyə xəbərdarlıq edib.

32 yaşlı Şərif Kuyaşi, onun böyük qardaşı, 34 yaşlı Səid Kuyaşi və 18 yaşlı Həmid Murad yanvarın 7-də "Charlie Hebdo"nun redaksiyasına hücum ediblər. Səid və Həmid "AK-47" avtomatları, Şərif isə qumbaraatanla silahlanıbmış.

"Allahu Əkbər!", "Peyğəmbərin təhqir olunmasının qisasını alacağıq!" bağıran bu üç şəxs 12 nəfəri qətlə yetirib, 10 nəfəri isə yaralayıb. Onların üçü də Reyms şəhərinin sakinləridir. Redaksiyaya hücum edənlər əvvəllər Suriyada "Cəbhət əl Nüsrət" terror qruplaşmasının tərkibində vuruşublar.

ABŞ prezidenti Barak Obama deyib ki, jurnal redaksiyasına qorxaqcasına hücum edənlər söz azadlığından nə dərəcədə qorxduqlarını göstəriblər.

ABŞ Dövlət katibi Con Kerri deyib ki, ölən jurnalistləri "azadlıq uğrunda şəhidlər" adlandırmış fransalı dini icma imamı ilə razıdır: "Bu, sivilizasiyalar arasında qarşıdurma deyil, bu, sivilizasiya ilə sivil dünyaya qarşı çıxanların qarşıdurmasıdır".

Rusiya saytları xəbər verir ki, jurnalın əvvəlki redaksiyası da 2011-ci ilin noyabrında tamamilə yandırılıbmış. O vaxt Məhəmməd Peyğəmbərin (ə.s.) karikatirasını çap edəndən bir gün sonra qəzetin redaksiyasına "Molotov kokteyli" atılıb.

"Charlie Hebdo"nun keçən həftəki son tvitində isə İŞİD yaraqlılarının lideri Abu Bakr al-Bagdadinin karikaturası verilmişdi. Bu, jurnalın İslamla bağlı karikaturlar çap etməsindən sonra baş vermişdi.

Yanvarın 8-də isə dünyanın aparıcı KİV orqanları Məhəmməd Peyğəmbərin karikaturalarını yenidən dərc edib. Bununla da jurnalistlər "Charlie Hebdo" satirik jurnalı ilə həmrəy olduqlarını bildiriblər. ABŞ-da karikaturaları "Business İnsider" və "Huffington Post" kimi nəşrlər dərc edib. "Daily Beast" tabloidi isə "Charlie Hebdo" jurnalının 2011-ci ildə nəşr etdiyi karikaturalardan ibarət 16 slayd şou yerləşdirib. Almaniyada da Berlin qəzeti olan "B.Z"nin ilk səhifəsində Məhəmməd Peyğəmbərin karikaturası dərc edilib. Danimarkanın "Berlingske" qəzeti də "Charlie Hebdo" karikaturalarını yenidən dərc edib.





**İçərişəhər "Cümə" məscidinin imam-camaatı, DEVAMM sədri Hacı İlqar İbrahimoğlu musavat.com-a açıqlamasında bildirib ki, Parisdə günahsız insanlara qarşı baş verən anti-bəşəri cinayəti birmənalı olaraq pisləyirlər:** "Baş verən terror aktı müqəddəs İslam dini ilə daban-dabana zidd olan bir cinayətdir. Biz bunu təkfirçi İŞİD-çilərin son dövrlərdə həyata keçirtdiyi ant-İslami davranışın bir halqası kimi də dəyərləndiririk. Eyni zamanda təəssüflə bunu da vurğulamağı lazım bilirik ki, baş verən terror olayında illərlə qızışdırılan islamofobik sürecin və müsəlmanlara qarşı sərgilənən ikili standartların da böyük rolu vardır".

Fransada törədilən terror hadisəsinə hakim Yeni Azərbaycan partiyasından da reaksiya bildirilib.

**Partiyanın icra katibinin müavini, millət vəkili Siyavuş Novruzov "Qafqazinfo"ya açıqlamasında qeyd edib ki, Azərbaycan ərazisində həmişə erməni terroru törədilib və buna görə də ölkəmiz həmişə terrorun əleyhinədir:** "Hesab edirəm ki, iki il bundan qabaq karikaturanın çəkilməsi hadisəsi ilə də bunu bağlamaq bəhanədir".

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı da terror aktına münasibətinin olduqca mənfi olduğunu vurğulayıb. Komitə sədri bunu dinlər və mədəniyyətlərarası dialoqa mənfi təsir göstərən hal kimi qiymətləndirib:** "Lakin bu cür hərəkətlərin hansısa terrorla aradan qaldırılması istəklərini pisləyirik. Hesab edirik ki, əgər kimlərsə müqəddəslərə toxunursa, bu cür hərəkətlərə yol verənləri ictimai qınaqla, müxtəlif tədbirlər keçirərək, bunun yolverilməzliyini həmin topluma çatdırmaqla həll etmək lazımdır. Hər hansı silaha əl atmaq, əlbəttə, yol verilən deyil. Ona görə də Fransada törədilən terror hərəkəti başa düşülən deyil, yolverilməzdir və bu, əslində İslam dünyası ilə xristian dünyası arasında olan ziddiyyətləri daha da dərinləşdirir, islamofobiyanı Qərb dünyasında gücləndirir, tədricən qarşıdurmanı daha da mürəkkəbləşdirir. Ona görə də biz bu hadisəni qətiyyətlə pisləyirik. Hesab edirik ki, terrorun vətəni milliyyəti, fərdiliyi yoxdur, terror elə terrordur".

**Qafqaz Müsəlmanları İdarəsi mətbuat xidmətindən daxil olan bəyanatda bildirilir ki, qurum dünyanın hansı nöqtəsində baş verməsindən asılı olmayaraq, müsəlmanlar insan qətlini, zor, təcavüz və terroru hər zaman pisləyir:** "Fransada baş verən son terror hadisəsini ciddi qınayırıq. İnsan həyatı Uca Allahın yaratdığı müqəddəs dəyərdir və ona edilən təcavüz böyük günahdır. Bu günahı törədənlər həm Allah dərgahında, həm də bəşəri qanunlar qarşısında cavab verəcəklər".

**Müsavat Partiyası da Fransada baş verən terror aktı ilə bağlı bəyanat yayıb.** Bəyanatda bildirilir ki, terror hadisəsinin jurnalın redaksiyasında jurnalistlərə qarşı törədildiyinə görə söz və mətbuat azadlığına qarşı yönəlsə də, əsas məqsədin konfensiyalar arasında ziddiyyət yaratmaq olduğu ehtimalı da böyükdür. Müsavat Partiyası bu terror hadisəsini qətiyyətlə pisləyir, belə halların təkrar olunmaması üçün dünya ictimaiyyətinin səylərinin artırılmasını məqsədəuyğun hesab edir.

**Ekspert Altay Göyüşov da Parisdə baş verənləri terrorizm adlandırdı:** "Bunu birmənalı olaraq qınamaq, lənətləmək əvəzinə "İslamı gözdən salmaq üçün özləri ediblər", "İŞİD-i özləri yaradıblar" və sairə bu kimi ya bisavadlıqdan ya emosionallıqdan doğan konspiroloji mülahizələr irəli sürmək, yaxud terror qurbanlarında günah axtarmaq, əslində o terrorun mənəvi iştirakçısı, dəstəkçisi olmaqdır. Bu cür yanaşma terrorun qarşısını almır, onun gələcəkdə təkrarlanması üçün rəvac verir".

**Mətbuat Şurası sədrinin müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Ümid Mirzəyev aktual.az-a bildirib ki, sözügedən terror hadisəsi bütün dünya ictimaiyyəti tərəfindən qınanmalıdır:** "Bu hadisə dinindən, irqindən asılı olmayaraq, bütün dünya jurnalistlərinə qarşı təzyiq vasitəsidir. Əslində bu hadisəni dinlə əlaqələndirirlər. Amma bu məsələ siyasi xarakter daşıyır. Məncə, bütün dünya jurnalistləri bir araya gələrək sözügedən terrora qarşı yox deməlidir. Buna dünya ictimaiyyəti də dəstək durmalıdır".

***

Bu günə qədər Azərbaycanda da bəzi media orqanlarının redaksiyasına hücum olub. Bunların sırasına "Yeni Müsavat" başçılıq edir. Redaksiyamıza 2000-ci ildə nehrəmlilərin hücumu, 2003-cü ildə isə Fərəməz Novruzoğlunun basqını media tarixində yaddaqalan hadisələrdəndir. Bundan başqa, 2007-ci ildə xocalılıların həmin vaxt fəaliyyət göstərən "Gündəlik Azərbaycan" qəzetinin redaksiyasına yumurtalı basqınını da unutmaq olmaz. Xoşbəxtlikdən bu günə qədər Azərbaycanın media orqanlarına hücumlardan heç birində insan tələfatı baş verməyib. Türkiyədə də dəfələrlə qəzet redaksiyalarına basqınlar edilib, jurnalistlər döyülüb və yaralanıb.

❑ **Sevinc TELMANQIZI**





# Paris cinayəti doğrudanmı Peyğəmbərin qisasıdır?

## Karikatura terrorunun arxasında çoxsaylı suallar yatır; dünya üzrə ilk 10-luqda olan Fransa kəşfiyyatı Suriyada döyüşlərdən qayıdan iki qardaşdan niyə "xəbərsiz" olub; Norveçdə 77 dinc insanı öldürən Breyvikə görə Həzrət İsa (ə) günahkar olmadığı kimi...

**Yanvarın 7-də Parisdə terror hadisəsi baş verdi. Karikatur jurnalının baş redaktoru və əməkdaşları da daxil olmaqla, 12 nəfər öldürüldü, daha 4 nəfər isə ağır yaralıdır. Terrorun əsas mahiyyəti kütləvi qorxu və nifrət yaratmaqdır. Paris terrorçuları bu mənada məqsədlərinə çatdılar.**

Parisdə olanlar, günahsız insanların öldürülməsi dəhşətli hadisədir. Bu bir qanlı cinayətdir və heç kim buna haqq qazandıra bilməz. Amma bu hadisəni İslam Peyğəmbəri ilə əlaqələndirib nifrəti 1,6 milyard tərəfdarı olan bir dinin üzərinə "yükləmək" cəhdi ondan da böyük cinayətdir. Terrorun, cinayətin dini olmur, bunu ən çox Avropa bilir. Üstəlik, ortada bu hadisəni İslam dini və ya Həzrət Məhəmmədlə (s.ə.s) bağlayacaq heç bir tutarlı dəlil yoxdur. Çünki birincisi, İslam qanunlarına əsasən ölüm hökmü savaş meydanı və konkret cinayət zamanı özünümüdafiə vəziyyəti istisna olmaqla, qalan bütün vəziyyətlərdə şəriət məhkəməsi tərəfindən verilə bilər. İkincisi, hətta məlum karikatur olayları zamanı hansısa din adamının jurnalistlər haqqında ölüm hökmü fətvası olmayıb. Üçüncüsü, "Charlie Hebdo" jurnalında ilk dəfə Məhəmməd Peyğəmbərin (s.ə.s) karikaturası 2006-cı ildə, sonradan isə 2011 və 2012-ci illərdə dərc olunub. Yəni əgər söhbət həqiqətən də müsəlmanların jurnaldan qisasından gedirdisə, bu hadisə ən azından 3 il əvvəl - sonuncu karikatura dərc olunanda - edilməli idi.

Ancaq nədənsə terror aktı Avropada müsəlmanlara qarşı yürüşlərin, İslam əleyhinə çağırışların artdığı bir zamanda baş verir. O zamanda ki, İsveçdə ard-arda məscidlər yandırılır, Almaniyanın böyük şəhərlərində İslam əleyhinə aksiyalar keçirilir. Fransada məlum terror olaylarından sonra on minlərlə insanın iri şəhərlərdə küçələrə axışaraq aksiyalar təşkil etməsi Fransada Almaniya və İsveçdəki vəziyyətin yarandığına işarədir.

Daha bir şübhəli məqam. Məlum olub ki, terror aktını həyata keçirməkdə əsas şübhəli olan Şərif və Səid Kaşi qardaşları Suriyada radikal islamçı qruplaşmaların tərkibində döyüşüblər, yalnız bu yaxınlarda Fransaya dönüblər. Maraqlıdır ki, onlar geri qayıdanda məsuliyyətə cəlb edilməyiblər, halbuki adətən belə olur. Və qəribə də olsa dünyada ən yaxşı kəşfiyyat orqanlarının reytinq cədvəlində ilk "onluğa" düşən Fransa kəşfiyyatı Suriyada döyüşlərdən qayıdan iki qardaşdan "xəbərsiz" olub. O qədər xəbərsiz olub ki, qardaşlar silahlanaraq Parisin mərkəzində uzun illər polis nəzarətində olan redaksiyaya məhz iclasın keçirildiyi bir zamanda basqın edib 12 adamı öldürür və sakit şəkildə aradan çıxırlar. Əlbəttə, qətliamda Fransa hökumətinin əlinin olmasını iddia etmək fikrimiz yoxdur, amma ortada şübhəli məqamlar da az deyil.

Və nəhayət, yanvarın 7-də Parisdə baş verən terror aksiyasından daha dəhşətli və çoxlu itkilərə səbəb olan terror hadisələri demək olar ki, hər gün İraqda, Suriyada, Pakistanda, Əfqanıstanda və Fələstində baş verir. Son ayların statistikasına əsasən hər gün müsəlman dünyasında 1000-ə yaxın insan terrorun qurbanı olur. Bu gün dünyada terrordan ən çox əziyyət çəkən müsəlmanlardır.

Fransada baş verən terror hadisəsinin qisası olaraq Həzrət Məhəmmədin (s.ə.s) karikaturasının Avropa mətbuatında yenidən özü də bilərəkdən dərc olunması, yumşaq desək, ağılsızlıq və ya bilərəkdən həyata keçirilən təxribatdır. İki il əvvəl Norveçdə 77 dinc insanı öldürən, 240 nəfəri yaralayan Breyvikə görə Həzrət İsa (ə) günahkar olmadığı kimi, 12 nəfəri öldürən terrorçu Kaşi qardaşlarına görə Həzrət Məhəmməd (s.ə.s) məsuliyyət daşımır. Bu hadisədən uzaqgedən nəticələr çıxararaq müsəlmanların üzərinə hücum edənlərin "alt qatda" başqa maraqları olduğu aydındır. Bunu anlamaq üçünsə daha soyuqqanlı yanaşmaya ehtiyac var.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 4 (6032) 9 yanvar 2015

# Kompensasiya və rüşvət üstündə canlarına qıydılar

**Yanvarın 8-də Bakıda intihar hadisəsi baş verib. Məlumata görə, günorta saatlarında paytaxtın "Sovetski" kimi tanınan məhəlləsində evinin sökülməsinə görə verilən kompensasiyanın azlığına etiraz edən sakin özünü yandırıb. Bu dəhşətli intihar hadisəsi haqda xəbəri "İnterfaks-Azərbaycan" agentliyinə şahidlər verib. Özünü yandıran şəxsin kimliyi hələlik məlum deyil.**



# Ölkədə iki dəhşətli intihar - təfərrüatlar

## Bakının "Sovetski" məhəlləsində Eldar Tağıyevin yanmış meyiti tapıldı, Goranboyda isə Qarabağ qazisi olduğu deyilən Bəxtiyar Əhmədov özünü 5-ci mərtəbədən atdı; səbəblərlə bağlı şahidlərin və rəsmilərin açıqlamaları ziddiyyət təşkil edir, lakin...

Məsələ ilə bağlı Fövqəladə Hallar Nazirliyinin yaydığı məlumatda isə intihardan söhbət getmir. Qurumun saytında bildirilir: "Bakı şəhəri, Yasamal rayonunda sökülmüş evin otağında 1 kv.m sahədə 1 nəfərin yanmış cəsədi aşkar edilib. Tikilinin qalan hissəsi yanğından mühafizə olunub".

**Həftənin başqa bir intihar hadisəsi isə Goranboyda baş verib. Bizimxeber.az-ın məlumatına görə, Bəxtiyar adlı Qarabağ qazisi özünü yaşadığı binanın 5-ci mərtəbəsindən ataraq intihar edib. Saytın məlumatında deyilir ki, Qarabağ qazisinin həyat yoldaşı Goranboydakı musiqi məktəblərindən birinin direktoru işləyir. İntiharın səbəbləri barədə isə aşağıdakılar bildirilir:** "Rayon icra başçısının müavini Baxış Abdullayev qazinin müdir işləyən həyat yoldaşını yanına çağıraraq ondan 5000 min manat pul istəyib. Səbəb kimi isə rayonda abadlıq-quruculuq işlərinin aparılması üçün pul lazım olduğu göstərilib. Baxış Abdullayev bildirib ki, tapşırıq icra başçısı Nizaməddin Quliyev tərəfindən verilib. Bu qədər pulu düzəldib verə bilməyəcəyini görən xanım direktor baş verənləri həyat yoldaşı Bəxtiyara danışıb və onu icra başçısı ilə görüşə göndərib. İcra başçısı ilə görüşən Bəxtiyar onlarda bu qədər pulun olmadığını deyib. Lakin başçı onu təhqir edərək otaqdan qovub. Nəticədə də Qarabağ qazisi Bəxtiyar özünü binanın 5-ci mərtəbəsindən ataraq öldürüb".

**Goranboyla əlaqə saxlayıb hadisənin təfərrüatlarını dəqiqləşdirmə aparmağa çalışdıq. İcra başçısının 1-ci müavini Baxış Abdullayev "Yeni Müsavat"a dedi ki, intihar edən şəxs Goranboy şəhər sakini olsa da, Qarabağ qazisi deyil:** "Bəli, intihar edib, araşdırma gedir. Ancaq məndə intiharın səbəbi barədə məlumat yoxdur". **B.Abdullayev öz adının bu hadisədə hallandırılması və rüşvət istəməsi barədə məlumatı qəti təkzib etdi:** "Bu barədə bizimxeber saytı yazıb. Mən saytla da danışdım, onu səhv məlumat verdiyinə görə məhkəməyə verəcəyəm ki, adım burada niyə hallandırılıb. Hətta başçının da adı yazılıb. Ancaq başçı bir həftədir məzuniyyətdədir. Nə həmin xanım, nə həyat yoldaşı qəbula gəlməyib". Müavin intihar edən şəxsin həyat yoldaşının şəhər musiqi məktəbinin direktoru olduğunu da təsdiqlədi.

Goranboy rayon prokurorunun böyük köməkçisi Füzuli Əliyev isə məsələni araşdıran müstəntiqlə əlaqə saxlamağı məsləhət gördü. Lakin müstəntiq məlumat verməkdən imtina etdi.

**Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov hadisə ilə bağlı "Yeni Müsavat"a bunları bildirdi:** "Goranboy sakini Bəxtiyar Əhmədovun yanvarın 6-da intihar etməsi faktı ilə bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə cinayət işi başlanıb. İş üzrə məhkəmə-tibbi ekspertiza təyin edilib, şahidlər, o cümlədən mərhumun arvadı və oğlu dindirilib. B.Əhmədovun hər hansı konkret şəxs tərəfindən özünü öldürmə həddinə çatdırması barədə istintaqa hazırkı vaxtadək məlumat daxil olmayıb. Eyni zamanda bildirirəm ki, hadisə baş verən gün meyitin üzərinə baxış keçirilərkən şalvarının cibindən yaxın qohumlarına ünvanlanmış "ölümümdə özüm günahkaram" sözləri ilə başlayan məktub aşkar edilib. B.Əhmədovun ölümünün səbəblərinin müəyyənləşdirilməsi istiqamətində zəruri istintaq tədbirləri davam etdirilir".

**Qarabağ Qazilər Birliyinin sədr müavini Firudin Məmmədov isə dedi ki, bu barədə xəbəri oxuyandan sonra araşdırmalara başlayıb:** "Ancaq hələlik onun Qarabağ qazisi olub-olmadığını dəqiqləşdirə bilməmişik. Bildiyimiz odur ki, əlillər və şəhid ailələri üçün tikilmiş veteranların binasında yaşayıb".

Qeyd edək ki, mərhum 1954-cü ildə anadan olmuşdu.

Paytaxtın "Sovetski" məhəlləsindəki intihar hadisəsi ilə bağlı da Nazirlər Kabinetindən və Bakı Şəhər Prokurorluğundan məlumat ala bilməsək də, günün sonunda bununla bağlı rəsmi məlumat açıqlandı. "Yasamal rayonu, Mirzağa Əliyev küçəsi 108 ünvanında bir sakinin köçürmə ilə bağlı verilən kompensasiyanın miqdarına etiraz olaraq özünü yandırması barədə yayılan məlumatlar tamamilə əsassızdır". Bunu APA-ya açıqlamasında Yasamal Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, "Sovetski" məhəlləsi ilə bağlı Yasamal Rayon İcra Hakimiyyəti nəzdində yaradılmış Köçürmə Komissiyanın sədri Səməd İslamov deyib. Onun sözlərinə görə, həmin ünvanda yaşamış Eldar Tağıyev hələ keçən ilin aprel ayında kompensasiyasını alaraq köçüb, mənzil isə boş qalıb: "Ümumiyyətlə, həmin mənzildə yanğın olmayıb, meyit yanmış şəkildə mənzildə aşkar olunub. Ekspertiza həmin şəxsin kim olduğunu müəyyənləşdirər ki, hansı şəraitdə ölüb, öldürülüb, yaxud yandırılaraq ora atılıb..."

Mövzuya qayıdacağıq.

**Cavid TURAN**

# Vasif Talıbovdan məmurlarla bağlı daha bir əcaib sərəncam

## Bundan sonra dövlət qulluğunda çalışanlar muzeylərə kollektiv şəkildə getməli olacaqlar

**Naxçıvanda dövlət orqanlarının işçiləri bundan sonra kollektiv şəklində muzeylərə gedəcək. "Turan" bildirir ki, bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri sərəncam imzalayıb.**



Vasif Talıbov

Sərəncamda deyilir ki, Naxçıvan Muxtar Respublikasında dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi təmin edilsin. "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatı bu sərəncamdan irəli gələn məsələləri həll etsin", - deyə sənəddə qeyd edilir.

Vasif Talıbov "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" sərəncamı ötən il dekabrın 19-da imzalayıb. Sənəd bugünlərdə yerli mediada çap olunub.

Sənədə görə, əgər 1997-ci ilədək Naxçıvan Muxtar Respublikasında 13 muzey fəaliyyət göstərirdisə, hazırda 30 müxtəlif profilli muzey var.

"Muzeylər mədəni irsimizin, milli dəyərlərimizin qorunması və təbliğində, gənc nəslin tərbiyəsində və dünyagörüşünün zənginləşməsində böyük əhəmiyyətə malikdir. Bütün bunlar nəzərə alınaraq, muzeylərdə açıq dərslər keçirilir, ümumtəhsil məktəbləri ilə muzeylər arasında interaktiv təhsil təşkil olunur. Görülən tədbirlər maddi-mənəvi sərvətlər xəzinəsi olan muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsi və təbliğinə şərait yaradır", - deyə Talıbovun imzaladığı sərəncamda bildirilir.

# "Hafka"nın klubunu tailandlılar alır

**İngiltərənin "Şeffild Uensdey" klubu azərbaycanlı müflis olmuş iş adamı Hafiz Məmmədovla sponsorluq müqaviləsini ləğv etdikdən sonra özü üçün yeni sponsor tapıb. "Qafqazinfo" xəbər verir ki, klub rəsmiləri artıq komandaya kimin sahib çıxacağı yönündə apardığı işlərin bəhrəsini görüb.**



Hafiz Məmmədov

Belə ki, tailandlı iş adamları 1-ci divizion (Çempionşip) təmsilçisi ilə yaxından maraqlanır. Yerli mətbuatının yazdığına görə, hazırda tərəflər arasında danışıqlar gedir. Əgər bu müzakirələr uğurla nəticələnsə, cənub-şərqi asiyalılar klubun yeni himayədarı olacaqlar.

Qeyd edək ki, Məmmədovun "Şeffild Uensdey"ə sahibliyi barədə iyunun 10-da bağlanan anlaşmaya əsasən lazımi məbləğdə vəsaiti ödəyə bilməməsi səbəbindən müqavilə qüvvədən düşmüşdü.

# Şeyx hakimiyyətdəki rəqiblərinə qarşı yeni cəbhə açır

## QMİ sədri növbəti bayram namazınadək Qafqazın ən böyük ibadət evinə nəzarəti ələ keçirməyi hədəfləyib; BŞİH tabeçiliyinə verilmiş "Heydər" məscidi ətrafında vəziyyəti öz xeyrinə dəyişməsə, o, Abutalıbovun "bığının altından" keçməli olacaq...



Allahşükür Paşazadə

**Bakının Binəqədi rayonunda ötən ay Qafqazın ən böyük ibadət evi - "Heydər" məscidi istifadə verildi. Təntənəli açılış mərasimində prezident İlham Əliyev və ailə üzvləri də iştirak etdilər. Söz yox ki, bu, yeni ibadət evinə ölkə başçısı səviyyəsində hansı həssas münasibətin olduğunun anonsu idi.**

Bəlkə də ən birinci elə bu səbəbdən məscidin açılışı edilən kimi onun ətrafında bəzi söz-söhbətlər, maraqlı nüanslar ortaya çıxdı. Onlardan ən diqqət çəkəni Binəqədi məscidinin Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) deyil, məhz Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) tabeçiliyinə verilməsi ilə bağlı idi. Əslində bununla da təzə bir QMİ-BŞİH gizli savaşının və ya çəkişməsinin əsası qoyulmuş oldu.

Xatırladaq ki, məscid açıldıqdan dərhal sonra belə məlumat yayıldı ki, artıq onun axundu və imamı da bəllidir. Ancaq elə həmin gün məlumat QMİ tərəfindən təkzib edilmişdi...

Bəzi müşahidəçilərə görə, Qafqazın ən böyük məscidinin Şeyxülislam Hacı Allahşükür Paşazadənin idarəçiliyinə verilməməsi onun, daha dəqiqi, qardaşı - Şeyxin biznesini idarə etdiyi deyilən Cavanşir Paşazadənin hakimiyyətin təşəbbüskar olduğu "ehsan islahatı"nı altdan-altdan iflas eləməsi ilə birbaşa bağlıdır. Ehtimal edilir ki, iqtidar QMİ sədrindən narazılığını, hətta qəzəbini məhz bu şəkildə bildirib.

Bundan az öncə isə Şeyxin maliyyə imkanlarına zərbə sayılacaq başqa bir addım atılmışdı - dövlətdən ayrılan vəsaitlər hesabına ölkədəki dini icmaların maliyyələşməsi səlahiyyəti ilk dəfə olaraq QMİ-dən alınaraq Mübariz Qurbanlının sədri olduğu Dini Komitəyə həvalə edilmişdi. Ardınca Azərbaycanda yeni və ən böyük ibadət ocağının - "Heydər" məscidinin də Şeyxə çox görülməsi əlbəttə ki, sonuncunun ətrafında dairənin daraldılması təəssüratını yaradır(dı).

Hər halda, çoxdanın söhbətidir ki, hakimiyyətdəki müəyyən çevrə ölkənin birinci şəxsi ilə Şeyxin münasibətlərinin korlanmasında, ən azı soyumasında maraqlıdır. Ancaq tanıyanlar bilir ki, Şeyx həzrətləri də "asan sınan qoz" deyil təbii ki. Onun hələ imkanları qalır ki, bəzi effektli kontur-addımlara getsin.

Birinci ona görə ki, oyun hər halda, onun "meydanında" gedir. Hər kəs də öz meydançasında daha yaxşı, daha inamlı oynayır və şansı görünür. Şans isə ondan ibarətdir ki, QMİ şefi istəsə, faktiki surətdə özəl status daşıyan və axundu da QMİ-dən olmayacaq Binəqədi məscidinə qarşı adekvat cavab qismində ölkənin əsas məzhəbi kimi şiə toplumunda bir ögeylik formalaşdıra bilər.

Məsələn, bayram namazlarını əvvəlki illərdəki kimi, yenə "Təzəpir" məscidində təşkil edər. Halbuki məntiqlə belə namazları maksimum inanc adamının toplaşması üçün ən böyük məsciddə qılınmalıdır. Yeri gəlmişkən, açılışla bağlı belə bir informasiya da keçmişdi ki, "Heydər" məscidində sünni və şiə məzhəbindən olan müsəlmanlar cümə günləri birgə şəkildə vəhdət namazları qılacaqlar. Amma hələ ki, belə namazların qılınması haqda məlumat yoxdur...

Bəs Şeyx bayram namazı üçün Binəqədiyə, QMİ tabeliyində olmayan "Heydər" məscidinə gedəcəkmi?

Söz yox ki, boykot yolu seçməklə o, arxasında prezidentin təşəbbüsünün dayandığı bir projeni iqnor eləmiş kimi görünəcək - imtina üçün gərək çox sanballı əsas olsun. Başqa yandan, gedərsə, onda öz imicinə zərbə vuracaq, BŞİH rəhbəri Hacıbala Abutalıbovun olmayan bığının altından keçmək, onun qarşısında kiçilmək anlamına gələcək. O zaman Dini İdarə başçısı hansı variantı seçəcək ki, "nə şiş yanacaq, nə də kabab"?

Məntiq diktə edir ki, hörmətli Paşazadə ən optimal yolu tutacaq. Söhbət "Heydər" məscidinin QMİ-nin balansına keçirməkdən gedir. Üstəlik, bunun üçün vaxt da az deyil - növbəti bayram namazına hələ kifayət qədər var. Onu da nəzərə alsaq ki, Şeyxin ölkə prezidenti ilə münasibətləri bütün yan təsirlərə baxmayaraq, Bakı meri ilə müqayisədə hələ ki, daha sıcaq və ən əsası, özəldir, o zaman qalan zaman kəsiyində QMİ sədrinin məsələni öz xeyrinə yekunlaşdırması üçün əlavə və bənzərsiz rıçaqa malik olduğu yəqinləşir.

Nəhayət, məscid ilk öncə ruhani sahəyə aid olduğundan Şeyxin öz xeyrinə gətirəcəyi arqumentlər yetərincə inandırıcı görünəcək sözsüz ki. Yəni "öz meydanında oynamaq" məsələsi.

**Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 4 (6032) 9 yanvar 2015

# Əli Həsənov ABŞ-la münasibətlərə dair hər şeyi açıqladı

## "Cənab Kerrinin Azərbaycan Prezidentinə telefon zənginin AzadlıqRadiosunun Bakı ofisindəki axtarışla heç bir əlaqəsi yoxdur"

**Prezidenti Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov "Bloomberg" agentliyinə müsahibə verib. APA-nın hazırladığı müsahibəni qısa ixtisarla dərc edirik.**

**- Azərbaycan-ABŞ münasibətlərində son zamanlar yaranmış gərginliyi nə ilə izah edərdiniz? Kimdir günahkar, əgər belə demək mümkündürsə?**

- Azərbaycan bütün ölkələrlə, o cümlədən Amerika Birləşmiş Ştatları ilə əməkdaşlıq və artıq formalaşmış tərəfdaşlıq münasibətlərini məhz bu prinsiplər əsasında həyata keçirir. Tarixə nəzər salaraq, əminliklə qeyd edə bilərik ki, ABŞ-Azərbaycan əlaqələrinin inkişafında bu və ya digər qlobal geosiyasi, geoiqtisadi və hərbi-geostrateji məsələlərə yanaşmada, Xəzərin alternativ enerji resurslarını dövriyyəyə buraxması və üçüncü minillikdə Qərbin enerji təhlükəsizliyinin təmin olunması kimi məsələlərdə üst-üstə düşən mövqelər böyük rol oynamışdır. Ancaq təəssüf ki, son illər ABŞ-ın bəzi dairələri, xüsusən bir sıra qeyri-hökumət təşkilatları, media və ayrı-ayrı "ekspertlər" Azərbaycana qarşı qeyri-sağlam, tərəfdaşlıq münasibətlərinin ruhuna zidd olan "qara piar" kampaniyası həyata keçirirlər. Bu kampaniyanın məntiqini, məqsədini, hədəflərini anlamaq və izah etmək çətin olsa da, onun ikitərəfli münasibətlərə mənfi təsir göstərdiyi aydın görünür. Üstəlik, ABŞ Dövlət Departamentindəki bəzi məmurlar da hərdən anlaşılmaz açıqlamalar verərək, Azərbaycan ictimaiyyətini çaşdırır və müvafiq olaraq iki ölkə arasındakı konstruktiv münasibətlərə xələl gətirirlər.

**- Razısınızmı ki, münasibətlər heç vaxt indiki kimi gərgin olmayıb?**

- Düşünmürəm ki, ABŞ-ın bəzi keçmiş uğursuz məmurlarının hazırda "ekspert" qismində tez-tez ona-buna, o cümlədən beynəlxalq hüququn subyekti olan müstəqil dövlətlərə ağıl öyrətməyə çalışması, yaxud bu və ya digər hüquqa zidd çağırışlar etməsi, müvafiq olaraq qarşı tərəfin də onlara adekvat cavab verməsi iki ölkə arasındakı dərin tərəfdaşlıq münasibətlərini gərginləşdirmək gücündədir. Azərbaycanla ABŞ arasındakı dövlətlərarası münasibətlər həm tərəflərin milli maraqları baxımından, həm də qlobal beynəlxalq müstəvidə üst-üstə düşür və tərəfdaşlıq xarakteri daşıyır. Hazırda iki ölkə arasında münasibətlər ümumi maraq kəsb edən əsas məsələlər üzrə, o cümlədən qlobal transmilli müstəvidə əməkdaşlıq və tərəfdaşlıq istiqamətində davam etdirilir, qarşılıqlı təmaslar intensivdir. Düşünürəm ki, ölkələrimiz arasında münasibətlərin gələcək tendensiyasını da məhz bu amillər müəyyən edəcək. Odur ki, bu tipli bədbin yanaşma ilə ABŞ-Azərbaycan dövlətlərarası münasibətlərini xarakterizə etmək yanlışdır.

**- Doğrudanmı siz düşünürsüz ki, ABŞ hökuməti Azərbaycanda hakimiyyət dəyişikliyi istəyir və ya özünün "beşinci kolonu" vasitəsilə buna nail olmağa çalışır?**

- Təəssüf ki, müasir dövrdə bəzi beynəlxalq qüvvələr demokratiya prinsiplərinin təşviqi adı altında hansısa "siyasət laboratoriyalarında" hazırlanmış standart proqramlarla müstəqil dövlətlərin daxili işlərinə müdaxilələr edir, bu ölkələrin rəsmi dövlət siyasətini və ictimai prosesləri nəzarətə götürməyə, belə demək mümkünsə, yönəltməyə, idarə etməyə çalışırlar. Bir müddət bundan əvvəl Şərqi Avropada tətbiq olunan bu ssenari sonrakı mərhələdə postsovet məkanını və Yaxın Şərqi əhatə etmişdir. Nəticələr heç də hər yerdə eyni dərəcədə "ürəkaçan" olmamışdır. Belə müdaxilələr bir çox ölkələrdə ictimai-siyasi sabitliyin pozulmasına, vətəndaş qarşıdurmasına, iqtisadi tənəzzülə, sosial kataklizmlərə yol açmışdır. Bəzi faktlar analoji ssenarinin Azərbaycanda da həyata keçirilməsi üçün müəyyən planların qurulduğu fikrinə gəlməyə əsas yaradır. Bununla yanaşı, mən belə cəhdləri birbaşa ABŞ prezidenti və onun administrasiyası ilə əlaqələndirmək istəməzdim. Çünki istər prezident B.Obama, istərsə də ABŞ-ın digər yüksək səviyyəli rəsmi şəxsləri müxtəlif vaxtlarda Azərbaycanla əməkdaşlığın inkişaf etdirilməsinə böyük önəm verdiklərini və bu məqsədlə Azərbaycanın hazırkı prezidenti İlham Əliyevlə, onun rəhbərlik etdiyi iqtidarla işləmək arzusunda olduqlarını ifadə etmişlər. Biz bu fikirlərin səmimiliyinə inanırıq...

**- ABŞ-ın "Sülh Korpusu" bu ildən Azərbaycanı tərk etdi. AzadlıqRadiosunun Bakı ofisinin qapısı möhürləndi. ABŞ-ın maliyyələşdirdiyi "Mediaforum" saytı fəaliyyətini dayandırmaq məcburiyyətində qalıb. Bütün bunları, bəzilərinin dediyi kimi, "anti-amerikan siyasətin" nəticəsi saymaq olarmı?**

- Təəssüf ki, media bir çox hallarda "bəzilərinin" süni şəkildə siyasiləşdirilmiş, qeyri-obyektiv və qərəzli iddialarına həddən artıq böyük önəm verir və onun əsasında da ümumi tendensiyaları müəyyənləşdirməyə çalışır. Azərbaycanın Baş Prokurorluğunun məlumatında göstərilmişdir ki, AzadlıqRadiosunun Bakı ofisinin maliyyə fəaliyyəti şəffaf deyil. Buna görə də prokurorluqda "radio vasitəsilə böyük məbləğdə vəsaitlərin mənimsənilməsi və yuyulması şübhəsi" yaranmışdır. Bunun üçün prokurorluq müvafiq araşdırma aparmış və əməkdaşların sorğulanmasını həyata keçirmişdir. O ki qaldı "Mediaforum" saytının fəaliyyətinə, bunun nə dövlətlə, nə də ki, hansısa dövlət orqanı ilə heç bir əlaqəsi yoxdur. Belə xəbər portallarının sayı Azərbaycanda yüzlərlədir. "Sülh Korpusu"nun fəaliyyətinə gəldikdə, qeyd etmək istəyirəm ki, bu qurum 2003-cü ildən Azərbaycanda fəaliyyət göstərmiş və düşünürük ki, öz missiyasını yerinə yetirmişdir. Hesab edirik ki, bundan sonrakı dövrdə bizdə "Sülh Korpusu"nun belə fəaliyyətinə ciddi ehtiyac qalmamışdır. Azərbaycan hökuməti həm də hesab edir ki, ABŞ kimi fövqəldövlətin başını belə xırda məsələlərlə məşğul etmək olmaz. Bu dövlətin qlobal səviyyədə məşğul olacağı çoxsaylı transmilli problemlər, beynəlxalq və regional konfliktlər və s. məsələlər olduğu halda, onun diqqətini "Sülh Korpusu" kimi lokal məşğuliyyətlə məhdudlaşdırmaq düzgün deyil.

**- AzadlıqRadiosunun Bakı ofisi öz fəaliyyətini davam etdirə biləcəkmi?**

- Azərbaycanda xarici KİV-lərin nümayəndəlikləri və ya əməkdaşları öz nizamnamələri, Azərbaycan qanunları və akkreditasiya qaydaları əsasında fəaliyyət göstərirlər. Müvafiq dövlət orqanları bu sahədə qanunun tələblərinin yerinə yetirilməsinə nəzarət funksiyasını həyata keçirir və əgər pozuntu halları müşahidə olunursa, hüquqi ölçü götürürlər. Bu, onların birbaşa vəzifəsidir. AzadlıqRadiosunun Azərbaycanda yerli tezliyi mövcud deyildi və internet radiosu kimi fəaliyyət göstərirdi. Radio öz nizamnaməsinə uyğun olaraq internet müstəvisində fəaliyyətini indiyə qədər davam etdirdiyi kimi, hazırda da davam etdirir və bundan sonra da yəqin ki, etdirəcək. Sadəcə, Azərbaycanda akkreditasiyadan keçmək və yerli ofis açmaq üçün dövlətin qayda-qanununa əməl etmək tələb olunur. Təbii ki, burada AzadlıqRadiosunun qanunlar çərçivəsində işləyib-işləməməsinə dair istintaq araşdırmasının nəticəsi də öz rolunu oynayacaq.


Əli Həsənov

**- ABŞ Dövlət Departamentinin yaydığı məlumata görə, dövlət katibi Con Kerri dekabrın 21-də prezident İlham Əliyevə zəng edib. Bu telefon danışığının detalları haqda mətbuata heç nə deyilməyib. Kerri prezident Əliyevə nə üçün zəng etmişdi? Maraqlıdır ki, bu telefon danışığından beş gün sonra AzadlıqRadiosunun Bakı ofisi qapadıldı.**

- Telefon danışığında, fikrimcə, ilk növbədə ikitərəfli münasibətlər, ümumi maraq kəsb edən aktual məsələlər müzakirə olunub. Qeyd edim ki, belə təmaslar Azərbaycan və ABŞ rəhbərləri arasında həmişə olmuşdur və cənab Kerrinin telefon zəngi də bu baxımdan istisna xarakter daşımır və hüquq-mühafizə orqanlarının AzadlıqRadiosunun Bakı ofisində həyata keçirdiyi axtarışla heç bir əlaqəsi yoxdur.

**- ABŞ-la münasibətlərin pisləşməsi fonunda Rusiya ilə əlaqələrimiz inkişaf edir. Deməli olarmı ki, Azərbaycan artıq öz strateji seçimini edib və indi Rusiyanın yanındadır?**

- Artıq qeyd etdiyim kimi, Azərbaycan öz xarici siyasətini hansısa dövlətlərin, güc mərkəzlərinin maraqları üzərində deyil, öz milli maraqları çərçivəsində, öz milli iradəsinə uyğun həyata keçirir. Hansısa dövlətlə dost olmaq üçün digəri ilə düşmən olmaq və ya əksinə, Azərbaycana xas olan xüsusiyyət deyil. İşğalçı Ermənistan rəhbərlərindən fərqli olaraq, prezident həmişə müstəqil siyasət yürüdüb və yürütməkdə davam edir. Azərbaycanın ABŞ, Rusiya, İran, Avropanın əksər önəmli ölkələri və ya digər dövlətlərlə əlaqələri onun milli maraqlarına əsasən qurulur və ardıcıl olaraq da həyata keçirilir. Azərbaycan bütün dünya və region ölkələri, o cümlədən həm ABŞ, həm də Rusiya ilə ənənəvi əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin qorunub saxlanmasında maraqlıdır. Bu siyasət heç bir halda digər ölkələrə qarşı yönəlməyib.

# Allahın və Qərbin ümidinə qalan Azərbaycan sualı



Azər RƏŞİDOĞLU

## Kimlər millət vəkili seçiləcək?

**Növbəti parlamentdə kimlər təmsil olunacaq? Ölkədə az qala hər kəs bu suala cavab axtarır. Lakin suala cavab Allahın və Qərbin öhdəsinə buraxılıb. Buna baxmayaraq, zaman daraldıqca, müxalifət partiyaları 2015-ci il parlament seçkilərində bir araya gəlmək üçün birlik formatı axtarışına başlaya bilərlər. Bu seçkilərdə fraksiya şəklində iştirak daha perspektivli görünür.**

Hazırkı mərhələdə Müsavat və AXCP arasında çəkişmələrin olmasına baxmayaraq, seçkilər zamanı yeni birliyin yaranacağı ehtimalı az da olsa mövcuddur. İstisna deyil ki, parlament seçkiləri ərəfəsində adıçəkilən iki partiyanın fəal iştirakı ilə hansısa blok yaransın. Hələ ki tərəflər bu ideyanı süngülərlə qarılaşalar da, əsas məsələ Müsavat və AXCP-nin nə istədiyi yox, Qərbin hansı təklifdən çıxış edəcəyi məsələsidir. Məsələn, Qərbin nüfuzlu siyasi dairələrindən belə bir təklif gələrsə, o zaman müxalifət partiyaları bir araya gələrək yeni siyasi blok yarada bilərlər. Ancaq sual ondan ibarətdir ki, yaradılacaq həmin birliklərin effekti olacaqmı?

Görünən budur ki, Azərbaycan siyasətində köhnə, ənənəvi üsullarla müsbət nəyəsə nail olmaq mümkün deyil. Siyasətdəki cansıxıcı mühit hamını boğaza yığıb. Üç-beş müxalifət partiyasının bir araya gəlməsi və ya əksinə, bir-biri ilə mübarizə aparması qlobal prosesə təsir göstərə bilmir.

Odur ki, siyasətə gənclərin gəlişi daha təqdirəlayiq hesab edilə bilərdi. Müsavat və AXCP-dən kənar olaraq siyasətə gələn gənclər müstəqil şəkildə parlament seçkilərində iştirak etsələr, daha çox uğur əldə edə bilərlər. Zamanı çoxdan keçmiş siyasi birliklərin uğur qazanacağına inam azdır.

Ümumiyyətlə, böyük ümidlərə də əsas yoxdur. Ehtimal etmək olar ki, 2015-ci ilin parlamenti 2010-cu ilin Milli Məclisindən çox az fərqlənəcək və parlamentdə Müsavat-AXCP nümayəndələrindən heç kim təmsil olunmayacaq.

Lakin 2015-ci il parlamentində müxalifəti kimlərsə təmsil etməlidir. Bu dəfə Sabir Rüstəmxanlıya və onun partiyasından deputat mandatı qazanan digər iki nəfərə "yox" deyilə bilər. Fazil Mustafa üçün də geniş perspektivlər görünmür. İlyas İsmayılov da bu dəfə seçkilərdən kənarda qala bilər. Belə olan təqdirsə, "kimlər müxalifətçi kimi MM-də təmsil ediləcək" sualına cavab axtarmaq lazım gəlir.

Burada bir xatırlatmaya ehtiyac yaranır. Ötən ilin 13 dekabrında hakimiyyətin bir sıra siyasi partiyalarla keçirdiyi görüş düşünmək üçün əsas verir. Gələcək millət vəkillərini elə bu görüş iştirakçıları arasında axtarmaq lazım olduğunu düşünənlər az deyil. Düzdür, görüş iştirakçıları arasında millət vəkili statusunda olanlar da var idi. Onların isə bəziləri artıq proseslərdən kənardadırlar. Burada mümkün rokirovkalar diqqəti çəkir.

Son prezident seçkilərindəki razılaşdırılmış radikallığın dozasını artıran Sərdar Cəlaloğluna mandat yolunun təmizlənməsi hakimiyyətə sərf etmir. Millət vəkili statusu qazandıqdan sonra ADP liderinin qısa zamanda radikal müxalifətçiyə çevrilə biləcəyi ehtimalı olduqca böyükdür.

Bu amil Cəlaloğlunu iqtidarın "qara siyahısı"na sala bilər.

Bu sırada özünü intriqalarda yandırmayan və əxlaqlı siyasətçi imici daşıyan 3 nəfərin tale ulduzlarının yenidən parlaya biləcəyini ehtimal edə bilərik. Bunlar KXCP sədri Mirmahmud Mirəlioğlu, Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli və ALP lideri Lalə Şövkətdir.

AMİP lideri Etibar Məmmədov seçkilərə qədər reanimə edilə bilər.

Lakin yuxarıda da vurğuladığımız kimi, seçkilərdə fraksiyaların yaradılması vacib ola bilər. Belə fraksiyalardan biri 13 dekabr görüşünün iştirakçılarından formalaşdırıla bilər. Bir - biri ilə yaxın olan, eyni zamanda bir-birlərindən məsafə saxlayan siyasətçilərin təşkil edəcəyi fraksiya 2015-ci il seçkilərində əsas oyunçulara çevrilə bilərdi.

Burada daha bir məqama diqqət yetirmək lazım gəlir.

Bir qədər əvvəl müxalifətin aparıcı partiyasının 2015-ci il seçkiləri ilə bağlı separat danışıqlarda iştirak etdiyi barədə mətbuata məlumatlar ötürdü və bu qarşıdurmaları müxalifətdaxili ziddiyyətləri daha da dərinləşdirdi. Öncədən bəlli idi ki, bu dezinformasiyadan başqa bir nəsnə deyil və məqsəd əsas hədəfləri gizlətməkdir.

Kənardan görünən elə bu idi ki, guya mandat alverinə hazırlıq getdiyi barədə deyilənlər elə hakimiyyət dəhlizlərindən dövriyyəyə atılmışdı. Əslində, iqtidar bu seçkilərdə də Müsavat və AXCP - yə 2010-cu ilin taleyini yaşatmağı arzulayır.

Bu iki partiyadan məsafə saxlayan, lakin eyni elektorata malik olan qüvvələr yalnız bir halda uğura ümid bəsləyə bilərlər ki, iqtidarın rokirovkalarında yer ala bilsin. Hələ ki, iqtidarın nəzəri 13 dekabr görüşündə iştirak edənlərə dikilib. Daha doğrusu, onların arasından seçilə biləcək bir neçə nəfər iqtidarın görmək istədiyi siyahıda yer ala bilər.

Hələ proseslər yekunlaşmayıb. Nələrisə dəyişmək mümkündür. Lakin görünən budur ki, mövcud status - kvo çoxlarına sərf edir...

YENİ MÜSAVAT
N 4 (6032) 9 yanvar 2015



# Peyğəmbəri aşağılamaq terror deyil ki?

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Elə çıxmasın ki, sərlövhəyə çıxarılan başlıqla Parisdəki 7 yanvar qətliamına haqq qazandırırıq. Əsla. Normal insanlar kimi, biz də bu terror aktını qətiyyətlə pisləyir, cinayətkarların cəzalandırılmasını istəyirik. Amma eyni zamanda hamını,ələlxüsus, Qərbin siyasi və dövlət xadimlərini, cəmiyyətlərini bu kimi faciəvi olayların səbəblərini təhlil etməyə çağırırıq.**

Axı, o da var ki, əməkdaşları soyuqqanlıqla güllələnən jurnal İslam peyğəmbərini dəfələrlə təhqir edəndə, ABŞ-da Qurani-kərim yandırılanda belə iyrənc əməllərin təşəbbüskarları ictimai qınağa tuş gəlmədilər. Əksinə, əksəriyyət bunu söz-ifadə azadlığının təzahürü saydı. Bununla da təhlükəli tendensiyanın davam eləməsinə "xeyir-dua", radikalların əlinə isə bəhanə verildi.

Halbuki bir milyard yarım insanın pərəstiş elədiyi bir tarixi şəxsi, üstəlik, Allah elçisini məsxərəyə qoymaq elə həmin bir milyard yarımın inancına tüpürmək demək idi, lap dəqiqi, terror idi. Zamanında Avropa cəmiyyətləri belə mənəvi terror aktlarına, mənəvi eybəcərliklərə ciddi təpki vermiş olsaydı, 12 jurnalist hələ də öz doğmalarının yanında idilər.

Avropada 7 yanvar olayını bəşəri dəyərlərə, söz-ifadə azadlıqlarına hücum, barbarlıq kimi qiymətləndirirlər. Amma və lakin söz-ifadə azadları, başqalarının, yüz milyonların təməl haqları, o sırada vicdan və etiqad azadlıqlarının başladığı yerdə bitməli deyil? Peyğəmbəri asağılamaq terror, barbarlıq deyil ki? Hərgah, əminik ki, İslam peyğəmbərinin özü ona həqarət edənlərlə qarşı bu cür davranışı birmənalı rədd edərdi, çünki İslam vəhşiliyi, zülmü təqdir və qəbul eləmir, əksinə, ona qarşı çıxmağı buyurur.

Olayla bağlı bəziləri diqqəti hücumdan iki saat əvvəl jurnalda İŞİD lideri əl-Bağdainin karikaturasının dərc edilməsinə yönəldirlər. Guya terror aktının motivində bu fakt dayanır. Boş şeydir. Bağdadi kimdir axı? Cəmi bir neçə min adamın müvəqqəti kumiri, bu gün var, sabah olmayacaq və qısa zamanda unudulacaq adi bəndələrdən biri.

İndi 3-4 min adamın başçısı, "səhra komandiri" hara, bir milyard yarım adamın peyğəmbəri, ruhani kumiri hara? Belə çıxır ki, Bağdadi, əsrəğfürullah, peyğəmbərdən də nüfuzlu imiş ki, bu boyda qisas aktı törədilib? Əlbəttə ki, yox. Təsadüfi deyil ki, hücumçular "Peyğəmbərin qisasını aldıq" deyiblər. O da artıq bəllidir ki, hücum zamanı öldürülən baş redaktor Stefan Şarbonye "Əl Qaidə" tərəfindən "İslama qarşı cinayətlərə görə" axtarışda olan 9 adamdan biri olub...

Böyük ehtimalla, qanlı hadisədən sonra köhnə qitədə islamofobiya güclənəcək. Belə olacaqsa, bu da yanlış! İslamdan, müsəlmanlardan zorla izqoy, "günah keçisi" düzəltmək, bütün KİV-ləri peyğəmbərin karikaturasını təkrar çap etməyə çağıran Mixail Xodorkovski kimilərin təxribatına uymaq yalnız radikal ekstremistlərin karına gələcək, onların çörəklərinə "yağ sürtəcək", o cümlədən yeni breyviklərı meydana çıxaracaq, ardınca müsəlman dünyasından daha sərt cavablar gələcək və s.

Beləcə, terrorizm ikinci-üçüncü nəfəs alıb genişlənəcək, tərəfdarları artacaq. Problemin qayəsi haqda düşünmək isə yada düşməyəcək. Qayə isə həm də ondan ibarətdir ki, Qərbin bəzi məkrli dairələri israrla sivilizasiyalararası toqquşma yaradıb "bulanıq suda balıq tutmağa" çalışır. Amma dünya düzəni, çağdaş qlobal təhlükəsizlik əksini - sivilizasiyalararası dialoqu diktə edir.

Bu xüsusda qardaş Türkiyənin Paris olayına reaksiyası təqdiredici sayıla bilər. Türkiyə XİN-in açıqlamasında deyilir: "Biz terrorun hər cürünə qarşıyıq. Terrorla mübarizədə ciddi bir əskiklik var. Bu cür hadisələr irqçilik və İslama qarşı hərəkətlərdən qaynaqlanır. Hücumu şiddətlə qınayırıq..."

Yəni hər cür terror pisdir, içində "yaxşısı" ola bilməz. Terrordan isə heç bir toplum, fərd sığortalanmayıb. Belə riskləri yalnız minimuma endirmək mümkündür. O da birgə, ardıcıl və ciddi səylərlə. Bundan ötrü dövlətlərin qüdrəti, nüvə potensialı, "terrorla mübarizə" adı altında hansısa ölkənin işğal edilməsi həlledici deyil. Həlledici - toplumların, ictimai qurumların, o sırada ictimai rəyi formalaşdıran aparıcı media quruluşlarının, nüfuzlu simaların, ziyalıların mövqe və həmrəyliyidir.

Nə qədər ki, bu sahədə boşluq qalır, o boşluğu daima breyviklər, "əl-Qaidə"çilər, İŞİD-çilər dolduracaq. Necə? O da bəlli...

# Müxalifət partiyalarının əməkdaşlıq mərkəzində fikir ayrılığı

**11 partiyanın (Müsavat, KXCP, ADP, Ümid, AXP, AzDP, VİP, ALDP, Aydınlar, Azadlıq, Böyük Azərbaycan Partiyası) əməkdaşlıq etdiyi Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzində (SPDİHM) fikir ayrılığı yaranıb.**

Bu barədə yayılan məlumatda deyilir ki, fikir ayrılığı dekabrın 13-də Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənovla siyasi partiyaların görüşündən sonra meydana gəlib. Mərkəzdə təmsil olunan partiyalardan bəzilərinin sədrinin görüşdə davranışı, hətta bəzi siyasi məhbusları dolayısı ilə tənqid edən fikirlər işlətmələri, bu cür görüşləri özlərinin hakimiyyətə yaxınlaşması üçün fürsət bilmələri narazılıq yaradıb.

Fikir ayrılığının mərkəzdəki partiyaların hamısının iştirakı ilə seçki bloku yaradılması ideyası ilə də bağlı olduğu deyilir.

Deyilənlərlə bağlı mərkəzdə təmsil olunan **Ümid Partiyasının sədri İqbal Ağazadə** ilə danışdıq. İ.Ağazadə bildirdi ki, SPDİHM siyasi məhbuslar məsələsi ilə bağlı yaradılmış bir qurum idi, funksional əməkdaşlığı nəzərdə tuturdu. Funksional əməkdaşlıq davam etdirilir. Konkret məsələlərə gəldikdə isə fərqli fikirlər, yanaşmalar həqiqətən də var: "Konkret məsələlərdə mövqe ifadə edilməsində fərqli yanaşmalar görürük. Ona görə hələlik o qədər də maraqlı görünmürük bu məsələlərdə. Çünki biz 2015-ci ilin seçki ili olduğunu nəzərə alaraq daha ciddi və daha konkret mövqelərin tərəfdarıyıq. Yəni 2015-ci il parlament seçkilərində birgə iştirak, namizədlərin birgə müəyyən olunması, strategiyanın birgə qurulması və siyasi blokun yaranması. Biz bu məsələlərdə açıq mövqe ifadə edirik. Qapalı



**İqbal Ağazadə:**
"Dağınıq, pərakəndə funksional birliyin yox, sərhədləri və hədəfləri tam şəkildə bəlli olan, bütün diqqətini seçkiyə yönəldən birliyin tərəfindəyik"



**Sülhəddin Əkbər:**
"Hər bir müxalif partiya artıq öz potensialının səmərəli mübarizə üçün yetərsiz olduğunu çoxdan anlayıb"

mövqeyimiz yoxdur. Təbii ki, bu, o demək deyil ki, biz mərkəzdə olan bütün partiyaların hamısı ilə bir blokda ola bilərik. Belə bir şey yoxdur. Kimlərlə seçki blokunda ola biləriksə, hələlik onlarla da müzakirələr istədiyimiz effektiv mərhələdə deyil. Ona görə də hazırda daha çox partiyanın işi ilə məşğuluq, seçkiyə hazırlaşırıq. Yaxın 15-20 gündə hesab edirəm siyasi düşərgədə bir aydınlıq olacaq ki, proseslər hansı məcraya yönəlir".

**Mərkəzdə təmsil olunan Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər isə bildirdi ki, mərkəzdə hakimiyyət təmsilçisi ilə görüşdən sonra fikir ayrılığının olması barədə informasiya əsassızdır:** "Görüşlə, görüşün nəticələri ilə bağlı mərkəzdə müzakirələr olub. Görüşün daha yüksək səviyyədə keçirilməsi üçün nələr etmək mümkün idi, o barədə də fikir mübadiləsi olub. Gələcəkdə bunların nəzərə alınması tövsiyəsi olunub, sağlam müzakirələr gedib. Hər hansı bir fikir ayrılığı yoxdur. Son toplantıda bundan sonra mərkəzin gələcəyi barədə fikir mübadiləsi olub. Parlament seçkilərində əməkdaşlığın mümkünlüyü, bunun variantları barədə müzakirələr olub və bir niyyət bəyannaməsinin layihəsi razılaşdırılıb. Bu niyyət bəyannaməsinin də əsas məqsədi ondan ibarətdir ki, SPDİHM qarşıdan gələn parlament seçkilərində müxalifətin səmərəli iştirakını təmin etmək üçün ən geniş birliyin yaradılmasını düzgün yol hesab edirlər. Bu istiqamətdə də danışıqlara başlanması barədə qərar olub. Yəni ən son yenilik bundan ibarətdir. Ola bilsin ki, sizin sualda qoyduğunuz məsələ son toplantımızda Qarabağ blokunda olan partiyaların ümumiyyətlə iştirak etməməsi, Müsavat Partiyasının isə qeyd etdiyim məsələnin müzakirəsində iştirak etməməsi ilə bağlı ortaya çıxıb".

**S.Əkbər qeyd etdi ki, bu partiyalarla da müzakirələr davam etdiriləcək və müsbət nəticənin əldə olunacağına inanır:** "Çünki hər bir müxalif partiya artıq öz potensialının səmərəli mübarizə üçün yetərsiz olduğunu çoxdan anlayıb və hamının bir araya gəlməsini şərait və şərtlər diqtə edir. O baxımdan mən SPDİHM-də fəaliyyətin perspektivini görürəm. Biz orada bir neçə məsələ üzrə danışıqların aparılmasını nəzərdə tutmuşuq ki, bu da bütün partiyaların maraqlarına uyğundur. Azərbaycanda demokratik islahatların aparılması, Seçki Məcəlləsinə demokratik dəyişikların edilməsi, seçkiqabağı şəraitin demokratikləşdirilməsi, seçki kampaniyasının gedişində əməkdaşlıq və fəaliyyətin koordinasiyası. Bu baxımdan düşünürəm ki, qarşıdakı dövrdə bizim əsas fəaliyyət istiqamətlərimizdən biri də Azərbaycan müxalifətinin bir araya gətirilməsi olacaq. Bu istiqamətdə nə qədər irəliləyişə nail ola biləcəyik, bunu zaman göstərəcək".

❑ **Etibar SEYİDAĞA**

# Qubad İbadoğlunun hərəkatı təşkilatlanır, Müsavat isə...

## Elman Fəttahın fikrincə, ADR Müsavatda parçalanma görüntüsü yaratmağa cəhd edir

**Müsavat üzvü Qubad İbadoğlunun təsis etdiyi Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatının növbəti təşəbbüs qrupu Suraxanıda yaranıb. Q.İbadoğlu facebook səhifəsində Vurğun Əyyub, Ellada Məmmədli və özünü iştirakı ilə təsis yığıncağı keçirildiyini qeyd edib. "ADR-in Suraxanı rayonu üzrə Təşəbbüs Qrupunun təsis yığıncağında hörmət bəslədiyimiz və tanıdığımız Rövşən Dəmirli, Rüfət Əliyev, Heydər Oğuzla yanaşı, xeyli fəallar təmsil olundular. Təşəbbüs Qrupunun üzvləri ilə açıq və səmimi söhbətimiz, faydalı müzakirələrimiz ADR-in gələcəyinə olan inamımızı bir az da artırdı. Razılaşdıq ki, dolmuş daha bir vərəqi qatlayaq və yeni səhifədən başlayaq".**

**ADR-in Təşkilat Komitəsinin rəhbəri Qubad İbadoğlu** "Yeni Müsavat"a bildirdi ki, Suraxanıdan sonra başqa bölgələrdə də təsis yığıncaqları olacaq. Q.İbadoğlu hava şəraiti ilə əlaqədar olaraq hələlik Bakı rayonlarında təsis yığıncaqları keçirməyi planlaşdırır: "Sumqayıt və işğalda olan rayonlarımız daxil olmaqla, Bakının rayonlarında təsis yığıncaqları davam edəcək. Ondan sonra cənub, Mərkəzi Aran, qərb bölgəsinə səfərlər nəzərdə tutulub. Eyni zamanda İmişli, Beyləqan, Füzulidə görüşlərimiz olacaq".

**Q.İbadoğlu qeyd etdi ki, bir-iki ay ərzində təsis yığıncaqları ilə bütün ölkəni əhatə etmək hədəfi qoyulmayıb:** "Ölkənin üçdə birində bu təşəbbüs



Qubad İbadoğlu

qrupları yaradılacaq və sonra təsis konfransı keçiriləcək".

**Müsahibimiz ADR-in təşkilatlanmasının üzvü olduğu Müsavata heç bir aidiyyəti olmadığını bildirdi:** "Bu, siyasi hərəkat deyil, ictimai hərəkatdır. Burada Müsavatın və digər partiyaların üzvləri təmsil olunur, müstəqil fəallar var. ADR-in Müsavatın bazasında yaradılması kimi dəyərləndirilməsini qəbul etmirəm".

Müsavat başqanının müavini Elman Fəttah hesab edir ki, heç bir təşkilat Müsavatın parçalanmasına səbəb ola bilməz. Onun sözlərinə görə, bu təşkilat da daxil olmaqla, bir sıra hadisələrlə Müsavatın parçalandığı görüntüsünü yaratmağa cəhd edirlər.

E.Fəttah onların heç nəyə nail olmayacağını düşünür: "Bu təşkilatın Müsavatla əlaqəsi yoxdur. Bu təşkilat Müsavata qarşı yaradılıb. Müsavatdan çıxarılanlar orada təmsil olunur və partiyaya faşist mövqeyindən çıxış edirlər. Tamamilə anti-Müsavat təşkilatıdır. Bu, partiyaya qarşı kampaniyanın davamıdır. Müsavatın nüfuzuna xələl gətirmək, narazıları ora cəlb etməklə parçalanma görüntüsü yaratmaq istəyirlər".

Bu məsələdə iqtidarın barmağının olması sualına başqan müavini belə cavab verdi: "Müsavata qarşı müxtəlif vektorlu qüvvələr var. İqtidar, Müsavatın opponentləri, partiyamızın uğurlarını qəbul etməyən adamlar".

❑ **E.SALAMOĞLU**

**Müsavat Partiyasının başqanı Arif Hacılının partiyanın Mərkəzi İcra Aparatı postuna Gülağa Aslanlını rəhbər təyin etməsinə qarşı çıxanlar tapılıb. Ənənəvi olaraq narazılıq yenə də eyni şəxslərdən gəlib. Müsavat başqanlığına sabiq namizəd, bir müddət öncə Müsavatdan xaric edilən Səxavət Əlisoy teleqraf.com-a bildirib ki, Müsavatın Mərkəzi İcra Aparatı nizamnamədən kənar yaranmış qurumdur və əslində bu qurum ləğv edilməli idi: "Arif Hacılı heç vaxt o qurumun başına müstəqil fikir sahibi olan adamı gətirə bilməz.**

# Arif Hacılının təyinatına qarşı çıxanlara sərt cavab

## "Müsavatı və müsavatçıları, Müsavat rəhbərliyinə daxil olan şəxsləri təhqir etmək birilərinin övladlarına və ailəsinə çörək qazanmaq yolu olub"

Partiya yolunda fədakarlıq etmiş, xüsusi əməyi olan özəl fikir sahibi Tural Abbaslını Aparata sədr gətirə bilərdi. Tural Abbaslı başqanlığa namizəd idi, gənclərə olan münasibətdən narazılığı var. Tural Abbaslının təyinatı olsaydı, düşünmək olardı ki, Arif Hacılı partiya daxilində narazılıqları səngitmək üçün bu addımı atır. Arif Hacılını tanıyan şəxs kimi deyə bilərəm ki, bu adam heç vaxt özünə biət etməyəni vəzifəyə təyin etməz. Onun yanında olan adamların içərisində özgür fikir sahibi yoxdur. Əksəriyyəti Hacılını tutuquşu kimi təkrarlayır, yaxud sidq ürəkdən Arif Hacılıya aşiqdirlər. Aparatın sədri postuna hətta Yaşar Türkazəri də qoysalar, əhəmiyyəti olmayacaq. Gülağa Aslanlı sədaqət prinsipinə görə o postu qazanıb. Düşünürdüm ki, Arif Hacılı onu özünə baş köməkçi qoyacaq. Ancaq bir az dərindən fikirləşəndə elə Mərkəzi İcra Aparatının rəhbəri partiya başqanının baş köməkçisi sayılır. Hacılı zehniyyətində Müsavat Partiyası kiçik MMC-dir, yumurta sexidir. Bu səbəbdən nizamnamədən kənar post yaradıb öz aşiqlərini də o postlara qoyar ki, ətrafı boş qalmasın".

**Gülağa Aslanlı isə əvvəlcədən razılıq olduğu barədə iddiaları əsassız sayır:** "Bunu deyən insanlar mənim Arif Hacılının seçki qərargahına rəhbərlik etməyimi əsas götürürlər. Bu xətti götürənlər mənim Məclis sədri olacağımla bağlı da iddialar irəli sürürdülər. Mən sadəcə olaraq, öz vəzifəmi yerinə yetirirəm. Bu vaxta qədər öz enerjimi partiya üçün sərf etdiyim kimi, bundan sonra da öz təcrübəmi, bacarığımı partiyanın inkişafına yönəldəcəyəm.

Mərkəzi İcra Aparatına sədr təyinatı partiya başqanının müstəsna səlahiyyətinə daxil olan məsələdir. Biz uzun müddət partiyanın rəhbərliyində birgə çalışmış insanlarıq. Sözün düzü, mənə əvvəl belə bir təklif olmuşdu. Lakin mən bir qədər ertələnməsini istəmişdim. Dekabrın 30-da işə gedərkən belə sərəncam verildiyinin şahidi oldum. Mənə göstərilən etimada görə təbii ki, partiya başqanına öz təşəkkürümü bildirirəm. Əsas məqsədlərimdən biri partiyanın idarə olunmasına öz töhfəmi verməkdir".

**Müsavat Partiyası başqanının müavini Səxavət Soltanlı isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Gülağa Aslanlının Mərkəzi İcra Aparatının rəhbəri postuna təyinatı partiyada müsbət qarşılanıb. Bu təyinatdan narazılıq edən Səxavət Əlisoya əslində baş qoşmağa dəyməz. Çünki Səxavət**



Gülağa Aslanlı



Səxavət Soltanlı

**Əlisoy artıq Müsavat Partiyasının üzvü deyil. Onun partiyanın daxili işlərinə, təyinatlara burnunu soxması siyasi etikasızlıqdır. Siyasi etikası olmayanlara ciddi cavab da verilməlidir:** "Ağzının danışığını bilməyən, etikası olmayan, siyasət haqqında anlayışı olmayan, siyasi idarəçilik nədir bilməyən insanlara cavab vermək faydasız söz-söhbətə səbəb olacaq. O söz söyləyənlərin də məqsədi Müsavata söz atmaqla gündəmdə qalmaqdır, odur ki, onlara bu imkanı verməyin doğru olmadığını düşünürəm. Artıq Azərbaycan siyasətində və ictimai həyatında elə insanlar yoxdur. Müsavat rəhbərliyində və üzvləri arasında Gülağa Aslanlıya qarşı böyük hörmət, inam, etimad var. Heç kim narazı deyil, əksinə, hər kəs bu təyinatdan məmnundur.

Gülağa Aslanlı bacarığına, partiya işində təcrübəsinə görə Mərkəzi İcra Aparatının rəhbəri təyin olunub. Hamımız da hesab edirik ki, bu təyinat düzgün təyinatdır. Gülağa bəyin təyinatına qarşı çıxanlar Müsavatda olduqları müddətdə Müsavat üçün Gülağa Aslanlıdan artıq zəhmət sərf ediblər? Qətiyyən. Ona görə də onların haqqı yoxdur ki, Müsavat üçün fədakarlıq göstərən bir şəxsin partiyada vəzifəyə təyin olunmasına qarşı çıxsınlar. Əvvəlcə, Gülağa Aslanlının partiya üçün xidmətləri ilə öz fəaliyyətlərini tərəziyə qoyub müqayisə etsinlər. Azacıq ədalət hissləri qalıbsa, görəcəklər ki, fəaliyyətləri Gülağa bəyin xidmətləri yanında sıfıra yaxındır".

**Müsavat Partiyasının ünvanına "yumurta sexi" və digər ifadələrlə aşağılayıcı ifadələrin işlədilməsinə gəlincə, S.Soltanlı dedi ki, bu ifadələr onu işlədənin bir daha səviyyəsini göstərir:** "Çoxdandır Müsavatı və müsavatçıları, Müsavat rəhbərliyinə daxil olan şəxsləri təhqir etmək birilərinin övladlarına və ailəsinə çörək qazanmaq yolu olub. Kimlərsə bu "biznesə" yeni başlayıbsa, indiyə qədər bu cür fəaliyyətlə məşğul olanların necə istifadə olunub kənara atılmalarını nəzərdən keçirsinlər. Bu kimi ifadə işlədənlərə verilsi çox cavablar var, amma adıma, tərbiyəmə, Müsavata yaraşmadığı üçün bununla kifayətlənirəm. Başa düşənlər düşəcək".

❑ Etibar SEYİDAĞA

# NİDA-çı gənclər həbsxanaya köçürülüblər



## Yanvarın 13-də Yadigar Sadıqovun Ali Məhkəməyə şikayətinə baxılacaq; həbsdəki müsavatçı qardaşlara qəzet verilmir

**Siyasi motivlərə görə həbs edilmiş məhbuslardan gələn xəbərlər ürəkaçan deyil. Havaların kəskin soyuması məhbusların da saxlanma şəraitlərinə təsirsiz ötüşməyib. Xüsusilə cəzaçəkmə müəssisələrində məhbəs həyatı yaşayanların vəziyyəti daha ağırdır. İstilik sistemində ciddi problemlər var.**

Əsas problem yaşanan müəssisələrdən biri Bakının Qaradağ rayonunda yerləşən 13 saylı cəzaçəkmə müəssisəsidir. Burada Müsavat başqanının müavini Tofiq Yaqublu, sabiq səhiyyə naziri Əli İnsanov, SMDTM rəhbəri Anar Məmmədli, NİDA-çı gənc Əbdül Əbilov həmin müəssisədə cəza çəkirlər.

Müsavat başqanının müavini **Tofiq Yaqublunun qızı Nigar Yaqublu** sonuncu dəfə atası ilə yanvarın 4-də görüşdüyünü bildirdi: "Səhhəti, əhvalı normaldır. Havalar soyuyandan sonra əlaqə saxlaya bilməmişik. Çox narahatıq. İstilik sisteminin necə olması barədə bir söz demək çətindir. Bu həftə yox, gələn həftə görüş günüdür".

**2 saylı cəzaçəkmə müəssisəsində saxlanılan REAL sədri İlqar Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova onunla yanvarın 8-də danışdığını söylədi:** "Telefonla danışdım. Soyuqlar hələ təsir etməyib. Səhhətindən şikayəti yoxdur. Saxlanma şəraiti isə əvvəlki qaydadadır. Danışanda daim ölkə və dünyada baş verən son yeniliklərlə maraqlanır. Dostlara salamı var".

**Yanvarın 16-da məhkəməsi başlayacaq, 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılan hüquq müdafiəçisi İntiqam Əliyevin oğlu Nəcmin Kamil atasının səhhətinin yaxşı olduğunu qeyd etdi:** "Sonuncu dəfə danışmışıq. Bir dəyişiklik yoxdur. Özünü yaxşı hiss edir. Hamı kimi məhkəməsini gözləyir".

**Müsavat başqanının həbsdəki müavinlərindən Fərəc Kərimli və qardaşı Sirac Kərimlinin atası Raqif Kərimli övladlarının saxlanma şəraitinin normal olduğunu söylədi:** "Fərəc telefonla danışdı. Səhhətləri ndən şikayətləri yoxdur. Əsas narazı qaldıqları məsələ qəzetlərin verilməməsidir. Bayramdan sonra ümumiyyətlə qəzet verilmir. Təcridxana rəhbərliyi heç bir əsas gətirmir".

Məhkəmələri bitən bəzi məhbuslar artıq cəzaçəkmə müəssisələrinə köçürülüb.

**NİDA-çı gənc Rəşadət Axundov Nərimanov rayonu ərazisində yerləşən 10 saylı cəzaçəkmə müəssisəsinə köçürülüb. Bu barədə musavat.com-a onun həyat yoldaşı Türkan Hüseynova məlumat verib:** "Hazırda 10 saylı müəssisəyə yerləşdirilib. Karantində olduğu üçün xəbər tuta bilmirik".

**Həbsdəki digər NİDA-çı gənc Məmməd Əzizov 2 saylı cəzaçəkmə müəssisəsinə köçürülüb. Bu barədə gənc fəalın atası Rasim Əzizov məlumat verdi:** "Bu gün eşitdim ki, 2 saylı müəssisəyə köçürülüb. Sonuncu dəfə Məmmədlə noyabrın axırında Kürdəxanı da görüşmüşəm. Bizə dedi ki, gəlməyin, bayramda ola bilsin azad olunacam. Ailədə məndən başqa hamı Məmmədin azadlığa çıxacağına ümid edirdi. Mən heç vaxt ümid etməmişəm, etməyəcəm də. Xəyallar aləminə həyatım boyu inanmamışam. Konkret rəqəm hər şeydən artıqdır. Sonra karantinə düşdü. Anası ilə əfvdən sonra danışıb".



Yadigar Sadıqov

**Gənc fəalın anası Məhluqə Əzizova övladının əfvə düşməməsinə üzüldüklərini bildirdi:** "Çox inanırdıq Məmmədin azad olunacağına. Özünün də inamı yüksək idi. Amma alınmadı. Əfvdən sonra mənimlə danışdı. Mən ürək-dirək verdi. Dedi ki, nə vaxtsa buraxacaqlar. Mart ayına çox ümidi var. Yəqin ki, azadlığa buraxılmamasını məsləhət biliblər. Bu barədə bir şey deyə bilmərik. O uşaqların hamısı mənim üçün əzizdir. Deyə bilmərəm ki, niyə Zaur, Üzeyiri buraxdılar, Məmmədi yox. Hamısı bizim üçün dəyərlidir. Onlar arasında seçim edə bilmərik. Amma çox istərdim ki, mənim də övladım azadlığa çıxsın".

**Müsavat Partiyası başqanının həbsdə olan müavini Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsinin sədri, Müsavat başqanının müavini Elman Fəttah modern.az saytına açıqlama verib. O, Yadigar Sadıqovla dekabrın 26-da görüşdüyünü bildirib:** "Yadigar Sadıqovun xroniki ürək problemləri var. Mütəmadi olaraq dərmanlar qəbul edir. Belə ağır problemləri olan birinin ağır şəraitdə saxlanması bizi çox narahat edir. Yadigar Sadıqov ailəsi ilə həftədə bir dəfə telefon əlaqəsi saxlayır. Görüş üçün bir məhdudiyyət yoxdur. Amma onun ailəsi Lənkəranda yaşayır, cəzasını isə 14 saylı cəzaçəkmə müəssisəsində çəkir. Bu baxımdan ailənin hər həftə görüşü mümkün olmur.

Yadigar Sadıqovun saxlandığı müəssisə gigiyenik standartlara cavab vermir. Ona qanunsuz münasibət müəssisəyə köçürülərkən də var idi, indi də davam edir. Qanunla o, Salyandakı Xələc Cəzaçəkmə Müəssisəsinə köçürülməli idi. "Cəzaların icrası haqqında" Qanunda da qeyd edilir ki, məhkumlar yaşayış yerinə yaxın cəzaçəkmə müəssisələrinə köçürülməlidir".

**Elman Fəttah bildirib ki, yanvarın 13-də Yadigar Sadıqovun Ali Məhkəməyə şikayətinə baxılacaq:** "Şirvan Apelyasiya Məhkəməsi Yadigar Sadıqovun həbs cəzasını 4 ilə endirdi. Apelyasiya Məhkəməsinin bu qərarından Ali Məhkəməyə müraciət olundu. Tələbimiz ona bəraət verilməsindən ibarətdir. Ali Məhkəmənin ədalətli qərar çıxaracağını gözləmirik. Çalışırıq ki, işi sürətləndirib Avropa İnsan Hüquqları Məhkəməsinə göndərək. Ali Məhkəmədə Yadigar Sadıqovun hüquqlarını Osman Kazımov müdafiə edəcək".

Yadigar Sadıqov 2013-cü il iyunun 27-də Lənkəranda tutulub. Lənkəran sakini Rəşid Kərimovu döyməkdə, ona bədən xəsarəti yetirməkdə ittiham olunan Yadigar Sadıqov 2014-cü il yanvarın 13-də Lənkəran Rayon Məhkəməsinin qərarı ilə 6 il müddətinə azadlıqdan məhrum edilib. İyulun 22-də Şirvan Apelyasiya Məhkəməsi həbs cəzasını 4 ilə endirib.

❑ Cavanşir ABBASLI



# Yaşayır Azərbaycan!

Zamin HACI
zaminhaci@gmail.com

**Bizdə xüsusi insan növləri vardır ki, onlar həmişə kiminsə ölümündə qatili yox, başqalarını səbəbkar tutarlar, hətta ölənin özünü belə. "Günah öləndədir" - belə bir el məsəlimiz də vardır, iki eşşəyin arpasını bölə bilməyən müdriklərimiz haçansa uydurub millətin boğazından asıblar, biz də bu paslı medalyonla xoşbəxtcəsinə dolaşırıq.**

Əslində, doğrudan da bizim xoşbəxtliyimiz üçün böyük şeylər lazım deyildir: bir təsbeh, yarım kilo ət, babat piyli arvad (ya da qıllı ər - yerinə baxır), qurudlu xəngəl, yüz qram araq, "bir kəllə qənd"... Vəssəlam, şüttəmam. Hətta Sokratın "Gör burda nə qədər lazımsız şeylər vardır!" cümləsini 8-ci kilometr bazarında söylədiyi tarixi arxivlərdə qeydə alınıbdır. Bu haqda böyük alim ağayi Quleybani-nin "Xortdan və Bülbüli-zari-giriftar" risaləsində yazılıbdır, tapıb oxuyanın gözü kor olur.

İndi Fransada jurnalistlərin öldürülməsi də eyni bucaqdan şərh edilir. Bir çoxları guya terroru pisləyən bəyanat yazır və içində qeyd edir ki, öldürməkdə düz eləməyiblər, ancaq "milyardlarla insanın" *(bu rəqəmi də özüm oxudum, halbuki müsəlmanlar 2 milyard da deyil)* heysiyyətini təhqir eləmək düzgün deyilmiş, gərək karikatura çəkəndə bizdən məsləhət alaydılar, biz özümüz onlara mövzu verərdik, misal üçün, Binəqədi rayonunda yerləşən 45 saylı Mənzir İstismar Sahəsinin müdiri Gülbala müəllimin qəşəng karikaturası çıxar, niyə "Şarli Ebdo" qəzetəsi bunu çəkmir və sairə və ilaxır...

Yəni bu adamların söz azadlığı anlayışı bayaq adını çəkdiyim bucağın ölçüsü qədərdir. İctimai tənqid, hətta bütpərəstliyi sındırmaq üçün ictimai nüfuzlu şəxslərin "təhqiri" *(bunu da onların dilindən yazıram, mənim üçün ictimai şəxs haqda hər cür mövqe - onun sağlamlığına zərər vurmadan - qəbul ediləndir)* nə qədər vacibdir onu anlamırlar. Zor deyil ki, anlamırlar da! Bəs bu zaman nə etmək olar?  Yəni sən kiməsə cəhənnəm odu vəd edə bilərsən, donuz əti yediyi üçün, araq içdiyi üçün lənət oxuyarsan, kəkili açıq dolaşdığı üçün başını kəsə bilərsən, ancaq bu dünyagörüşünün karikaturasını çəkəndə heysiyyətə toxunurmuşsan... Nə gözəl, nə sərfəli heysiyyətdir... Hətta adamı cəlb edir, imana gəlirsən. Ləzzət edir. Hər jurnalist öldükcə nə qədər iman artır, bilirsinizmi? Qorxu pis şeydir.

Nə isə, gedək MİS müdirinin kainata vurduğu zərərləri hesablamağa və bu arada Amerikadan mənə gəlmiş bir bayram təbrikini gec də olsa hörmətli oxucularımıza çatdırmaq istəyirəm. Azərbaycanlı bir qardaşdır, adının çəkilməsini istəmir, ancaq xeyli dərəcədə maraqlı, bəhri-təvil janrında təbrik yazıb göndərmişdir:

"A bəy, bayramın mübarək! Neçə bundan yaxşı illərə çıxasan. Cansağlığı, uzun ömür arzu edirəm! *(Bu, təbrikin "xoda salma" hissəsidir, zəifdir -Z.H.)* Həyat firavan, oğul pəhləvan, bizimdir İrəvan, həm də İcevan, yuyuldu Salyan, gəlmədi qurudan, gəldi Nuşirəvan, çaldı balaban, sübh səhər 6-dan, hər qotur kanaldan, göstərdilər yalandan, ulaq üstdə palannan, bulaq başı ceyrannan, süzüldü stəkan, düzüldü yan-yan, içildi çaydan, oxundu yar aman, soyundu üryan, nejə oldu idman? Hanı bizim Van Damm? Hara girdi vulkan? Niyə olmur tufan? Kimdir ki Sarkisyan? Bizim büdcəmiz kalan, gəl ki yuxarıdan Vovan, altdan da molla İran, öz hayında Ərdoğan, tənqid də ki bu taydan, yorulmadan Barakdan, çəkilməsin neyləsin bu yazıq başa tuman?! Yaşasın Azərbaycan! Fəxr etsin qoca, cavan! Elə odur ki, gəlir arada Nuşirəvan, çalır zurna-balaban, hər qotur kanaldan... *(burada müəllif təsir gücünü artırmaq üçün xeyli təkrirə yol vermişdir, kəsirəm-Z.H.)*, şıllaq atan fontandan, tikilən bağçadan, sökülən Ulu fonddan, yaşayır Azərbaycan! Firavan Azərbaycan! Əylənir Azərbaycan! Dincəlir Azərbaycan! Çox da sözlər deyilib, o tayda Şəhriyardan, bu tayda Arazdan, nə can qurban etməyə, nə ayağa qalxmağa gərək yox, Azərbaycan! Yaşayır Azərbaycan! Nə yaxşı yorulmur, çalan zurna-balaban..."

Bax, əziz millət, inkişafımız Amerikadan bu cür görünür, o səbəbdən sevinməyə əsaslar vardır.

# Azərbaycanı sanksiyalardan qoruyan əsas qüvvə...

## Politoloq: "Pentaqon Cənubi Qafqazın əsas ölkəsi ilə körpüləri yandırmaq istəmir"

**ABŞ-ın nüfuzlu "The Wall Street Journal" qəzetində Azərbaycanın bu ölkədəki səfiri Elin Süleymanovun məktubu dərc edilib.**
**APA-nın xəbərinə görə, E. Süleymanov "Freedom House" təşkilatının keçmiş rəhbəri, Vaşinqtondakı Makkeyn İnstitutunun direktoru Devid Kramerin AzadlıqRadiosunun Bakı bürosu ilə bağlı tənqidlərinə cavab verib.**

Səfir bildirib ki, Azərbaycanda aparılan istintaqın ABŞ-a qarşı meydan oxumaq şəklində qiymətləndirilməsi sovet dövründə "əzilən, məsum ABŞ kommunistləri"nin azad edilməsi uğrunda kampaniyanı xatırladır: "SSRİ-də yaşamış biri kimi, mən təəssüflə qeyd etməliyəm ki, bir neçə onillik ərzində ideoloji dezinformasiya kampaniyalarının metodları dəyişməz qalıb".

E. Süleymanov qeyd edib ki, D. Kramerin müdafiə etməyə çalışdığı Leyla Yunus beynəlxalq həkim briqadası tərəfindən müayinə olunaraq sağlam hesab edilib, AzadlıqRadiosunun Bakı bürosu əməkdaşlarının dindirilməsi isə bu KİV-in yaxşı məlum olan ümumi problemi - maliyyə idarəçiliyi ilə bağlıdır.

Qeyd edək ki, Kramer AzadlıqRadiosunun ofisinin bağlanması ilə Azərbaycana qarşı sanksiyaların tətbiq olunmasını tələb edib. O, özünün müəllif məqaləsində Azərbaycanda keçiriləcək Avropa Oyunlarının boykot edilməsi haqda təşəbbüs irəli sürüb, həmçinin Avropa liderlərini Soçi Olimpiadasında olduğu kimi açılış mərasimində iştirakdan imtina etməyə çağırıb. Onu da xatırladaq ki, payız aylarında Devid Kramer və ABŞ-ın  Azərbaycandakı keçmiş səfiri Riçard Kozlariçlə "The American Interest" məcmuəsindəki birgə məqaləsində də Azərbaycan hökumətinə qarşı tədbirlərə çağırmışdılar. Məqalə müəllifləri ABŞ-ı qanunun aliliyi və hesabatlılıq barədə 2012-ci ildə qəbul edilmiş "Maqnitski qanunu"nun Azərbaycan hakimiyyətinə tətbiqinə də çağırırdı. Son dəfə Kramerin Avropa



Yay Oyunlarını boykota çağırması Bakıda sərt etiraz doğurub. Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin sədr müavini, YAP-çı deputat Aydın Mirzəzadə bundan öncə bildirib ki, Kramer bu açıqlaması ilə Azərbaycana olan nifrətini ifadə edib.

Bəzi müşahidəçilərin fikrincə, ABŞ-ın Azərbaycana qarşı sanksiya tətbiq etməsinin qarşısında dayanan əsas qüvvə Pentaqondur. Yəni faktiki olaraq Azərbaycanı sanksiyalardan qoruyan əsas qüvvə Pentaqondur. Belə hesab olunur ki, Azərbaycanla antiterror əməliyyatları çərçivəsində Pentaqonla sıx əməkdaşlığı, həmçinin Bakı aeroportunun NATO təyyarələri üçün xüsusi önəm kəsb etməsi səbəbindən Azərbaycana qarşı sanksiyaların işə salınması o qədər də real görünmür.

**Politoloq Elxan Şahinoğlu əslində münasibətlərin təqdim olunduğu qədər gərgin olmadığı qənaətindədir:** "Mən hələ indiyənə qədər eşitmədim ki, Vaşinqton təhlükəsizlik və enerji əməkdaşlığı məsələlərində rəsmi Bakının siyasətindən narazı qaldığını söyləsin. Azərbaycan hakimiyyətinin enerji resurslarını Türkiyə üzərindən Avropaya çatdırmaq siyasəti, TAP və TANAP layihələrinin reallaşması Vaşinqtonun maraqlarına tam uyğundur. Enerji və təhlükəsizlik sahəsində əməkdaşlıq davam edirsə, Vaşinqtonun yalnız insan haqları və demokratiya mövzularına görə rəsmi Bakı ilə münasibətlərini gərginləşdirəcəyini gözləmirəm". **E.Şahinoğlu şübhə etmir ki, Azərbaycana qarşı sanksiyanın tətbiqi rəsmi Bakını Kremlə daha çox yaxınlaşdırar:** "Bu isə Vaşinqtonun maraqlarına uyğun deyil. Son hadisələri götürək. ABŞ-ın Azərbaycanda bu qədər təşkilatı qapandı, amerikalı rəsmilər və diplomatlardan hər hansı kəskin açıqlama eşitdikmi? Bu haqda Amerikada danışanlar yalnız bir neçə QHT rəhbəri, keçmiş səfirlər və bir neçə konqresmendir".

**Politoloq deyir ki, ABŞ-ın Azərbaycana qarşı sanksiya tətbiqini istəməyən əsas strukturlardan biri Pentaqondur:** "Rəsmi Bakı bu vaxta qədər ABŞ Müdafiə Nazirliyini məyus edəcək addım atmayıb, İraq və Əfqanıstanda birgə hərbi əməkdaşlıq olub, regional təhlükəsizlik məsələlərində dialoq bu gün də davam edir. Doğrudur, bu gün Amerikanın nə İraq, nə də Əfqanıstanda qoşun hissələri var. Ancaq sabah bölgədə vəziyyətin necə dəyişəcəyini kimsə bilmir və Pentaqonun yenidən Azərbaycan hakimiyyətinin dəstəyinə ehtiyacı yarana bilər. Pentaqon Cənubi Qafqazın əsas ölkəsi ilə körpüləri yandırmaq istəmir. Pentaqon Azərbaycan hakimiyyətini tənqid edən, sanksiya tələbi səsləndirən bəzi konqresmenlərdən fərqli olaraq Amerikanın təhlükəsizlik maraqlarından çıxış edir. Bu maraqlar isə Türkiyə və Azərbaycan kimi ölkələrlə əməkdaşlığı diktə edir. Son bir ildə müxtəlif amerikalı diplomatlarla fikir mübadiləmiz olub. Onların müzakirə etmək istədiyi əsas mövzu terror və radikalizm təhlükəsinə qarşı Azərbaycanın necə reaksiya verə biləcəyi olub. Göründüyü kimi, hətta Dövlət Departamentinə tabe olan diplomatlar da Azərbaycanla bağlı mövzularda təhlükəsizlik mövzularını ön planda tuturlar. Ona görə də Amerikadan nəsə gözləmək əbəsdir. Amerika Azərbaycanın problemlərini bizim əvəzimizə həll edəsi deyil. Məncə, 24 illik təcrübə bizə dərs olmalıdı..."

❑ Cavìd TURAN

# ABŞ nəşrindən sensasion iddia: "İran Azərbaycanda müharibə olmasında maraqlıdır"

## "The Hill": "Müharibə evləri dağıdır, İran isə tikir..."

**İran dünyada üçüncü sement istehsalçısı olaraq müharibələrdə maraqlıdır. Bu ölkənin əsas hədəfləri sırasına Yaxın Şərq, eləcə də Xəzər hövzəsi daxildir.**

Publika.az xəbər verir ki, ABŞ-ın "The Hill" nəşrində dərc olunan Vaşinqton İnstitutunun Yaxın Şərq üzrə eksperti Adam Heffezin müəllifi olduğu məqalədə evlərin, binaların dağıdıldığı müharibələrin İrana sərfəli olduğu qeyd olunur.

Müəllif İran sementinin 24 ölkəyə ixrac olunduğunu bildirib: "İraq sement ehtiyacının 63 faizini, Türkmənistan 7, Azərbaycan isə 4 faizini bu ölkədən idxal edir. Son dövrlər Pakistan istehsalçıları üçün İran sementi təhlükəyə çevrilib. Pakistan Sement İstehsalçılar Assosiasiyasının sədri Şeyx Aizaz Mənsur İranın bu sahədə müsbət saldosuna görə ABŞ sanksiyalarını əsas göstərir. Çünki İran öz sementini ucuz qiymətə verir. Bu isə Əfqanıstan və İraqda Pakistan sementini bazardan çıxarmaqla hədələyir. İran sementi qeyri-rəsmi kanallarla Bəluçistan və Pakistanın cənub-qərbinə çatır və yerli malı bazardan sıxışdırır".



**Müəllif İranın növbəti hədəfi kimi Xəzər hövzəsini göstərir:** "Xüsusilə dəniz yolu ilə sementin daşınması asan olacaq. Lakin bu hövzədə yerləşən ölkələr, misal üçün, Azərbaycan öz ehtiyacını təmin edir. İndiki məqamda ola bilsin lazımsız ola bilər. Gələcəkdə isə ucuz İran sementi bölgədə bazarları işğal edə bilər".

**Ən maraqlısı isə sement istehsalını artırmaq üçün bu ölkənin dağıdıcı müharibələrdə marağının olmasıdır:** "Fərqi yoxdur, şiələrin çox yaşadığı Azərbaycan, yaxud digər ölkələr. Əsas olan sement üçün əlavə ehtiyacların yaranmasıdır. Müharibə evləri dağıdır, İran isə tikir. İran sement istehsalından həm də siyasi amil olaraq istifadə edir. Bu gün İran Yaxın Şərq və bütövlükdə qitədə nəzarətini möhkəmləndirir. İldə 70 milyon ton sement istehsal edən bu ölkə dünya üzrə üçüncü ən böyük istehsalçı olaraq ABŞ-a addımbaaddım yaxınlaşır. Tehran sement istehsalından siyasi dividentlər üçün də istifadə edir. Misal üçün, bu gün İraqda üsyançıları maliyyələşdirən İran müharibədən sonra bu ölkənin qurulmasına öz sementi ilə töhfə verir. İraqa göndərilən mesaj isə təxminən belədir: müharibə dağıdır, biz yenidən qururuq. İran Qəzza zolağına da öz sementi ilə yardım edir, onların tikinti ehtiyaclarını qarşılayır. 2014-cü ilin martında İsrail hərbi dəniz qüvvələrinin xüsusi təyinatlıları İran sementi ilə yüklü olan 100 konteyner saxladılar. Bu konteynerlərin 20-də döyüş sursatları, raketlər gizlədilmişdi. Suriya müharibəsi də İrana sərf edir. Müharibənin dağıtdığı ölkəni Əsədin istəyi ilə İran quracaq. Eyni zamanda Suriya üzərində siyasi təsirini də artıracaq. Ardınca Suriya üzərindən Livanda siyasi təsirlərini möhkəmləndirməyə çalışacaq. Sement bu ölkə üçün iqtisadi və siyasi divident gətirir. Görünür, Qərbin sanksiyaları onu saxlamağı bacarmadı. Yaxın müddətdə o, öz təsir imkanlarını daha da genişləndirəcək və Xəzər bölgəsinə girməyə çalışacaq. Bu "hücumda" İrana öz sementi yardımçı olacaq".

YENİ MÜSAVAT
N 4 (6032) 9 yanvar 2015

**Ermənistanda ABŞ-ın maliyyələşdirdiyi Milli Demokratiya İnstitutu (National Democratic Institute - NDI) öz fəaliyyətini dondurub. Bu barədə xəbəri təşkilatın başçısı Qeqam Sərkisyan verib. Sarkisyan maliyyənin dayandırılmasının Ermənistanın Avrasiya ittifaqına daxil olması ilə əlaqəli olmadığına əminliyini bildirsə də, bu barədə tam şərh verməkdən boyun qaçırıb.**



# ABŞ Cənubi Qafqazı Rusiyaya güzəştə gedir?

## Milli Demokratiya İnstitutunun Ermənistan ofisinin də maliyyəsi kəsildi, Vaşinqtonun Cənubi Qafqazdakı institutları seyrəlir

“Siz bu barədə sualı yaxşı olar ki, ABŞ səfirliyinə yönəldəsiz” deyə, Sərkisyan sualdan yayınıb. (ANS) Lakin buna baxmayaraq, o, Qərbin Ermənistandan ümidini üzdüyünü və Gürcüstan, Ukrayna və Moldovaya nisbətən ölkəsinə demokratikləşmə yönündə daha az maliyyə ayrıldığını etiraf edib.

Qeyd edək ki, NDI ofisi Ermənistanda 20 ildir fəaliyyət göstərirdi və maliyyənin dayandırılması birinci dəfədir ki, baş verir. Bunu nəzərə alaraq hesab olunur ki, Ermənistan Avrasiya ittifaqına daxil olmaqla demokratikləşmə yönündə Qərbin bütün ümidlərini yerə vurub. Ancaq bu da var ki, ABŞ-ın eyni adlı institutu ötən il Azərbaycandan da gedib. Qeyd edək ki, MDİ Azərbaycanda “rəngli inqilablar”a dəstək verməkdə, onun təşkilatçılarına maliyyə dəstəyi verməkdə ittiham olunurdu. İddialara görə, MDİ Azərbaycanda hakimiyyətə qarşı olan bəzi müxalif dairələrə maddi yardım ayırıb. MDİ-nin “Facebook və rəngli inqilablar” həyata keçirmək üçün 2 milyon dollar pul xərclədiyi də ittihamlar sırasında yer alıb. Açıq Cəmiyyət İnstitutu Yardım Fondunun (Soros) Azərbaycan nümayəndəliyi və bir sıra digər qurumlar da artıq Azərbaycanı tərk edib. Hazırda ABŞ-ın Azərbaycanda yalnız səfirliyi fəaliyyət göstərir. Cənubi Qafqazın üçüncü ölkəsi Gürcüstanda Qərb təsisatları, o cümlədən ABŞ-ın Milli Demokratiya İnstitutu fəaliyyətdə olsa da, müşahidəçilər Saakaşvilidən sonrakı mərhələdə Qərbə “stavka” edənlər ciddi şəkildə zəifləyib.

Elə isə “nə baş verir” sualı ortaya çıxır. Düzdür, Qərb Ukraynada Rusiyaya açıq dirəniş göstərir və “soyuq müharibə” münasibətindədir. Ancaq postsovet məkanının Qafqaz hissəsi ilə bağlı analoji prinsipiallığı müşahidə etmirik. Bu mənada ehtimal etmək olarmı ki, ABŞ-la Rusiya arasında ən azı Cənubi Qafqazın Moskvaya güzəştə gedilməsi barədə məxfi anlaşma var?

**Sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadə mövzu ilə bağlı şərh verərkən öncə ötən il dediyi bəzi fikirlərini xatırladtı:** “Mən bir il öncə buna bənzər fikirlər səsləndirmişdim ki, ola bilsin ABŞ-la Rusiya arasında gizli, yazılmamış bir razılıq olsun. Yəni Amerika bəzi regionları, ələlxüsus keçmiş sovet ittifaqına daxil olan əraziləri Rusiyanın təsir zonası kimi tanısın. Çünki Qərb Şimali və Cənubi Qafqazda, Mərkəzi Asiyada heç bir aktivlik göstərmirdi. Ona görə məndə belə bir təsəvvür yaranmışdı ki, bəlkə Rusiya ilə Qərb arasında razılaşma ola bilər. Amma Ukraynadakı hadisələr şəxsən məndəki bu şübhələri aradan götürdü. Mən tam əmin oldum ki, heç vaxt güclü ilə zəif arasında heç bir razılıq ola bilməz. Ona görə də Vaşinqtonla Moskva arasında gizli, yaxud açıq razılaşmanın olduğuna inanmıram. Gəlin ilk növbədə NATO-nu götürək. Baxmayaraq ki, Putin və başqaları deyirdilər Amerika guya şifahi şəkildə NATO-nun şərqə doğru genişləndirilməyəcəyinə söz versə də, genişləndirildi. Mən buna inanmıram. Çünki şifahi danışıqlar boş şeydir. Şifahi şəkildə nəyi istəsən demək olar, ancaq ondan sonra isə deyilənlərdən, hətta müqavilələrdən belə imtina etmək olar. Ona görə də mən inanmıram ki, ABŞ və Rusiya arasında hansısa buna bənzər razılaşma olsun”.



**Vəfa Quluzadə: “Amerika heç vaxt nə Ermənistanın, nə Azərbaycanın, nə də Mərkəzi Asiyanın üstündən əlini çəkməyəcək”**

**Belə olduğu halda ABŞ-ın Ermənistandan hansı səbəblərə görə getdiyi sualına cavab tapılması lazımdır. V.Quluzadənin isə bununla bağlı maraqlı arqumentləri var:** “Məsələ ondan ibarətdir ki, SSRİ çökəndən sonra geniş kütlələr arasında Qərbə doğru meyl yaranmışdı. Ola bilsin ki, bu meyl Amerikanı və Qərbi aldatdı. Ona görə ki, həmin geniş kütlələr bu ölkələrdə hakimiyyətə gəlmədilər və gələ də bilməzdilər. Hakimiyyətə gələnlər keçmiş sovet iqtisadiyyatının nümayəndələri, yəni kölgə iqtisadiyyatının təmsilçiləri oldu. Onların hamısı cinayətkardan çevrilib biznesmen oldular. Ondan əlavə keçmiş sovet məmurları, komsomol işçiləri də hakimiyyət başına keçdilər. O səbəbə görə Amerikanın gözləntiləri doğrulmadı. Onlar gözləyirdilər ki, postsovet ölkələrində xalqlar Qərbə, demokratiyaya tərəf böyük meyl göstərəcək və Amerika da onları dəstəkləyəcək. Amma bu, olmadı. Xalqların heç birisinin səviyyəsi Qərb dəyərlərinin, Qərb standartlarının səviyyəsində deyil. Hər bir ölkədə bir qrup mütərəqqi insanlar var, xüsusilə də gənclik arasında. Ola bilsin ki, artıq dünyada internetin, informasiya məkanının genişlənməsi demokratiyanın genişlənməsinə zəmin yaradır. Amma bunun xalq səviyyəsinə keçməsi üçün vaxt lazımdır. Görünür, Amerika da praqmatik dövlət kimi bunu başa düşür və anlayır ki, onun demokratik institutları gözlənilən xeyri vermir. Xüsusilə də Ermənistan kimi ölkədə”. **Politoloq deyir ki, Vaşinqtonun İrəvandan əlini üzməsinin özəl səbəbinin olması Avrasiya İqtisadi Birliyinə üzvlüklə bağlı deyil:** “Amerika bizdən yaxşı başa düşür ki, Ermənistan tamamilə qeyri-müstəqil dövlətdir. Deyək ki, başqa ölkələr müstəqil dövlətdir, amma Rusiyadan çəkinir, qorxur, ehtiyat edir, amma Ermənistan fərqlidir, Rusiyanın quberniyasıdır. Ona görə də ABŞ-ın maliyyələşdirdiyi Milli Demokratiya İnstitutunun fəaliyyəti qapadıldı”. **Bununla belə, siyasi analitik Vaşinqtonun Ermənistandan birdəfəlik imtina etmədiyi qənaətindədir:** “Amerika heç vaxt nə Ermənistanın, nə Azərbaycanın, nə də Mərkəzi Asiyanın üstündən əlini çəkməyəcək. Amerika həmişə uzaq perspektivə baxan qlobal bir ölkədir. Bu qlobal ölkə öz maraqlarını dünyanın hər hansı yerində qalib etməyə çalışacaq, ancaq bu, vaxtdan asılıdır. Sovet İttifaqını çökdürmək Amerikanın strategiyası olub. Bunun üçün 1991-ci ilə qədər dözdü. Amerika tamamilə reallıqlarla işləyən, onları tanıyan praqmatik, böyük, qlobal qüvvədir”.

❑ **E.PAŞASOY**

# Fərqli dünyaların toqquşması



**Xalid KAZIMLI**

**Bu cür hadisələr baş verəndə çox az adam Semyuel Hantinqtonu xatırlayır. Hantinqton nə islamofob siyasətçi, nə də radikal dinçi-terrorçu deyil, filosofdur, onu məhz buna görə yada salan yoxdur.**

Hamının dilində-ağzında səs-küylü terror aktını törədənlər, cinayətin arxasında duranlar, qurbanlar, terakta görə xal yığmağa, köhnə planını həyata keçirməyə çalışanlardır.

Çoxları bilə-bilə at izini at izinə qarışdırır. Yüzdəyüz ortada olan gerçəyi danmağa, “bu teraktın arxasında filan dövlət *(ABŞ, İsrail, Rusiya, ərəb ölkələri, İngiltərə və s.)* durur” deyə duru suyu bulandırmağa çalışanlar da çox olur.

Təhlükəsizlik xidmətləri, kəşfiyyat servisləri yüz cür hesabatlar yayır, detallar açıqlayırlar. Terakta görə məsuliyyəti yalandan öz üzərinə götürənlər, bu amansız cinayətə haqq qazandıranlar da nə qədər desəniz.

Bir çoxları günahı müasir inkişafdan geri qalan islam dünyasında, bəziləri kapitalizm dünyasının eybəcərlik və haqsızlığında, bir qismi imperialist qüvvələrin məkrli siyasətində axtarır və hamı da öz həqiqətini tapır. Hər iddiaçı öz düşməninə barmaq tuşlayır.

Əsl həqiqəti isə 25 il öncə Semyuel Hantinqton yazıb.

Yaxın Şərqdə gedən müharibə, saysız-hesabsız terror aktları sivilizasiyaların toqquşması hadisəsidir.

Görkəmli filosof uzun illər öncə islam dünyası ilə xristian aləmi arasında böyük konfliktlərin yaranacağını proqnozlaşdıranda bu müstəvidə hələ gərginlik yox idi, terror aktlarını əsasən kapitalist və sosialist düşərgələrini idarə edən ideologiyalara tapınan terror qrupları, ayrı-ayrı ölkələrdə dövlət çevrilişi təşkil etmək istəyən qüvvələr, separatçılar həyata keçirirdi.

Hər şey Hantinqtonun yazdığı paraqraflar üzrə getdi və gəlib bugünkü şəklə düşdü.

Bu iki dünya arasında müdhiş uçurum var. Təzad çox böyükdür. Dövləti idarə etməkdən məhrum edilmiş, cəmiyyətə basqı imkanı sıfır həddinə salınmış xristianlıq kilsəyə sıxışdırıldığı halda, məscid və camelərdən çıxıb dövləti və cəmiyyəti tam itaəti altına almaq istəyən islami birliklər var.

Bu ekstremist birləşmələrin qurmaq istədiyi dövlət modeli 1500-2000 il əvvəllərin dövlət modellərindən seçilmir. Onların bərqərar etmək istədiyi ictimai formasiya sistemi isə quldarlıq quruluşudur. İnsan haqlarına, qadın azadlıqlarına münasibət də fərqli deyil, o zamankı kimidir.

Demokratiyanın inkişaf mərhələsinin indiki həddində yaşayan və hələ bunu da yetərli hesab etməyən Qərb dünyası isə bu kriteriyalarla yaşamaq istəmir və bunu bəşəriyyətin gələcəyi üçün təhlükə sayır.

Daş dövründə yaşanılan şəraitdə, musiqisiz, televizorsuz, internetsiz yaşayış tərzini Əfqanıstanda bərqərar etmiş Taliban və hazırda da eyni situasiyanı Suriya və İraqda yaratmış olan İŞİD, “əl-Qaidə” kimi birləşmələrlə xristian sivilizasiyası bu üzdən toqquşurlar.

Ən maraqlısı odur ki, öz ölkələrində despotizmin, teokratik rejimlərin basqısından qaçıb İsveç, Hollandiya, Fransa, Norveç, Danimarka, Almaniya kimi yüksək rifahlı azad ölkələrə sığınan milyonlarla müsəlman içində olduqları cəmiyyətə inteqrasiya olunmaqdansa, qaynayıb qarışmaqdansa, kompakt yaşayaraq öz məhəllələrini, öz məktəblərini, öz icmalarını, öz dünyalarını yaradırlar, zaman keçdikcə sığındıqları ölkəyə öz qanunlarını dikta etməyə, hər sahədə muxtar hüquqlar qazanmağa çalışırlar.

Hazırda İsveçdə məscidlərin ard-arda yandırılması, müsəlman icmalarının sıxışdırılması, xor görülməsi də sivilizasiyaların toqquşması hadisəsidir.

11 sentyabr teraktı da o xanədən idi, Londonda metro partlayışları da, İspaniyada avtobusun partladılması da, Parisdə satirik jurnalın redaksiyasında qətliam törədilməsi də.

İndi konspirativ məzmunlu açıqlamalar çoxalacaq, bu hadisəni Qərb dünyasının islamı sıxışdırmaq üçün həyata keçirdiyini deyəcəklər. Əfsanə söhbətdir. Elə olsaydı, milyonlarla müsəlman Avropaya, Amerikaya ümumiyyətlə buraxılmazdı.

Müsəlman ölkələrindəki vəziyyətə baxmaq lazımdır. Pakistanda, Əfqanıstanda məscidləri başqa dinin, mədəniyyətin mənsubları partlatmır. İranda qadınların daş-qalaq edilməsi də, Hindistanda borclu müsəlmanın ailə-uşağının kütləvi şəkildə zorlanması da, Suriyada, İraqda məsum insanların başının kütləvi şəkildə kəsilərək edam edilməsi başqalarını işi deyil. Siyahını iki bu yazının yeri qədər uzatmaq olar.

Bu iki sivilizasiya artıq dinc, yanaşı, iç-içə yaşaya bilmir. Kəsəsi, dini müstəvidə elan olunmamış müharibə gedir. Fransalı jurnalistlər bu müharibənin növbəti qurbanlarıdır.

YENİ MÜSAVAT
N 4 (6032) 9 yanvar 2015



# Arktika da sizin olsun. Doyacaqsınızmı?

Hüseynbala SƏLİMOV

Qatarda qarşımda əyləşmiş bir kişi qəzet oxuyurdu. "Arqumentı i faktı" qəzeti idi. Kişi qəzeti vərəqləyir, mən də böyük şriftlərlə yığılmış başlıqlara baxırdım. Gözümə bir başlıq sataşdı: "Arktika da bizim olacaq!".

Təsəvvür edin, insan yorğun halda metroya gəlir, qatara əyləşir ki, evə tez çatsın və birdən gözü belə bir qəzet başlığına sataşır...

Maraqlıdır ki, bundan bir azca əvvəl bir nəfərlə Rusiyadakı vəziyyətdən danışırdıq. Deyirdi ki, işlər şuluqdur, belə olsa, bəlkə biz də geri qayıtdıq. Onu sakitləşdirməyə çalışırdım, amma özüm də yaxşı bilirdim ki, Yer Rusiyanın ayaqları altından qaçır. Rusların iki həftəlik istirahəti də fəna oldu...

Amma bunlar Arktika eşqindədirlər! Məni həmişə Ermənistanla Rusiyanın əlaqələri çox maraqlandırıb. Həmişə fikirləşmişəm ki, Ermənistan sadəcə, rus imperiyasının kiçik bir geosiyasi rıçaqıdır, yoxsa burada başqa nəsə də var?..

Ermənilər heç vaxt Qafqaz milləti olmayıblar və indi də deyillər. Bu millət Qafqazda həmişə yamaq kimi görünüb. Bəli, kimsə deyə bilər ki, bəs, elə biz də buralara gəlmişik, buralı olmamışıq...

İndi, doğrusu, mən bilmirəm, belə fikirlər nə qədər doğrudur, amma onu bilirəm ki, əgər biz buralara hətta başqa yerlərdən gəlmişiksə belə, lap çoxdan gəlmişik, ermənilər kimi iki yüz il bundan əvvəl gəlməmişik. Biz Qafqazla qaynayıb-qarışmışıq, Qafqaz bizə, biz də Qafqaza hopmuşuq. İndi bizi bu yerlərdən, Qafqazdan ayırmaq dırnağı ətdən ayırmaq kimidir...

Bəli, Rusiya ilə Ermənistandan danışırdım axı... Bu iki millətdə bir oxşarlıq var, bunların gözü torpaqdan doymur. Rusiya gedib Krımı ilhaq etdi, bu qədər böyük böhran yaratdı. Neyləyirdilər Krımı? Onsuz keçinə bilməzdilərmi?..

V.Putinlə Səddam Hüseyn arasında da haradasa bir bənzərlik var. Küveytin işğalı S.Hüseyn üçün bir tələ və həm də son oldu. İnşallah, eyni şeyləri V.Putinlə də bağlı görərik...

Kimsə mənim sətirlərimdə rusofobiya izləri axtara bilər. Amma qətiyyən belə deyil. Həm bir müddət Rusiyada yaşamış, həm də ilk bilgilərini bu xalqın dilində almış adam kimi mənim bu millətə çox normal münasibətim var. Hələ o vaxt da bəzi məsələlərlə bağlı bizimlə ruslar arasında mübahisələr olurdu...

Elə o vaxt da onların iki sözündən biri "Rossiya bolşaya!" sözləri idi. Biz bunları başa düşmürdük. Tutaq ki, Rusiya böyüyüb lap planet boyda oldu! Nə olsun?

Axı əlinizdəki torpaqları əkib-becərə bilmirsiniz, kəndləriniz bom-boşdur, torpaqlarınız da ki, maşallah, bir ucu Qərbdə, o bir ucu da Şərqdə! Amma bundan sizə fayda varmı?..

"Dədə Qorqud" filmində deyir ki, torpağı gərək həm qoruyasan, həm də əkəsən. Qorumadınsa əkməyə ehtiyac yox, qorudun, amma əkmədinsə bundan da bir fayda çıxmaz.

Ruslar torpaq qorumağı öyrəniblər. Buna söz yox. Amma əkməyi-becərməyi öyrənə bilmədilər ki, bilmədilər... Mən iqtisadçı Y.Qaydarı Rusiyanın ən böyük qərbçisi hesab edirdim. Bu adam iqtisadçı olsa da, rusların mental qatlarına baş vururdu, bu qatlardakı çatışmazlıqları hamıdan yaxşı görürdü və başqalarını da bunu görməyə çağırırdı. Amma onu da eşitmirdilər...

Z.Bjezinski öz geosiyasi sxemlərində Rusiyanı "qara dəliyə" bənzətmişdi. Bu hansısa anti-sovetçinin relikt stereotipləri deyildi, müəyyən mənada həqiqəti əks etdirirdi...

Ona görə ki, bu region hər şeyi-yardımları, dəstəkləri udur və kənara bir şey buraxmır. Ona görə ki, bura elə o Rusiya idi. Bəli, o Rusiya ki, orada həmişə islahatçıları öldürüblər. İndi də Rusiyada elə bir ciddi islahat aparmadılar və aparmaq fikirləri də yoxdur.

Bir daha deyirik ki, anti-Rusiya ovqatında köklənməmişik. Sadəcə, bu ölkənin ucbatından *(biz də neft ölkəsiyik axı!)* biz də böyük ehtimalla müəyyən sarsıntılar yaşamalı olacağıq. 90-cı illərin, böhranın dərin vaxtlarının ağrıları indi canımızdan çıxırdı ki, V.Putinin yadına Krım düşdü!

Düzdür, hökumətimiz bizi rahat olmağa da qoymamışdı, amma bir gözümüz ac, o birisi tox, bir təhər yaşayırdıq. İndi bundan da olacağıq...

Nə etmək olar? "Böyük siyasət adamları" deyilənlərin hamısının işi-peşəsi cəmiyyət üçün problem yaratmaq olub, bəli, problem yaratmaqda onlara çatan olmaz...

Nə isə. Kommunistlərin bir yaxşı sözü vardı. Deyirdilər ki, proletariatın zəncirlərindən başqa itirməyə bir şeyi yox... Amma bir təcrübə də var - bütün ölkələrin təcrübəsi göstərir ki, böhran vaxtı varlılar bir az da varlanır, kasıblar isə daha da kasıblaşırlar. Ona görə də kəmərinizdən bərk-bərk tutun...



# Dekanın ölüm işinə dair məhkəmədə şok etiraflar

## Slavyan Universitetinin dekanı Elnarə Tofiqqızının ölümünə səbəb olan hərbi hospitalın cərrahının rütbəsi endirilib, "Medi Sina" klinikasının isə onkoloji əməliyyatlar üçün lisenziyası yox imiş

**Həkim səhlənkarlığı nəticəsində dünyasını dəyişən tənqidçi, Bakı Slavyan Universitetinin dekanı Elnarə Tofiqqızının işi ilə bağlı proses Nəsimi Rayon Məhkəməsində davam edir.**

Hakim Şəlalə Həsənovanın sədrliyi ilə keçən prosesdə Müdafiə Nazirliyinin Baş Klinik Hərbi Hospitalının onkoloqu, E.Tofiqqızının əməliyyatına rəhbərlik edən cərrah-onkoloq Mahir Məmmədov ifadə verib. Cərrah ifadəsində bildirib ki, süd vəzisində əməliyyatla bağlı müayinə aparmayıb, sadəcə, müayinənin nəticələrinə baxaraq təsdiqləyib. Onun sözlərinə görə, əməliyyat onkoloji olub və ölüm anestezioloqun səhlənkarlığından baş verib.

Daha sonra M.Məmmədov məhkəmə istintaqı zamanı ziddiyyətli ifadələr verib. O, ibtidai istintaqa cərrahi əməliyyat zamanı anestezioloq Firuz İbrahimovun öz vəzifəsini yerinə yetirmədiyini bildirsə də, məhkəmədə ifadəsini dəyişib.

Cərrah qeyd edib ki, F.İbrahimov əlindən gələni edib. İbtidai istintaqa isə "anestezioloqun nəzərindən qaçıb" ifadəsini vermişdi. Zərərçəkmiş "bəs hamı hər şeyi edibsə, klinika düzgün seçilibsə, əməliyyat uğurlu aparılıbsa, sağlam insan necə dünyasını dəyişib?» deyərək etirazını bildirib.

M.Məmmədov bu faciədən vicdan əzabı çəkdiyini söyləyib. A.Niftəliyev isə ona "inanmıram ki, vicdan əzabı çəkəsən. Vicdan əzabı çəkən şəxs adam öldürən günü dərhal işə qaçıb, tez-tələsik sənəd saxtalaşdırmaz və iki gün əvvələ məzuniyyət götürməzdi" deyib.

Ardınca M.Məmmədov məhkəmə istintaqı zamanı etiraf edib ki, əməliyyat üçün "Medi Sina" klinikası məhz onun tərəfindən seçilib.

"Medi Sina" klinikasının isə onkoloji əməliyyatlar üçün lisenziyası olmadığı üzə çıxdı. Həmçinin M.Məmmədov əməliyyata görə nazir tərəfindən cəzalandırıldığını və polkovnik-leytenant rütbəsinin alındığını, mayor rütbəsinə endirildiyini açıqlayıb.

Cərrah M.Məmmədov rütbəsinin ondan alınmasının işdən əlavə kommersiya fəaliyyəti ilə məşğul olmasını göstərib. Zərərçəkmiş tərəf isə nazirliyin sözügedən əmrində başqa xüsusatın olduğunu bildirib. Ona görə də zərərçəkmişin hüquqlarını müdafiə edən Səməd Vəkilov həmin əmrin surətinin nazirlikdən alınması barədə vəsatətlə çıxış edib.

Dövlət ittihamçısı Elçin Nağıyev isə bu vəsatətin təmin edilməməsini istəyib. S.Vəkilov bildirib ki, prokurorun vəsatətə etirazı dövlət ittihamını obyektiv müdafiə edəcəyinə şübhə oyadır. Odur ki, zərərçəkmiş tərəf E.Nağıyevin dövlət ittihamçısı kimi prosesdən uzaqlaşdırılmasını istəyib və növbəti prosesdə yazılı vəsatətlə çıxış edəcəyini vurğulayıb. Hakim isə zərərçəkmiş tərəfin nazirliyə sorğu göndərməklə bağlı vəsatətini təmin edib.






Məhkəmədə daha sonra əməliyyat zamanı tibb bacısı işləmiş Ruhiyyə Abbasova da ifadə verib. Onun da ifadəsində ziddiyyətli məqamlar ortaya çıxıb. Tibb bacısı ibtidai istintaqa anestezioloq F.İbrahimovun öz vəzifəsini layiqincə yerinə yetirmədiyini bildirsə də, məhkəmədə bunun tam tərsini söyləyib. Tibb bacısı deyib ki, əməliyyatdan 15-20 dəqiqə sonra xəstənin halı pisləşib:

**"Mahir həkim Firuz doktordan soruşdu ki, bir problem var? Firuz həkim dedi ki, narahat olma. Sonra Firuz əl-ayağa düşdü, dərman-zad... nəsə eləyirdi".** Prokurorun "ibtidai istintaqa demisiz ki, kənardan gətirilən dərmanlar vurulub, hansı naməlum dərmanlar idi" sualına R.Abbasova "bilmirəm" cavabını verib.

Anestezioloq F.İbrahimov isə prokurorun suallarını cavablandırarkən qeyd edib ki, əməliyyat briqadası cərraha tabedir. Buna baxmayaraq, əməliyyat zamanı hər hansı problem çıxarsa, cərraha məlumat vermək borcu olmadığını bildirdi. Dövlət ittihamçısının "bəs nə vaxt problemlə bağlı məlumat verilməlidir" sualını anestezioloq "ürək fəaliyyətini dayandıranda" deyə, cavab verib.

Mahir Məmmədov isə ürəyin fəaliyyətini dayandırdığını hiss etdiyi üçün Firuz həkimə "monitora bax, nəsə düz deyil" dediyini bir daha xatırladıb. Dövlət ittihamçısı "ürək dayanıbsa, niyə cərraha siz xəbər verməmisiniz, cərrah sizə xəbərdarlıq edib" sualı isə açıq qalıb.

Hakim növbəti prosesi yanvarın 21-i, saat 12:00-a təyin edib.

Xatırladaq ki, mərhum E.Tofiqqızı ötən il sentyabrın 20-də "Medi Sina" klinikasında süd vəzi kanalının popilloması əməliyyatı zamanı həkim səhlənkarlığından dünyasını dəyişib.

Sentyabrın 25-də Nəsimi Rayon Prokurorluğunda iş üzrə cinayət işi başlanılıb. Aprelin 10-da isə iş Nəsimi Prokurorluğundan alınaraq, Bakı Şəhər Prokurorluğuna, müstəntiq Vaqif Süleymanovun icraatına verilib.

Nəsimi Rayon Məhkəməsində yalnız həkimlərdən biri - anestezioloq Firuz İbrahimov CM-in 124.1 (ehtiyatsızlıqdan adam öldürmə) və 320.1 (hüquqi sənədləri bilə-bilə saxtalaşdırma) maddələri ilə ittiham olunur.

Prokurorluq onkoloq Mahir Məmmədov və assistent Fərəcullah İdrisovun əməllərində vergidən yayınma və dələduzluğa cəhd faktları aşkarladığından, araşdırılması üçün materiallar müvafiq olaraq Vergilər Nazirliyinin İstintaq İdarəsinə və Nəsimi Rayon Polis İdarəsinə göndərilib.

❑ Emil SALAMOĞLU

# Kardioloqun qatilləri hökmdən narazıdır

**Bakı Apelyasiya Məhkəməsində tibb elmləri namizədi, ürək-damar cərrahı, Tibb Universitetinin nəzdində fəaliyyət göstərən müalicə klinikasının kardiologiya şöbəsinin müdiri Cavid Həmişəyevin qətlində təqsirli bilinən Yasin Ərəbov, Koroğlu Məmmədov və Türkan Bağırlının apelyasiya şikayəti üzrə məhkəmə prosesi davam etdirilib. Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, hakim Qail Məmmədovun sədrliyi ilə keçirilən prosesdə tərəflərin şikayətlərinə məhkəmə istintaqı aparılmadan baxılması barədə qərar qəbul edilib.**

Qərardan kasasiya şikayəti verilib. Ali Məhkəməyə göndərilən şikayətdə apelyasiya instansiyasında şikayətlərə məhkəmə istintaqı aparılmaqla baxılması tələb olunub. Bu səbəbdən məhkəmə təxirə salınıb.

Xatırladaq ki, sözügedən ağır cinayət 2013-cü il, may ayının 25-də Cavid Həmişəyev Nərimanov rayonu, H.Əliyev küçəsi, ev 92, mənzil 8-də öldürülüb. Mərhuma məxsus 90 NU 363 dövlət nömrə nişanlı "Mercedes MLK" markalı avtomobilin də yerində olmadığı müəyyənləşib. Avtomobil daxili işlər və prokurorluq orqanları əməkdaşları tərəfindən "20 Yanvar" dairəsində saxlanılıb. Avtomobildə olan şəxslər - Türkan Bağırlı, Yasin Ərəbov və Koroğlu Məmmədov tutulub. Onların cinayəti tamah məqsədilə törətdikləri məlum olub.

Avtomobilə baxış zamanı isə mərhumun şəxsi əşyaları, sənədləri, Koroğlu Məmmədovun cinayəti törədəndə geyindiyi paltarlar, ümumilikdə 670 manat pul götürülüb. Qətldə istifadə olunan iki ədəd bıçaq isə Buzovna qəsəbəsindəki zibillik ərazisindən aşkarlanaraq maddi sübut kimi götürülüb.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Koroğlu Məmmədov 15 il, Yasin Ərəbov 15 il, Türkan Bağırlı 14 il müddətinə azadlıqdan məhrum edilib. Hökmdən narazı qalan təqsirləndirilən şəxslər apelyasiya şikayəti verib. Koroğlu Məmmədov cəzasının yüngülləşdirilməsini istəyib. Digər təqsirləndirilən şəxslər günahsız olduqlarını və bərələrində bəraət hökmünün çıxarılmasını istəyib.


Cavid Həmişəyev

Hökmdən Baş Prokurorluq da apelyasiya protesti verib. Prokurorluq Koroğlu Məmmədovun ömürlük azadlıqdan məhrum edilməsini tələb edib. Zərərçəkmiş tərəf də təqsirləndirilən şəxslərin cəzalarının ağırlaşdırılması ilə bağlı şikayət ediblər.

YENİ MÜSAVAT
N 4 (6032) 9 yanvar 2015

# “Bakı hər bir güneylinin Kəbəsidir”

## Abdulla Amir Haşimi (Cavanşir): “Həm o tayda, həm bu tayda çox böyük potensial var”

**İsveçdə fəaliyyət göstərən Güney Azərbaycan Konqresinin sədri və Güney Azərbaycan Müvəqqəti Mühacir Parlamentinin təsisçilərindən olan Abdulla Əmir Haşimi Cavanşir Bakıdadır. Azərbaycanın quzeyinə səfəri çərçivəsində bir sıra görüşlər keçirən təbrizli qardaşımız “Yeni Müsavat”ı da ziyarət etdi, baş redaktor Rauf Arifoğlu, qəzetin redaksiya heyəti ilə səmimi görüşəndən sonra qəzetimiz üçün müsahibə verdi.**

Öncə qeyd edək ki, əsl adı Abdulla Haşimi olan qonağımız İranı tərk edib Bakıda yaşadığı illərdə özünə “Cavanşir” təxəllüsünü götürüb. Abdulla bəy 1950-ci ildə Güney Azərbaycanda, Təbriz şəhərində doğulub. Təbriz Universitetində təhsil aldığı zaman tələbə hərəkatına qoşulub. Buna görə də 3 ilə yaxın həbsdə yatıb. Şah rejimi zamanı zindana düşən Abdulla bəy yalnız 1979-cu ildə, İran İslam İnqilabından sonra azadlığa çıxıb. Həbsdən sonra da mübarizəsini davam etdirib. Güneyin bir sıra şəhərlərində təşkilatlanıb fəaliyyət göstəriblər. Ancaq Abdulla bəy təəssüflə bildirir ki, demokratiya dövrü çox qısa oldu və yenidən təqiblər başladı. O zaman hərəkatçılar gizli fəaliyyətə keçməyə qərar veriblər. Abdulla Amir Haşimi deyir ki, 1992-ci ilə qədər davam edən gizli fəaliyyət dövründə yaxınları, ailə üzvləri də kifayət qədər təqib olunub. 1992-ci ildə isə gizli yolla Bakıya qaçıb. Öncə burada Hacı Zeynalabdin Tağıyev adına Toxuculuq Fabrikində kabinet işində çalışıb. Daha sonra isə AzTV-də işə dəvət olunub, böyük redaktor vəzifəsinə başlayıb və 1998-ci ilədək televiziyada çalışıb. Həmin il İsveçə mühacirət edib. 3 il ərzində İsveç dilini mükəmməl öyrənib və xüsusi təcrübə keçəndən sonra 12 il ərzində Stokholm şəhər məktəbində müəllim işləyib. Ancaq deyir ki, əsas məqsədi müəllim işləmək deyildi. 3 övladı, 6 nəvəsi olan Abdulla bəyin dediklərindən:

- Əsas məqsədimiz Güney Azərbaycan məsələsi, diaspor fəaliyyəti ilə məşğul olmaq idi. Odur ki, dərnəklər qurduq. İlk öncə İsveç Azərbaycanlıları Federasiyasını təsis etdik, 40-dan artıq kiçik cəmiyyətləri birləşdirdik. Daha sonra manelərə baxmayaraq Qarabağ Cəmiyyətini təsis edib İsveçdə qeydiyyatdan keçirtdik, 13 ildir mən bu qurumun sədriyəm. Biz Qarabağ həqiqətləri barədə, həmçinin İrəvanın tarixi Azərbaycan ərazisi olması haqda materialları, kitabları yayır, mətbuatda bu barədə materiallarla çıxış edirik. Hazırda ermənilər qondarma “soyqırım” iddiaları ilə çıxış edirlər və 100 illik tədbirlərə hazırlaşırlar, biz də öz tərəfimizdən ermənilərin yalançı simalarını açmaq üçün işlər görürük. Bundan əlavə, Avropanın başqa ölkələrindəki 200-dən artıq diaspor təşkilatı ilə əlaqələrimiz var. Həmçinin Türkiyə diaspor təşkilatları ilə geniş işbirliyimiz var.

***- Bəs Azərbaycanın güneyi ilə necə, əlaqələriniz qalırmı? İndiki situasiya barədə nə demək olar?***

- İnternet şəbəkələri imkan verir ki, uzun illər öncə orda dayanan fəaliyyətimizi yenidən bərpa edək. Biz Güneydə Güney Azərbaycan Konqresini təsis etdik. Bu gün konkret şəkildə Güneydə bizim adamlarımızın olduğunu demək istəmirəm. Amma əsas məsələ ordakı atmosferdir. Biz Urmu gölü problemi, dil məsələsi, yaxud Azərbaycan adlarının farslaşdırılması mövzularını müzakirəyə çıxarırıq, o haqda hətta azərbaycanlı rəsmi şəxslər, ostandarlar, yaxud millət vəkilləri də xal qazanmaq üçün eyni məsələlərdən danışırlar.

***- Bakıya səfərinizdə yəqin ki, konkret məram-məqsədiniz var...***

- Mən güney-quzey fərqini seçə bilmirəm. Bakı hər bir güneylinin Kəbəsidir. Yəqin ki, burdakı soydaşlarımız da Güney həsrətindədir. Mən uzun illərdir Güneyə gedə bilmirəm, ancaq heç olmasa Bakıya gəlirəm, Müsavat Partiyasından tutmuş digər təşkilatlarda, radio-televiziyalarda çoxsaylı dost-tanışlarım, qardaşlarım var. Bu səfərimdə də çoxsaylı görüşlərim olub. Ümid Partiyasının rəhbərliyi ilə görüşdüm, gənclərin “Sərhəd hərəkatı” adlı seminarında iştirak və çıxış etdim, Elçibəyin məzarını ziyarət edənlərin arasında oldum. İstəyirəm ki, burdakı qardaşlarımızın təcrübəsindən yararlanaq və ordakı işlərimizi də irəli aparaq.



> **“Güney Azərbaycanda 300-dən artıq siyasi məhbusumuz var; Şah dövründə həbs olunan Səfərxan Qəhrəmani 32 il zindanda yatmışdı”**

***- Necə bilirsiniz, indiki həssas dönəmdə Bakı Azərbaycanın güneyi, ordakı qardaşlarımız üçün nələri edə bilər?***

- Çox iş görmək olar. Müxaliftin imkanları məhdud olsa da, xüsusilə də burdakı xalqımız, elə iqtidarın özü Güney məsələsinə həssas yanaşmalı, biganə qalmamalıdır. Baxmayaraq ki, iki ölkə arasında müqavilələr bağlanıb, dövlətlərin istəkləri var, regionda çox həssas situasiya yaşanır, bizi istəməyənlər çoxdur, amma burda mədəni, iqtisadi, elmi əlaqələri genişləndirmək lazımdır. Mən İran və Azərbaycan arasında iqtisadi-siyasi münasibətlər haqqında bir kitab da yazmışam, Elmlər Akademiyasına bağışladım. Təəssüflər ki, münasibətlər istənilən səviyyədə deyil, əlaqələri genişləndirmək lazımdır. Biz iki qonşuyuq, böyük xalqın böyük hissəsi ordadır, azərbaycanlıların hərtərəfli zəngin imkanları var. Azərbaycan Respublikası ordakı potensialdan yararlanmalıdır. Yeni imzalanan müqavilələrdə ancaq siyasi məhdudlaşdırmalara getmək düzgün deyil. Həm o tayda, həm bu tayda çox böyük potensial var. O taydakı iş adamlarımıza, rəsmilərə də xitab edirik ki, hər şeydən önəmlisi Azərbaycan Respublikası ilə əlaqələri genişləndirməkdir, Ermənistanla yox. Çünki ermənilər bizim imkanlarımızdan yararlanıb əleyhimizə mübarizə aparırlar. Bu əlaqələr həm də bizim inteqrasiyamız üçün zəruridir. Niyə biz hansısa müqavilələrlə bu inteqrasiyanı məhdudlaşdırmalıyıq, yaxud əlaqələrin qurulmasını təhlükə kimi görməliyik? Düzdür, bu məsələlərdən də sui-istifadə edənlər var. Amma bizim xalqımız, dövlətimiz ayıqdır. Biz o tayla əlaqələrin genişlənməsinə çalışmalıyıq. Həmçinin jurnalistlərimizin də Güneydəki aktual məsələləri diqqətdə saxlaması çox vacibdir.

***- Burdakı görüşlərinizdə irəli sürdüyünüz təkliflərə reaksiyalar sizi qane etdimi?***

- Elmlər Akademiyasındakı görüşümüzdə buna hərtərəfli meyl gördüm. Dövlət səviyyəsində də həmişə İranla münasibətlərin daha yaxşı olmasını istəyirlər. Amma Güney məsələsi daim diqqətdə olmalıdır.

***- Amma İran Güney mövzusu ilə azca maraqlanan adamlara qəzəbli yanaşır. Necə ki, akademiyanın xanım işçisini İranda aylarla dustaq elədilər...***

- Doğrudur. İran hakimiyyətində elə adamlar var ki, biz deyənlərin də tərəfdarıdır. Amma bunun əleyhinə gedənlər də az deyil. Təəssüflər olsun ki, İran dövlətini qorxulu istiqamətlərə çəkən, İraqdakı durumu bu ölkədə bərqərar etmək istəyən qüvvələr çoxdur. Ancaq gərək Tehran bu barədə ciddi düşünsün. İran hakimiyyəti orda yaşayan xalqları və dövləti bu bədbəxtliklərə sürükləməməlidir, düzgün siyasət yürütməlidirlər. Ortaya kürd məsələlərini atır, erməni məsələsindən sui-istifadə edirlər. Azərbaycanın bu tayına gələn tələbələri, gəncləri, iş adamlarını təqib edir, incidirlər. İllərdir ki, Azərbaycanın hər iki Astarası arasında dəmir yolunun çəkilməsi layihəsi ortadadır, hələlik reallaşmayıb. Hakimiyyətdə şovinist bir sistem var ki, hətta müsəlmanlığı da kölgə altına salır, onlar bu layihələrə mane olur.

***- Bəs Avropada Azərbaycanın güney hissəsindəki milyonların, ümumən Azərbaycanın gələcək taleyi ilə bağlı münasibət necədir? Azərbaycan məsələsinə birləşən dövlətlər və millətlər prizmasından yanaşanların faiz əmsalı nə qədərdir?***

- Diaspor təşkilatlarımız media vasitəsilə Avropada Azərbaycanın ikiyə bölünməsi, bir hissəsinin azad və müstəqil olmasını, digər hissəsinin isə İran daxilində heç bir hüquqa malik olmaması barədə həqiqətləri yaymaqdadır. Bu məsələlər həm Avropa Şurası, həm Avropa Birliyi, həm də Avropa Parlamentində dəfələrlə görüşlərdə müzakirə olunub. Ortada manеələr çoxdur. Bu maneələrdən biri də avropalıların öz mənfəətləridir. Baxırlar ki, biz bölgədə çoxluq təşkil edirik, müsəlman ölkəsiyik, tarixən hegemon dövlətimiz olub. Bu mənada güclənməyimiz onlara sərf etmir. Amma istər-istəməz insan haqları uğrunda fəaliyyətə maliyyə ayırır, həm təbliğ edirlər, bu, həm də onların ideologiyalarının bir hissəsini təşkil edir, buna biganə qala bilməzlər. Bu mənada bizim siyasi məhbuslar, insan haqları, qadın haqları və sairlə bağlı İrana çoxlu təzyiqlər olur. Xüsusilə BMT-nin İnsan Hüquqları üzrə xüsusi məruzəçisi Əhməd Şahidin vasitəsilə dilə gətirilir. İranın ildə azı 800 nəfəri edam etməsi həmin hesabatlarda əksini tapıb.

***- Ancaq bütün bunlar İranın rəsmi siyasətini dəyişmir...***

- Təəssüflər olsun ki, İran hakimiyyəti bu siyasəti davam etdirməkdə qərarlıdır. Düzdür, bir qanad başa düşüb ki, ənənəvi siyasəti davam etdirmək olmaz, mədəniyyətlərin dialoquna, dinc şəraitdə inteqrasiyaya ehtiyac var. Ruhani gələndən sonra vədlər verdi. Azərbaycanlılara da vəd verdi ki, Urmu gölünün qurumasının qarşısını alacaq, akademiya quracaq, ana dilində təhsili reallaşdıracaq. Lakin düz 1 il yarımdır iş başındadır, heç nə dəyişməyib.

***- İran zindanlarında uzun müddət cəza çəkmiş ustad musiqiçi Həsən Dəmirçi bugünlərdə Bakıdadır. Görüşdünüzmü?***

- Akademiyadakı tədbirdə görüşdük. Bəli, dəfələrlə həbsə düşüb. Düzdür, o, bizim kimi radikal deyil, sadəcə, milli musiqimizi təbliğ edir. Ancaq ona da imkan vermirlər. Hansı ki, milli musiqimizin təbliği gənclərimizə sağlam ruh verir, onları narkomaniya kimi zərərli vərdişlərdən uzaqlaşdırır. Həsən bəylə 7 ildir görüşmürdük. Ancaq ondan əvvəl iki dəfə musiqi kimi İsveçə dəvət etmişdik.

***- Ehtiyat etmirsiniz ki, qayıdandan sonra onu yenə zindana atsınlar?***

- Düzdür, təhlükə var. Amma Həsən bəy hərəkatda bişmiş bir insandır.

***- Bu gün həbsdə nə qədər milli-mədəni fəal var, statistika varmı?***

- İranda digər xalqlar da öz azadlığı üçün mübarizə aparır: bəluclar, ərəblər, kürdlər. Onlara daha qəddar yanaşırlar. Ərəbləri asır, öldürürlər. Çünki onlar daha çox silahlı qarşıdurmaya üstünlük verir. Biz isə mədəni, sivil yol seçmişik. İndi bizim 300-dən artıq siyasi məhbusumuz var. Onların ən çox həbs alanı hələlik 9 illik cəza alıb. Şah dövründə daha ağır cəza alan var idi. Məsələn, Səfərxan Qəhrəmani 32 il (!) zindanda yatdı. Pişəvəri dövründə zabit idi, milli hökumət süquta yetiriləndə həbs olundu, yalnız inqilabdan sonra zindandan çıxdı. Təəssüf ki, azərbaycanlıları başqa yollarla aradan götürürlər, yol qəzalarına salırlar, yaxud qazla boğurlar.

***- Abdulla bəy, övladlarınız Təbrizə dönmək istəyirmi?***

- Təbii ki, istəyirlər. Amma reallıq başqadır. Böyük oğlumu Bakıdan evləndirmişəm. Naxçıvanlıdırlar. (gülür)

***- Sürgündə Güney Azərbaycan Müvəqqəti Parlamentinin təsisçilərindən birisiniz. Bu məsələdə əsas hədəfləriniz nədir?***

- Sürgündə Güney Azərbaycan Müvəqqəti Parlamenti 15 mart 2014-cü ildə Danimarka şəhərində yaradıldı. Bu, böyük bir addım idi. Təbii ki, digər təşkilatlar kimi bu qurumun da qarşısında böyük manеələr var. İran tərəfi bir yandan, Avropadakı bəzi qüvvələr də bizə qarşıdır. Bu qədər Güney azərbaycanlıya status vermələrini sinirə bilmirlər. Maneələr çoxdur. Ancaq addım atılıb. İstəməzdim ki, parlament mövzusunda çox danışım. Çünki yaradılmazdan öncə dağıtmağa başlayıblar, prosesi müəyyən qədər saxlamışıq, dəstək qazanmaq fikrindəyik. İnşallah, müəyyən mərhələdən sonra parlamentin heyəti ilə sizi daha yaxından tanış edərik. Hazırda işçi qrupu fəaliyyətdədir.

***- Güney Parlamenti adına iddialılar bir araya cəm olub birləşə bilməzmi?***

- Hər kəsin orda öz franksiyasını yaratmaq hüququ var. Biz bunu ona görə yaratmamışıq ki, Güneydəki 35 milyona parlament quraq. Bunu yaratmışıq ki, Güneyin səsini dünyaya yayaq və Güney Azərbaycan da içəridə parlamentini qursun. Bizim mühacirətdə böyük qüvvələrimiz var. Onları bir araya gətirməyimiz, iş aparmağımız lazımdır ki, xalqımız üçün faydalı iş görə biləк.

❑ **Elşad PAŞASOY**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 4 (6032) 9 yanvar 2015

**2014-cü ilin avqustunda Ermənistan Silahlı Qüvvələrinin təxribatları nəticəsində cəbhə xəttində baş verən "üçgünlük müharibə" beynəlxalq qurumların, həmsədr ölkələrin ciddi narahatlığına və hərəkətə keçmələrinə səbəb oldu. Avqustda Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin Soçidə keçirilən görüşü, daha sonra amerikalı həmsədrin təşəbbüsü ilə NATO sammiti çərçivəsində Azərbaycan və Ermənistan prezidentlərinin təması təşkil edildi. Oktyabrda isə Fransa prezidenti Fransua Ollandın təşəbbüsü ilə onun, Azərbaycan və Ermənistan prezidentlərinin üçtərəfli görüşü keçirildi.**



# Ermənistanın "sülh istəmirik" mesajları...

## Beynəlxalq aləmin, həmsədr ölkələrin danışıqlar prosesinin konkret nəticə verməsi üçün apardığı kampaniya və irəli sürülən təşəbbüslərə ermənilər güllə ilə cavab verir



Cen Psaki



Hikmət Hacıyev

Bu görüşlərin yekununda, 2014-cü ilin sonunadək hansısa bir anlaşmanın əldə ediləcəyinə dair ümidlər vardı. Ən azı, sülh sazişi istiqamətində konkret bir sənəd imzalanacağı gözlənilirdi. Lakin noyabrın ilk günlərindən başlayaraq Ermənistan tərəfi öz xislətinə və işğalçılıq siyasətinə sadiq qalaraq, prosesi tormozlamağa, təxribatçılıqla məşğul olmağa başladı. Həmin gündən etibarən atəşkəsi demək olar hər gün pozurlar. Onların azğınlıqları təkcə səngərlərdən açılan atəşlə kifayətlənmədi. Düşmənlərimiz noyabrın əvvəlində Azərbaycan ərazilərində irimiqyaslı hərbi təlimlərə başladılar, onların hərbi helikopterləri bizim səngərlərimizin üzərinə qədər gəlib çıxırdı. Bu təxribatları isə cəzasız qalmadı: Azərbaycan Ermənistan Silahlı Qüvvələrinə məxsus hərbi helikopteri vurdu. Ermənilər bununla da kifayətlənmədilər, özlərini daha bədbəxt duruma salmağa, hər gün itkilər verməyə razılaşaraq, sülh danışıqlarını pozmaq kursu götürdüklərini faktiki olaraq nümayiş etdirirlər...

Gözlənildiyi kimi, 2015-ci ilin ilk günlərində də bu taktika davam edir. Təkcə yanvarın 7-də sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 74 dəfə pozulub.

Müdafiə Nazirliyinin rəsmi saytının məlumatına görə, erməni silahlı bölmələri Ermənistan Respublikasının İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Barekamavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı və Qaymaqlı, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutub.

Tərtər rayonunun Çiləbürt, Qızıl Oba, Goranboy rayonunun Tapqaraqoyunlu, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Novruzlu, Qaraqaşlı, Cəvahirli, Şıxlar, Baş Qərvənd, Şurabad, Şirvanlı, Kəngərli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Horadiz, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Azərbaycan Silahlı Qüvvələrinin mövqeləri atəşə tutulub.

Ermənistanın bu cür davranışı faktiki olaraq "biz sülh istəmirik və bu istiqamətdə aparılan prosesi bütün səylərimizlə pozacağıq" mesajı anlamına gəlir. Əlbəttə, Ermənistanın bu davranışının Azərbaycanın müharibə variantına əl atmaq məcburiyyətində qalacağı da beynəlxalq aləmin diqqətindədir...

**"ABŞ hakimiyyəti Qarabağda atəşkəsin pozulması ilə bağlı məlumatlardan narahatdır". Bunu Dövlət Departamentinin rəsmisi Cen Psaki bəyan edib. O qeyd edib ki, Dövlət Departamenti son günlər Dağlıq Qarabağda atəşkəs rejiminin pozulması, həmçinin zərərçəkənlər haqda gələn xəbərlərdən narahatdır:** "Amerika Birləşmiş Ştatları əvvəllər olduğu kimi, Azərbaycan və Ermənistanı münaqişənin ATƏT-in Minsk Qrupunun himayəsi altında sülh yolu ilə həllinə çağırır. Biz tərəfləri regionda sülhə gətirəcək danışıqlar prosesində iştiraka çağırırıq". C.Psaki deyib ki, danışıqların davam etməsi hər zaman ABŞ-ın diqqət mərkəzində olub və bu gün də belədir.

Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik də məsələ ilə bağlı mövqe açıqlayıb. O bəyan edib ki, Dağlıq Qarabağda gərginliyin eskalasiyası münaqişənin sülh yolu ilə həllinə imkan verməyəcək.

"Cəbhəboyu zonada yaranan son gərginlik Ermənistanın təxribatçı əməlləri ilə hər vəchlə "Böyük sülh sazişi" üzrə işə başlamağa mane olmaq siyasətinin bariz nümunəsidir". Bunu isə "Trend"ə açıqlamasında ABŞ Dövlət Departamentinin sözçüsü Cen Psakinin cəbhə xəttində yaranmış gərginliklə əlaqədar söylədiklərini şərh edən **Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev** bildirib.

**Onun sözlərinə görə, Ermənistan tərəfindən Azərbaycanın ərazilərinin işğalının davam etdirilməsi və işğal olunmuş Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin mövcudluğu regional sülh və sabitlik üçün ən başlıca təhlükədir:** "ABŞ Dövlət Departamentinin sözçüsü tərəfindən də deyildiyi kimi, tərəflər sülh sazişi üzrə danışıqlarda iştirak etməlidirlər. Amma təəssüf ki, Ermənistan təxribatçı əməlləri ilə hər vəchlə "Böyük sülh sazişi" üzrə işə başlamağa mane olmaq siyasəti yürüdür. Cəbhəboyu zonada yaranan son gərginlik də bunun daha bir bariz nümunəsidir".

H.Hacıyev qeyd edib ki, ABŞ Dövlət Departamentinin sözçüsü tərəfindən qoşunların təmas xəttində və Ermənistan-Azərbaycan sərhədində baş verən insidentlərin qarşısının alınması da eyham olunur. Azərbaycan tərəfindən dəfələrlə bildirilib ki, bu kimi insidentlərin baş verməsinin qarşısının alınması və ümumiyyətlə, münaqişənin sülh yolu ilə həlli üçün ilk növbədə Ermənistanın işğalçı silahlı qüvvələri işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmalıdır.

***

Bu arada BBC beynəlxalq media şirkəti də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında videoreportaj yayımlayıb. Azərbaycana səfər etmiş BBC müxbiri Rayhon Demytrienin hazırladığı materialda münaqişə zonasında yaşayan Azərbaycan ailəsi göstərilib. Ailə başçısı danışır ki, onun bütün ailə üzvləri bir kiçik otaqda yerləşməyə məcburdurlar, çünki ev ermənilər tərəfindən daim atəşə tutulduğundan ikinci mərtəbəyə qalxmaq təhlükəlidir.

Materialda deyilir ki, qoşunların təmas xətti boyunca bir çox kəndlərin sakinlərinin evləri daim düşmən atəşinə məruz qalır. *("Trend"in tərcüməsi-red.)* BBC həmçinin bildirir ki, keçən əsrin 90-cı illərinin əvvəlində Qarabağ müharibəsi zamanı 30 min insan öldürülüb. Habelə qeyd edilir ki, Ermənistanla müharibə nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ona bitişik yeddi rayon işğal edilib, yüz minlərlə insan məcburi köçkünə çevrilib.

Süjetdə deyilir ki, aşağı sinif şagirdləri də Ermənistan tərəfindən işğal edilmiş bütün rayonların adlarını əzbər bilirlər və torpaqların mütləq sülh və ya müharibə yolu ilə qaytarılacağına inanırlar.

Bildirilir ki, 1994-cü ildə atəşkəs haqqında sazişin imzalandığı vaxtdan münaqişənin nizamlanmasında çox az irəliləyiş əldə olunub. Eləcə də qeyd edilir ki, dünyada bu münaqişənin "dondurulmuş" adlandırılmasına baxmayaraq, qoşunların təmas xəttində yaşayan minlərlə insan üçün heç də belə deyil və onlar üçün atəş altında həyat gündəlik reallıqdır. BBC bildirir ki, son bir il ərzində münaqişə zonasında, xüsusilə Azərbaycan tərəfinin Dağlıq Qarabağ üzərində Ermənistan hərbi helikopterini vurub saldığı dövrdə gərginlik artıb. Azərbaycan XİN-in mətbuat xidmətinin rəhbəri səlahiyyətlərinin icraçısı Hikmət Hacıyev BBC-yə müsahibəsində ermənilərə məxsus helikopterin Azərbaycan qoşunlarına hücum etməsi və ona görə də vurulub salınması barədə danışıb. O qeyd edib ki, Ermənistan daim Azərbaycana qarşı təxribatlar törədir və bu hərəkətlərdə məqsəd danışıqlar prosesini pozmaqdır. Materialda eləcə də qeyd edilir ki, Azərbaycan öz hərbi gücünü artırmaq üçün milyardlarla dollar xərcləyir.

***

Münaqişənin həlli məsələsində beynəlxalq ictimaiyyətin, həmsədr ölkələrin münasibəti yenə də qəribə, absurd mənzərə kimi görünür. Açıq-aydın görünən budur ki, Ermənistan sülh danışıqlarını pozmaq üçün əlindən gələn hər bir işi görür, konkret nəticələrdən danışıldığı halda onlar provokatorluq edirlər. Və ən başlıcası, bütün dünyaya bəllidir ki, Dağlıq Qarabağ məsələsində Azərbaycan tərəfi birmənalı olaraq haqlıdır, Ermənistan onun ərazilərini işğal edib. Odur ki, münaqişənin həlli üçün ilk növbədə ermənilərin işğal etdikləri ərazilərdən çıxması lazımdır. Ermənistanın nəinki işğal etdikləri ərazilərdən çıxmaq yönündə hansısa bir bəyanatı yoxdur, hətta onlar ümumiyyətlə danışıqlar prosesinin davam etməsində belə maraqlı deyillər. Əgər dünya ictimaiyyəti, beynəlxalq qurumlar, həmsədrlər bunun müqabilində Ermənistan qarşısında qəti tələb qoymursa, bunun əvəzində "biz narahatıq" kimi mənasız bəyanatlar verməklə kifayətlənirlərsə, Azərbaycan tərəfinə də öz torpaqlarını işğaldan azad etmək üçün müharibəyə başlayacağı təqdirdə heç bir irad tutula, qarşısında tələb qoyula bilməz. Amma maraqlıdır, Ermənistanın açıq şəkildə "biz sülh istəmirik və işğalçılıq siyasətindən çəkilmirik" ismarışlarına loyal münasibət bəslənilirsə, o halda, Azərbaycan haqlı olaraq öz torpaqlarını işğaldan etmək üçün addımlar atarsa, ən azı buna da analoji mövqe sərgilənməlidir...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Maqsud MAHRIZLI

YENİ MÜSAVAT
N 4 (6032) 9 yanvar 2015




# Pulun varsa, xarici vətəndaş ola bilərsən...

## Avropa ölkələrinin qapısını şəstlə aça bilmək üçün ən azı 100 min, ən çoxu bir neçə milyon dollar pulun olmalıdır

**Azərbaycanda günü-gündən çətinləşən həyat şərtləri insanları xarici ölkələrə yönləndirir. İctimai sektorda təmsil olunanların mühacir statusu ilə ölkəni tərk etməsi artıq adi hal alıb. Siyasi fəallar, jurnalistlər, hətta hüquq müdafiəçiləri ikibir-üçbir xarici ölkələrə axın edirlər. Hətta xaricdə yaşamaq arzusu yüksələn insanlar da məhz bu səbəbdən ictimai sektora qoşulur, müxalifət partiyalarına üzv yazılır, mitinqlərdə "boy göstərib", bir-iki şəkil çəkdirir və... yaşasın Avropa....**

Amma xarici ölkələrdə vətəndaşlıq almaq üçün bir az məsrəfli, amma alternativ yollar var. Bunlardan biri də xaricdə mülk almaq və ya yatırım qoymaqdır. Bu yaxınlarda "Washington Post" qəzeti "Pulun varsa, vətəndaşı ola biləcəyin və ya yaşayış icazəsi ala biləcəyin 7 ölkə" adında yazı dərc edib. Həmin məqalədə cəmi 7 ölkədən söz açılır.

Bunlardan birincisi Macarıstandır - 2012-ci ildə Macarıstan immiqrasiya haqda qanununa əlavə etdi. Həmin əlavəyə görə, Macarıstanın xüsusi hökumət bondlarını, yəni qiymətli kağızlarını, istiqrazlarını xariciyə vətəndaşlıq verilə bilər. Bunun üçün onun 322 min dollarlıq bond alması kifayətdir.

Başqa Avropa Birliyi ölkələrindən fərqli olaraq Macarıstan investorlardan daşınmaz əmlak almağı və ya ölkədə daimi yaşamağı tələb etmir.

Maltada vətəndaşlıq almaq istəyən 1,57 milyon dollar verməlidir.

Malta 2013-cü ildə bu qərarını elan edəndə vətəndaşlığın satış qiymətini 865 min dollar qoymuşdu, ancaq müxalifətin etiraz nümayişlərindən sonra hökumət qiyməti az qala iki dəfə qaldırdı. Həmin etirazlar qanunda məhdudiyyətlərə də gətirdi. Malta vətəndaşlığı almaq istəyən Maltada daimi yaşamalıdır və vətəndaşlıq ən çoxu 1800 adama veriləcək.

Qəzetin yayımladığı siyahıda ən bahalı vətəndaşlıq verən ölkə olaraq Kiprin adı qeyd olunub. Burada vətəndaşlıq almaq istəyən şəxs 6,2 milyon dollar verməlidir. Böyük investor qrupu daxilində investisiya edənə vətəndaşlıq isə 2,48 milyon dollaradır.

Kiprin bu proqramı varlı rusiyalıları hədəf götürüb.

Dominikan Respublikasında vətəndaşlıq almaq istəyən fərd 100 min dollar ödəməlidir. Həyat yoldaşı ilə birlikdə vətəndaşlıq almaq istəyən isə 175 min dollar verməlidir. Müraciəti verənlərin ölkədə yaşaması tələb olunmur.

Müqəddəs Kits və Nevlis - Karib dənizində iki adadan ibarət olan bu ölkədə vətəndaşlıq almaq müraciəti cəmi 3 səhifədən ibarətdir.

Vətəndaşlıq almaq istəyən adalarda daşınmaz əmlaka 400 min dollar qoymalıdır və ya ölkənin Şəkər Sənayesi Fonduna 250 min dollar ianə verməlidir.

Antiqua və Barbuda - bu ölkələr də Müqəddəsd Kits və Nevils adalarından şərqdə yerləşir. Burada da vətəndaşlıq almaq üçün gərək 400 min dollarlıq daşınmaz əmlak alasan ya da xeyriyyəyə 200 min dollar verəsən.

Karib adalarında yerləşən Qrenada vətəndaşlıq almaq istəyənlərdən Qrenadada fəaliyyət göstərən şirkətlərin 311 min dollarlıq səhmini almasını tələb edir.

Digər dünya ölkələrində də vəziyyət o qədər "ucuz" deyil. Böyük Britaniyada vətəndaşlığını almaq üçün "cəmi" 1 milyon funt ödəmək kifayətdir. İnvestor 750 funtdan az olmayan bir məbləği Britaniya iqtisadiyyatına, eyni zamanda 250 min funtdan az olmayan məbləği isə Birləşmiş Krallıq ərazisində daşınmaz əmlaka yatırmalıdır. Və yaxud da bu məbləğ Britaniya banklarından birində olan hesaba yatırılmalıdır. Bundan sonra investor öz ailəsi ilə birlikdə bu ölkədə qanunla yaşamaq və işləmək hüququ əldə edir. Beş ildən sonra ailə yaşayış icazəsi, bir ildən sonra isə vətəndaşlıq əldə edir. Daha varlı insanlar üçün vətəndaşlığın verilməsi proseduru sürətləndirilə bilər. Ölkəyə 5 milyon funt sərmayə yatırdıqda vətəndaşlıq 4 ildən, 10 milyon funtdan çox sərmayə yatırdıqda isə 3 ildən sonra verilə bilər.

Avstraliyada 4,7 milyon dollarlıq investisiya qoyanlar viza alaraq yerləşə bilir.

Almaniyada nisbətən ucuzluqdur. Burada isə minimum kapital 250 min avro təşkil edir. Sözügedən məbləği ödəyən xaricilər ölkənin vətəndaşlığı qazanırlar.

Araşdırmalara görə, İngiltərə 13 ildə 2 milyondan artıq qaçqına vətəndaşlıq verib. İngiltərə hər 2,5 dəqiqədə bir şəxsə vətəndaşlıq verir.

Makedoniyada 40 milyon avroluq daşınmaz əmlak alan xaricilərə bir illik vətəndaşlıq icazəsi, 400 min avro dəyərində yatırım edənlər və ən az 10 işçisi olanlar Makedoniya vətəndaşı ola bilərlər.

Bolqarıstan azı bir il ölkədə daimi yaşayan və 1,2 milyon dollarlıq yatırım edənlərə vətəndaşlıq verir.

Polşa və Fransa orada müəqqəti yaşamaq hüququ olan əcnəbidən ölkə ərazisində daim olmasını tələb etmir, lakin bu ölkələrdə daimi yaşayış hüququ almaq çox mürəkkəbdir. Polşada bu ölkənin tarixindən imtahan vermək və polyak dilində kifayət qədər səlis danışmaq tələb olunur. Fransada isə yerli dili bilməkdən əlavə, həm də ayda 2600 avrodan az olmayaraq gəlirə malik olmaq lazımdır.

İspaniya hökuməti isə 2013-cü ilin sonlarından etibarən 500 mindən çox avro ödəyərək daşınmaz əmlak alanlara vətəndaşlıq verməyi qərara alıb. Bundan əlavə, dövlət istiqrazlarına 5 il müddətinə sərmayə yatırdıqda vətəndaşlıq əldə etmək olar. Bunu ispan şirkətlərinə 1 milyon avro sərmayə yatırmaqla, yaxud bu məbləği depozit hesabına yatırmaqla etmək olar. Lakin ümumi qaydalara görə, investor yalnızca 10 ildən sonra vətəndaşlığını təsdiq edə bilər.

Portuqaliya hökuməti də 2013-cü ildə «Golden Residence» proqramını yaratdı və bu proqram əsasında əcnəbilərə asanlaşdırılmış şərtlərlə vətəndaşlıq təklif edirdi. Bunun üçün 500 min avroya daşınmaz əmlak almalı və növbəti 5 il ərzində satmamalı idi. Yaxud da investor Portuqaliya iqtisadiyyatını minimum 1 milyon avro həcmində investisiya etməlidir. Bundan sonra investor ölkəyə ilk səfəri zamanı 1 illik yaşayış hüququ rəsmiləşdirə bilər. Gələcəkdə o bu müddəti uzada bilər. İnvestor ölkədə 6 il yaşadıqdan sonra vətəndaşlıq əldə edə bilər. Proqramın şərtlərinə görə, ilk ildə ölkədə məcburi qalma müddəti 7 gün və növbəti illərdə 14 gün təşkil edir.

Kanadada da investisiya qarşılığında vətəndaşlıq almaq mümkündür. Bunun üçün xarici ölkə vətəndaşları biznesi idarə etmək təcrübəsinə malik olduğunu və kapitalının 1,6 milyon Kanada dollarından çox olduğunu və sərvətinizi qanuni yollarla qazandığınızı sübut etməlidir. Bundan sonra əcnəbi şəxs ölkə iqtisadiyyatına 800 min Kanada dolları sərmayə yatırmalıdır. Kanada hökumətinin rəsmi saytında bu investisiyanın nəyə xərclənməsinin göstərilməsi ilə yanaşı, bu ölkədə 5 il və 3 ay yaşadıqdan sonra investisiyanın geri qaytarılmasına zəmanət verilir. Burada yalnız bir mənfi cəhət var ki, ərizənin baxılması müddəti 2 ilə çata bilər. Burada Quebec əyaləti də investorlara proqram təqdim edir. Bu proqramın şərtləri də demək olar ki, eynidir. Yeganə fərq ondadır ki, burada bütün investisiya Quebec iqtisadiyyatının inkişafına xərclənir və ərizənin baxılma müddəti 1 ildir.

Amerika miqrasiya üçün ən populyar ölkələrdən biridir. Bununla belə, ən adi turistik viza almaq istəyən əcnəbilər bir qədər zəhmət çəkməli olur. Lakin varlı investorların digər bir çıxış yolu var: amerikan start-uplarına minimum 500 min dollar sərmayə yatırdıqda və minimum 10 leqal iş yeri yaratdıqda, biznesmen məşhur amerikan Green Card-nı əldə edə bilər. Green Card - ABŞ-da yaşama hüququnu təsdiq edən şəxsiyyət vəsiqəsidir. Gələcəkdə ölkənin vətəndaşlığını əldə etmək üçün investor 5 il ABŞ-da yaşamalı, ingilis dilini, ABŞ-ın tarixini və hüquq sistemini bilməli və sədaqət andı içməyə hazır olmalıdır.

❑ **Hazırladı**
**Sevinc TELMANQIZI**

# Əmanətlərə qoyulan gəlir vergisi-büdcə nə qədər qazanacaq?

## Ekspertlər əmanətçilərə vəziyyətdən çıxış yolu göstərir



**Bu ildən etibarən banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlər üzrə gəlir vergisi tətbiq olunmağa başlayıb. Ekspertlər bunu müxtəlif cür dəyərləndirir.**

**İqtisadçı Qubad İbadoğlu** məsələ ilə bağlı bildirib ki, bu dəyişiklik 5,3 milyon nəfər əmanətçinin gəlirlərinə azaldıcı təsir göstərməklə, dövlət büdcəsinə əlavə olaraq 70 milyon manata qədər vəsait qazandıracaq. "Beləliklə, dövlətin bu mənbədən orta hesabla 70 milyon manatlıq qazancı əmanətçilərin həmin məbləğ qədər itkiləri hesabına başa gələcək",- deyə ekspert vurğulayıb.

**İqtisadçı Samir Əliyev isə bildirib ki, bir qədər əvvəl əmanət faizlərinə tətbiq edilən güzəştin müddətinin ən azı 1 il uzadılmasının vacibliyi ekspertlər tərəfindən qeyd edilsə də, hökumət bunu nəzərə almayıb:** "Ancaq görünür, hökumət fikrində qətidir. Hətta bununla bağlı Vergi Məcəlləsinə dəyişiklik layihəsi hazırlanaraq parlamentə təqdim edilib. Məcəlləyə təklif edilmiş dəyişikliyə əsasən, bundan sonra yerli bank və xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən illik faiz gəlirlərinin ancaq 500 manatadək olan hissəsi vergidən azad olunacaq. Layihə olduğu kimi qəbul olunsa, bu halda orta hesabla 5000 manatdan yuxarı olan bütün əmanətlər vergiyə cəlb ediləcək. Əmanətin illik faizi azaldıqca vergiyə cəlb edilməyən əmanətin həcmi də artacaq və ya əksinə. Məsələn, illik 9 faizlə 5555 manat, 8 faizlə 6250 manat məbləğində güzəştli əmanət qoya biləcəklər. İllik faiz dərəcəsi 11-ə qalxdıqda isə güzəştli əmanətin məbləği 4545-ə qədər azalacaq".

**Ekspert qeyd edir ki, burada əmanətçilərin 2 vacib nüansa diqqət yetirməsi çox vacibdir:** "Birincisi, göründüyü kimi, söhbət konkret olaraq bir banka yatırılmış əmanətdən gedir. Əmanətçi vergi ödəməmək üçün əmanətlərini bir neçə hissəyə bölməklə müxtəlif banklarda yerləşdirə bilər. Və ya ailə üzvlərinin adlarına keçirə bilər. Bu, ailə əmanətlərin inkişafını stimullaşdıracaq. İkinci nüans faizin vergiyə cəlb olunan hissəsi ilə bağlıdır. Əgər əmanətçi banka illik 10 faizlə 10 min manat yatırıbsa, bu halda onun gəliri 1000 manat olacaq və deməli, ödəyəcəyi vergi məbləği 50 manat olacaq".

**S.Əliyevin sözlərinə görə, hazırda ölkə üzrə əmanət qoyuluşunun həcmi 7 milyard manatdan çoxdur. Orta illik faiz dərəcəsi isə 10 faizə yaxındır.** "Deməli, söhbət 70 milyon manat vəsaitdən gedir. Güzəşt davam etsəydi hökumət bu qədər vəsaiti əmanətçilərə hədiyyə etməli idi. Ancaq neftin ucuzlaşması fonunda neft gəlirlərinin azalması büdcənin icrasında problemlər yarada bilər. Bunları önləmək üçün hökumət vergi mənbələrini artırmağa başlayıb ki, onlardan biri də əmanətlərə vergi tətbiqinin bərpasıdır",- deyə o vurğulayıb.

**S.Əliyev qeyd edib ki, əmanətlərin həcminə görə strukturu açıqlanmadığından yeni güzəşt sisteminin tətbiqindən büdcənin nə qədər qazanacağını söyləmək çətindir:** "Hər bir halda bu, 70 milyon manatdan az olacaq və xeyli əmanətçinin gəlirlərinə toxunacaq. 2015-ci ilin dövlət büdcəsində dividendlərdən, faizlərdən və icarədən gəlir vergisi 81 milyon manat artımla proqnozlaşdırılıb. Böyük ehtimalla bu artımın təxminən yarısı əmanətçilərin hesabına örtüləcək. Yeni güzəşt mexanizminin bank sistemi üçün yeganə üstünlüyü əmanət bazarında təmərküzləşmənin azaldılması olacaq. Hazırda əmanət bazarının təxminən yarısı ölkənin 5 iri bankının payına düşür. Yerdə qalan yarısına isə 39 bank nəzarət edir. Vergi güzəştinə düşmək üçün əmanətçilər vəsaitlərini banklar arasında bölməli olacaqlar ki, bu da vəsaitlərin bərabər paylanmasını stimullaşdıracaq.

Ancaq bu addım Mərkəzi Bankın 2015-ci ildə kredit faizlərinin aşağı salınması ilə bağlı qarşısına qoyduğu məqsədə çatması təşəbbüsünə ziddir. Çünki yeni sistem bazarda əmanət faizlərinin artımına gətirib çıxaracaq. Əmanətçini itirməmək və ödənilməli olan vergi məbləğini kompensasiya etmək üçün bank faiz dərəcəsini qaldırmalı olacaq. Bu isə əmanətlərin bahalaşmasını şərtləndirəcək. Deməli, bu il kreditlərin ucuzlaşmasını gözləmək tezdir".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 4 (6032) 9 yanvar 2015




**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**
**Bütün İslam ümmətini aləmlərə rəhmət olaraq göndərilmiş əziz İslam Peyğəmbəri Həzrət Muhəmmədin (s) mövludu münasibətilə təbrik edirik. Allahdan hər birimizə bu Vəhdət həftəsinin içərisində əziz Peyğəmbərimizin (s) mübarək risalətini, gətirdiyi yolu, yaşam tərzini tanımağın və əməl etməyin nəsib olmasını diləyirik.**

# Bəşəriyyətə hədiyyə edilmiş rəhmət



Hacı İlqar İBRAHİMOGLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Peyğəmbərin (s) mövludunu yaşamaq və yaşatmaq missiyası

Allaha həmd olsun ki, ildən-ilə toplumumuzda əziz Peyğəmbərin (s) mövludu daha çox tanınmaqdadır. Allaha şükürlər olsun ki, əziz iman əhli bu mövludu yaşatmaqda xüsusi səylər göstərir. Amma təəssüflər olsun ki, Sovetdən sonrakı mərhələdən artıq illər keçsə də, əziz Peyğəmbərimizin (s) mövludu toplumda, mühitdə, insanlar arasında hələ də lazımi səviyyədə tanınmayıb. Bir qədər də irəli getsək, deyə bilərik ki, hətta inanclı insanların özləri üçün də - o cür ki, bu mövludu yaşatmalı və ətrafa da tanıtdırmalıdırlar - bu hal hələ tam hasil olmayıb. Bunun bir sıra səbəbləri var. Bugünkü bəhsimizdə bunun bir cəhətinə toxunacağıq. Hər birimiz bu cəhətə diqqət etsək, bu mövludu daha da yaxşı yaşatmaq üçün tofiqatımız yaranar.

Bəşəriyyət belə bir xüsusiyyət daşıyıcısıdır ki, çox tez təsirlənir. Bəşərin davranışları, rəftarları, hərəkətləri adətən mühitin təsiri ilə formalaşır. Xüsusən də şadlıq, sevinc kimi məsələlər mühitin təsirindən xeyli qaynaqlanır. Bu, nə qədər kütləvi olursa, insanlar o qədər onu hiss etməyə, yaşamağa və yaşatmağa doğru hərəkətə gəlirlər. Sözsüz, burada o da qeyd olunmalıdır ki, bir çox hallarda insanların şadlanmaları və sevinc hissini yaşamaları iradənin məhsulu deyil. Sadəcə olaraq öz nəfsani meyllərinin ödənməsi, bunlar ödənərkən əldə etdiyi bəlli ləzzət hissləri və öz-özlüyündə kütləvi əyləncə kimi amillər insanlarda ümumi halda hərəkətlənməyə gətirib çıxarır. İnsan toplumun bir tərkib hissəsi olaraq, davrandığı sistemdə şadlanma, şənlənmə, sevinmə kimi halları rahat qəbul edir və daşıyır. Qeyd edək ki, bunları qəbul edib yaşatmaq o qədər də böyük bir iradəvilik, səy, fərasət istəmir. Bu, insanda təbii bir haldan mənbələnir.

Amma o mövzularda ki, orada şadlanmaq və sevinmək üçün mərifət, dərk lazım olur və bunun üzərində iradəvilik, səy etmə tələb olunur - xüsusən də bu mövzu ümumi olmayanda - bunu həyata keçirmək təbii ki, insandan böyük əzm, qabiliyyət istəyir. Üstəlik, bunu həyata keçirmək öz yerində, çox vaxt toplumda xüsusi təqdim etmək də tələb olunur. Kütləvi informasiya vasitələri də burada bəzən sükut edir. Bu mövzu toplumun vərdişlərinə, öyrəşdiyi məsələlərə hələ çevrilməyib. Biz əziz Peyğəmbərimizin (s) mövludu ilə bağlı təqribən bu vəziyyətdəyik.

On il, iyirmi il öncə ilə müqayisə etsək, əlbəttə ki, irəliləyişlər var. Şüurlu, dərkli, inanclı insanlar, ailələr bu mövludu duyurlar, dərk edirlər, bu mövluda mərifətləri var və bunu yaşadırlar. Amma bütün bunlar topluma təqdim etmə səviyyəsinə hələ çatmayıb. İnsanlara hələ bu mövlud lazımi səviyyədə çatdırılmayıb. Bunu nəzərə alaraq, gərək biz də düşünək. Hələ biz digər Məsumların (ə) mövludlarını müzakirə etmirik. Toplumun öz Peyğəmbərini (s) sevməyə, onun mövludunu keçirtməyə, bu mövludu dərk etməyə yetərincə daxili hazırlığı var. Bu məsələlər üzərində lazımı qədər düşünmək, hazırlaşmaq lazımdır. Tək öz daxilimiz üçün deyil, ətrafımız, yaxınımız, əzizimiz üçün də bu mövludu necə təqdim etmək barədə düşünməliyik. Bu xüsusda ailələrin, anaların, övladların edə biləcəkləri fövqəl dərəcədədir. İldən-ilə çalışmalıyıq ki, bu istiqamətdə irəliləyişlər əldə edək. Bu da bir halda mümkündür. Bizlər ilk öncə bu bayramı öz daxilimizdə yaşatmalı, özümüz ailələrimizlə bunu yaşatmalı və daha sonra ətrafa ən gözəl şəkildə təqdim etməliyik.

## Allahın bəşəriyyətə rəhmət hədiyyəsi

Əziz İslam Peyğəmbərini (s) tanımaq üçün, onun özünün özü haqqında buyuruşlarına diqqət etmək çox önəmli olar. Həzrət Rəsulallah (s) buyurur: “Mən - Allahın tərbiyə etdiyi, Əli isə mənim tərbiyə etdiyimdir”. Bəlli olur ki, əziz Rəsulallah (s) Allah Təalanın tərbiyə etdiyi, yetişdirdiyi bir müqəddəs insandır.

Özünü tanıtdırması baxımından başqa bir buyuruşunda Peyğəmbərimiz (s) həm hədiyyə olmasını, həm də rəhmət olmasını çatdırır. Həzrət (s) buyurur: **“Ey insanlar, mən əslində Allah tərəfindən hədiyyə edilmiş bir rəhmətəm”.** Əziz Peyğəmbərimiz (s) Allahın bəşəriyyətə hədiyyə edilmiş rəhmətidir. Allahın varlıq aləminə, bəşəriyyətə, insanlığa sevgisinin, rəhmətinin, məğfirətinin təzahürüdür Həzrət Rəsulallah (s).

Başqa bir yerdə Peyğəmbərimiz (s) özünü ondan öncəki peyğəmbərlərin (ə) dualarının qəbul olunmasının nişanəsi olaraq tanıtdırır. Allah Peyğəmbəri (s) buyurur: **“Mən Həzrət İbrahimin Kəbənin sütunlarını ucaldarkən ”Ey Rəbbimiz, onların arasında özlərindən bir peyğəmbər göndər", deyə etdiyi duasıyam".** Yəni əslində Rəsulallah (s) öncəki peyğəmbərlərin (ə) həyata keçmiş duasıdır.

Başqa bir incə buyuruşunda Peyğəmbərimiz (s) özünün şəfaətçi məqamına toxunur. Peyğəmbərimiz (s) buyurur: **“Məqsədim özümü tərifləmək deyil. Mən - peyğəmbərlərin (ə) bələdçisiyəm. Özünü tərifləmək olmasın, mən peyğəmbərlərin (ə) xatəm və sonuncusuyam. Özünü tərifləmək olmasın, mən ilk şəfaət edən və şəfaəti ilk qəbul olan şəxsəm”.** Peyğəmbərimiz (s) bütün peyğəmbərlərə (ə) bələdçi, eyni zamanda onların bütün missiyalarını tamamlayan və kamil hala çatdıran, eyni zamanda ilk şəfaət edən və şəfaəti ilk qəbul olan şəxsdir. Allahdan istəyimiz budur ki, bizlərə bu şəfaətdən bəhrələnməni nəsib etsin!

Bütün bunları nəzərə alaraq Peyğəmbərimizin (s) mövluduna ibadi ruhiyyə ilə baxmalıyıq. Günlərdir xeyli sayda insan gününün bir hissəsini Peyğəmbərin (s) xidmətində qoyur, Peyğəmbər (s) mövludunun yaşanmasına xidmətçiliyə həsr edir. Evdən çıxanda, nəfəs alanda, hərəkət edəndə bu niyyətlə hərəkət edir. Bu cür yaşayan insanın xoş halına. Mövluddan günlər öncə bu ruhiyyə ilə yaşayan və bu mövludun tanıtdırılması üçün xidmət göstərməyə can atan inanc əhli çoxdur. Məhz belə insanlara Peyğəmbərin (s) şəfaəti çatar.

## Rəsulallahın (s) özünü tanıtdırmaq vəzifəsi var

Peyğəmbərimiz (s) Allah dərgahına daxil olan ilk şəxsdir. Həzrət Rəsulallah (s) buyurur: **“Qiyamət günü izzət və qüdrət sahibi olan Allahın dərgahına daxil olan ilk şəxs mən, Onun Kitabı və Mənim Əhli-beytimdir və sonra ümmətim. Sonra onlardan Allahın Kitabı və mənim Əhli-beytimlə nə etmələrini soruşacağam”.** Xoş olsun inanc əhlinin halına ki, bu soruşulmağa hazırdırlar. Allahdan tofiqat istəyirik ki, bu sorğu-suala hazır olaq.

Əziz Peyğəmbərimiz (s) varlıq aləminin ən üstünü və insanların ən təqvalısıdır. Peyğəmbərimiz buyurur: **“Sizin ən təqvalınız və Allahı ən yaxşı tanıyanınız - mənəm. Allah Təala məndən üstün elə bir məxluq yaratmayıb ki, Onun yanında məndən əziz olsun”.** Bu buyuruşlarda biz əziz Peyğəmbərimizin (s) öz dili ilə onu tanıyırıq. Təbii ki, dəfələrlə buyurduğu kimi, Rəsulallahın (s) özünü tərifləməyə heç bir ehtiyacı yoxdur. Amma bizə özünü tanıtdırmaq, kimliyini çatdırmaq vəzifəsi var. Belə bir əziz Peyğəmbərin (s) ümməti olmaq kimi səadətimiz var bizim.

## Xəstə qəlblərin həkimi olan Peyğəmbər (s)

Peyğəmbərimiz (s) təbibdir, həkimdir, qəlblərin həkimidir. Qəsavət basmış qəlblərimizin bir təbibə ehtiyacı var. Onun buyuruşları, tövsiyələri xəstə qəlblərimiz üçün ən yaxşı dərmandır. Həzrət Əmirəlmöminin (ə) buyurur: **“O, öz elmi ilə insanların arasında gəzən bir təbib idi. Məlhəmlərini düzəldib hazırlamışdı və dağlamaq alətlərini qızdırmışdı. Onları lazım olan yerlərə - kor qəlblərə, kar qulaqlara və lal dillərə basardı. O, öz dərmanı ilə hikmət nurundan işıq görməmiş və parlaq elmlərin çaxmağı ilə bir alov şölələndirməmiş, gövşəyən heyvan və daş parçası kimi olan şəxslərdə qəflət və sərgərdanlıq xəstəliyini müalicə edirdi”.** Əziz Peyğəmbərimiz (s) insanların qəflətlərini, unutqanlıqlarını aradan aparmaq, insanların gözləri, qulaqları, dilləri yerində olmadığı halda, qəflət mərəzinin nəticəsində bu vəziyyətə düşdükləri halda onları müalicə etmək missiyasını həyata keçirən bir həkim idi. Peyğəmbərimiz (s) ümmətin xəstəliklərini müalicə etmək üçün gəlib. Allahdan istəyimiz budur ki, bizlər də Peyğəmbərimizin (s) bu müalicələrindən bəhrə aparaq, xəstə qəlblərimiz şəfa tapsın. Xəstə qəlblərimiz, gözlərimiz, dillərimiz, qulaqlarımız bu müalicə ilə şəfa tapsın.

## Həzrət Rəsulallah (s) - bütün ali sifətlərdə ən birincidir

Həzrət Əmirəlmömininin daha bir buyuruşunda görürük ki, Peyğəmbərimiz (s) səxavətdə, şücaətdə, doğruçuluqda, əhd-peymana bağlılıqda, mülayimlikdə, alicənablıqda birincidir. Həzrət Əli (ə) buyurur: **“O, insanların ən səxavətlisi, ən şücaətlisi, ən doğruçusu, əhd-peymana ən vəfalısı, ən mülayim xasiyyətlisi və ən alicənab rəftarlısı idi. Kim onu ilk dəfə görsəydi, Peyğəmbərin zəhmi onu basardı, onunla qaynayıb-qarışan və tanıyan şəxs onu sevərdi. Nə keçmişdə, nə də indi onun kimisini görməmişəm”.** Bunlar dünyanın bu gün ən çox ehtiyaclı olduğu xüsusiyyətlərdir. Nümunə götürməli şəxs də Peyğəmbərimizdir (s). Ən səxavətli, ən şücaətli, ən doğruçu, əhd-peymana ən vəfalı, ən mülayim, ən alicənab şəxs olub Peyğəmbərimiz (s). Bizlər buna diqqət etsək öz halımızda, durumumuzda nə qədər dəyişiklik etməli olarıq. Peyğəmbərimiz (s) insanlara olan məhəbbəti, mehribanlığı, helmi ilə qəlbləri fəth edərdi. İnsanların içində olmağı ilə, sadəliyi ilə, davranışları ilə Peyğəmbərimiz (s) bütün insanların qəlbini fəth etmişdi. İstər Məkkədə, istər Mədinədə tam fərqli bir rəftar sərgiləyirdi. Bütün davranışları ilə Allah bəndəsinin necə olmağını çatdırırdı.

## Peyğəmbərimizin (s) genişqəlblilik nümunəsi

Həzrət Peyğəmbərin (s) genişqəlbliliyi dillər əzbəridir. Ənəs deyir: **“Mən Allahın Peyğəmbəri (s) ilə yol gedirdim və onun əynində nəcran kətanından qıraqları sərt əba var idi. Bir bədəvi ərəb gəlib çıxdı və o Həzrətin əbasını möhkəm dartdı. Mən Peyğəmbərin (s) boynuna baxıb gördüm ki, əbanın möhkəm çəkilməsi nəticəsində onun qıraqları Peyğəmbərin (s) boynunu cızıb. Sonra həmin bədəvi ərəb Peyğəmbərin (s) adını çəkərək dedi: ”Göstəriş ver sənin yanında olan Allah malından mənə versinlər". Peyğəmbər (s) ona tərəf döndü, gülümsədi və sonra göstəriş verdi ki, ona bir şey əta etsinlər".**

İndi iyirmi birinci əsrdə bədəvi ərəb olmasa da, insanların qabalığı, özünü apara bilməməsi, modern bədəviliyi yerində qalıb. Belə vəziyyətlərlə qarşılaşanda bizlər Peyğəmbərimizin (s) sərgilədiyi əxlaqdan nümunə götürməliyik. Peyğəmbərin (s) işi bunlarla deyildi. Peyğəmbərimiz (s) belə insanların müalicəsi ilə məşğul idi. İnsanların bu davranışları onu narahat etməzdi. Bu şəxslər mövcud olan cahiliyyət sisteminin məhsulları idi. Ancaq bir neçə onillik ərzində əziz Rəsulallah (s) Ərəbistan yarımdasında necə bir dəyişiklik etdi?! Bütün bunlara özünün qəlb genişliyi ilə nail oldu.

## Peyğəmbərin (s) dünyaya baxışı

Həzrət Peyğəmbərin (s) dünyaya baxışı fövqəladə idi. Dünyaya baxış çox önəmli məsələdir. Bu günlərdə əxlaq mövzularında bəhslərin birində bu mövzuya toxunduq. İnsan dünyaya iki cür baxa bilər. İnsanlar pəncərəyə baxır. İnsan var pəncərənin o tərəfini görür, insan da var ki, pəncərənin özünü görür. Kimsə pəncərədən o tərəfdəki gözəl mənzərəni görür, kimsə pəncərədəki tozu, cürbəsür naqislikləri görür. Məsumların (ə) buyuruşlarında qeyd olunur ki, kim dünyaya vasitə kimi baxsa və axirəti görsə, vəziyyəti çox yaxşı olar. Amma kim dünyanın özünə baxsa, məhv olar. Bu anlamda dünyaya baxış çox önəmlidir. Dünyanın özündə qalmaq üçün dünyaya baxsaq, məhv olarıq. Amma dünyaya axirəti görmək üçün baxsaq - aqibətimiz xeyirli olar. İslami mətnlərdə buyurulur: **“Allahın Peyğəmbəri (s) həsirin üstündə uzanmışdı və o Həzrətin (s) böyründə həsirin yeri qalmışdı. O Həzrətə (s) dedilər: ”Gərək bir döşək götürəydiniz". Həzrət (s) buyurdu: “Mənim dünya ilə nə işim?! Mənimlə dünyanın əhvalatı - isti yay günündə yol gedən və günün bir neçə saatını bir ağacın kölgəsində dincələn və sonra hərəkət edərək yol gedən süvarinin əhvalatına bənzəyir””.** Yolun yekunu bəllidir. Bu yolu getməliyik. Dünya - həmin bu yoldur, bununla gedib nəticəyə çatacağıq. Yolu, yolun özünə görə getmirdi Peyğəmbər (s). Yol - hədəfə çatmaq üçündür. Buna görə də biz gərək dünyaya baxışda Peyğəmbər (s) və onun pak Əhli-beytinin (s) yanaşmasını öyrənək.

**Allahım, bizlərə əziz İslam Peyğəmbərinin (s) həyatını tanıyıb, ondan nümunə götürməyi nəsib et!**

**Allahım, bizlərə əziz Rəsulallahın (s) dünyada ziyarətini, axirətdə şəfaətini nəsib et! Amin!**

YENİ MÜSAVAT
N 4 (6032) 9 yanvar 2015

# «Sahil» bağındakı qətlin yeni təfərrüatları üzə çıxdı

## "Həmin oğlana dedim ki, "qardaş qarnının ağrısı nədir, nə istəyirsən?""

**Yanvarın 6-da Bakının Səbayel rayonu ərazisində iki dost bıçaqlanıb. Hadisə «Sahil» metrosu yaxınlığında, Bülbül prospektində, «Sahil» bağı adlanan parkda baş verib.**

Bıçaqlanan şəxslərdən biri 1989-cu il təvəllüdlü Həsən Namiq oğlu Həsənov hadisə yerində dünyasını dəyişib. O, ürək nahiyəsindən bıçaqlanıb.

Digər yaralı 22 yaşlı Orxan Məmmədzadə isə qarın boşluğundan bıçaqlanıb. Onu ağır vəziyyətdə Kliniki Tibbi Mərkəzin reanimasiya şöbəsinə yerləşdiriblər. O, təcili olaraq əməliyyat edilib.





Məlumatlara görə, Orxan Məmmədzadə peşəkar idmançıdır. O, boksçudur və tanınmış idmançı Əli İsmayılovun yetirməsidir. Dəfələrlə gənclər arasında keçirilən boks üzrə çempionatlarda iştirak edib və nailiyyətlər əldə edib.

**Orxan Məmmədzadə lent.az-a açıqlamada hadisənin necə baş verdiyini danışıb. 22 yaşlı O.Məmmədzadə deyib ki, dünən axşam saatlarında «Sahil» bağında dostu ilə gəzintiyə çıxıbmış:** "Dostum Həsənlə gəzintiyə çıxmışdıq, o, itini də götürmüşdü. Qarşımızda gedən 4 nəfər qız itdən qorxduqları üçün çəkildilər. Mən isə dedim ki, qorxmayım, dişləyən itlərdən deyil. Bu zaman kənardan 26-27 yaşlı bir nəfər yaxınlaşdı, dedi ki, "it dişləyə də bilməz". Biz dedik ki, "komanda versək, dişləyər". O isə kobud danışırdı. Həmin oğlana dedim ki, "qardaş, qarnının ağrısı nədir, nə istəyirsən?" O dava salmağa başladı, bıçaq çıxardıb, mənə 2, Həsənə isə 1 zərbə endirdi. Həsənin düz döş qəfəsindən, ürəyindən vurmuşdu. Ona görə də öldü".

**O.Məmmədzadə əlavə edib ki, dostu Həsən Həsənov bir neçə gün əvvələdək Bakı Şəhər İcra Hakimiyyətində işləyirmiş:** "O, Bakı Şəhər İcra Hakimiyyətinin Xüsusi Təyinatlı Avtonəqliyyat İdarəsində nəzarətçi işləyirdi, bir neçə gün əvvəl işdən çıxmışdı".

Hadisəni törədən şəxs isə bir gün sonra aşkarlanıb və saxlanılıb. Səbayel Rayon Polis İdarəsindən verilən məlumata görə, həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində ötən gün «Sahil» bağında 1989-cu il təvəllüdlü Həsən Namiq oğlu Həsənovu qətlə yetirən və 1993-cü il təvəllüdlü Məmmədzadə Orxan Təbriz oğluna bıçaqla xəsarət yetirən Bakı şəhər sakini, 1988-ci il təvəllüdlü Elçin Elman oğlu Çobanov tutulub.

Artıq Elçin Çobanov hadisə haqqında ifadə verib. Onun sözlərinə görə, həyat yoldaşı Leyla Çobanova Nəsrəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsil alır. İnsident sonuncu kurs tələbəsi olan Leyla Çobanovanın dərsdən çıxıb, rəfiqələri ilə evə qayıtdığı zaman baş verib. «Sahil» bağından keçərkən Həsən Həsənovun gəzdirdiyi it onun yoldaşına hürməyə başlayıb. Elçin Çobanov buna görə əsəbiləşib və Həsən Həsənovdan itini kənara çəkməyi tələb edib. Oğlan bu tələbin qarşılığında itin ağzının bağlı olduğunu, qızlara xəsarət yetirə bilməyəcəyini deyib. Tərəflər arasında mübahisə yaranıb və Elçin Çobanov üzərində gəzdirdiyi bıçağı çıxararaq, əvvəlcə Həsən Həsənova, sonra isə söhbətə müdaxilə edən Orxan Məmmədzadəyə zərbə endirib.

Musavat.com olaraq, məsələnin təfərrüatlarını araşdırmaq qərarına gəldik. İlk olaraq hadisənin baş verdiyi «Sahil» bağına yollandıq. Hadisənin bir neçə şahidi və qətlə yetirilmiş Həsən Həsənovu tanıyanlarla söhbətləşdik.

Aldığımız məlumatlara görə, H.Həsənov «Sahil» bağı yaxınlığında yaşayan bir qadının itini gəzdirərək, pul qazanırmış. Və uzun zamandır ki, bu parkda itlərlə dolaşdığı üçün onu çox adam tanıyırmış.

Əldə etdiyimiz digər məlumatlarda isə deyilir ki, bu, H.Həsənovun itə görə ilk mübahisəsi deyilmiş. Parkda it gəzdirdiyi zaman bundan öncə də bir neçə dəfə parkda istirahət edən şəxslərlə mübahisəsi düşüb. Mübahisələrə səbəb isə H.Həsənovun iti qızların üzərinə hürdürərək, bundan hansısa yolla tanışlıq üsulu kimi istifadə etməsi olub.

Hadisəyə yaxın ərazilərdə çalışan vətəndaşlardan heç biri bu barədə danışmaq istəmədilər.

**❑ Məhəmməd TÜRKMƏN**


**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar** və **ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34




# Zabratdakı qəddar cinayəti törədən tutuldu

**Yanvarın 7-də axşam Zabrat qəsəbəsində baş verən cinayət hadisəsi zamanı yaralanmış bir ailənin bütün üzvləri 3 saylı Şəhər Kliniki Xəstəxanasının reanimasiya şöbəsindədir.**

Bunu virtualaz.org saytının xəstəxanada olan müxbirinə reanimasiya şöbəsinin cərrahı Aydın Kazımov deyib.

Onun sözlərinə görə, yaralılar saat 23:30 radələrində xəstəxanaya gətiriliblər. Xəstələrdən 3-nün vəziyyəti ağırdır.

Ailə başçısı Yaşar Novruzovun və xanımının vəziyyəti daha ağırdır. Onlar çoxsaylı bıçaq zərbələri alıblar.

15 yaşlı övladları da qarın boşluğundan bıçaq zərbələri alıb. 2002-ci il təvəllüdlü oğlanın vəziyyəti orta-ağırdır. Həkimin sözlərinə görə, yaralıların heç birinin həyatına təhlükə yoxdur.

Hadisənin baş verməsinə Yaşar Əzimovla Yaşar Novruzov arasında yaşanan mübahisə səbəb olub. Onlar arasında olan mübahisə davaya çevrilib. Ailənin digər üzvləri də hadisəyə müdaxilə edib.

Nəticədə Y.Əzimov ailənin bütün üzvlərini bıçaqlayıb. Davanın motivləri hələ müəyyən deyil. Polisdən bildiriblər ki, hazırda bıçaqlanan ailə başçısının qardaşından şahid qismində ifadə alınır.

Daha sonra saytın əməkdaşı dəqiqləşdirib ki, bu qəddar cinayəti törədən şəxs də yaxalanıb və hazırda Sabunçu Rayon Polis İdarəsində saxlanılır.

Xatırladaq ki, hadisə Sabunçu rayonu Zabrat qəsəbəsində baş verib. 1969-cu il təvəllüdlü Əzimov Yaşar Şəki oğlu bacısı, 1972-ci il təvəllüdlü Novruzova İzzətxanım Şəki qızını, onun həyat yoldaşı, 1970-ci il təvəllüdlü Novruzov Yaşar Faiq oğlunu, övladları - 1999-cu il təvəllüdlü Faiqi və 2002-ci ildə anadan olmuş Rəşadı bıçaqlayıb.

Ağır bədən xəsarətləri alan ailə üzvləri xəstəxanaya yerləşdirilib. Bildirilir k, Y.Əzimov bacısını və onun ailə üzvlərini onların yaşadığı evdə bıçaqlayıb. 45 yaşlı Yaşar Əzimovun özünün də həmin evdə müvəqqəti yaşadığı qeyd edilir.

# Nüsrət Kəsəmənlinin oğlu həbsdə qaldı

**Bakı Apelyasiya Məhkəməsində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı mühakimə olunan Araz Kəsəmənlinin apelyasiya şikayəti üzrə məhkəmə prosesi başa çatıb. Lent.az-ın verdiyi məlumata görə, hakim Faiq Qasımovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin apelyasiya şikayəti üzrə qərar elan edilib. Qərara görə, Araz Kəsəmənlinin apelyasiya şikayəti təmin edilməyib.**

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Araz Kəsəmənli 8 il 4 ay müddətinə azadlıqdan məhrum edilib. Hökmdən narazı qalan Araz Kəsəmənli apelyasiya şikayəti verib. O, günahsız olduğunu və barəsində bəraət hökmünün çıxarılmasını istəyib.

İttihama görə, 2012-ci ilin iyun ayında həbsdən azad olunan Araz Kəsəmənli cəmisi 3 ay sonra təkrar həbs edilib. 2013-cü il sentyabrın 17-də ona qarşı cinayət işi açılıb. Bu dəfə o, narkotik istifadəçisi kimi həbs olunub.

Araz Kəsəmənli mərhum nəğməkar-şair Nüsrət Kəsəmənlinin oğludur. O, 1998-ci ildə qeyri-rəsmi yaşadığı qadını qətlə yetirməkdə ittiham olunaraq 15 il həbsxana həyatı yaşayıb.


*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- ✓İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- ✓Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- ✓Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- ✓Əla tələffüz və güvənlə danışmaq
- ✓Real ingiliscə söhbətlər

BONUS english EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

YENİ
# MÜSAVAT

Son səhifə

N 4 (6032) 9 yanvar 2015



## Qadınlar ərlərindən nəyi gizlədir?

Psixoloqlar müəyyənləşdirib ki, qadınların öz ərlərindən, sevgililərindən gizlətdikləri bir çox şeylər var. Bunlardan biri onların mağazadan, bazardan, butikdən və s. aldıqları hər şeyin miqdarını olduğundan az deməsidir. Onlar bunu ərlərinin pula görə deyinməməsi üçün edirlər. Bundan başqa, qadınlar çox vaxt ərlərinin onları qısqanması üçün kiçik yalanlar deyirlər. Zərif cinsin nümayəndələri ərlərinin boş-boş işlərlə məşğul olduğunun fərqində olsalar belə, bunu onlara demir, ondan narazı olduqlarını dilə gətirmirlər. Qadınların ərlərindən gizlətdiyi daha bir məqam isə yaraşıqlı aktyorlara olan heyranlıqlarıdır. Onlar hesab edirlər ki, bunu desələr, ərlərinin qəlbinə dəymiş olacaqlar.



## Tez-tez selfie çəkən kişilər... psixopatlığa meyllidir?

Amerikanın Ohio Dövlət Universiteti alimləri müəyyənləşdirib ki, çoxlu sayda selfie çəkib, bunu sosial mediaya paylaşan kişilərdə psixopatlığa meyllik ola bilər. Bu barədə Türkiyənin "Hürriyet" qəzeti məlumat yayıb. 18-40 yaşlarındakı 800 kişinin sosial mediadakı paylaşımlarını incələyən və onları psixoloji testdən keçirən alimlərə görə, onların anti-sosial davranışları selfieyə meyl etməyənlərə nisbətən daha çoxdur.

Araşdırmalarını "Personality and Individual Differences" adlı jurnalda yayımlanan alimlər üzə çıxarıb ki, bu kişilərdə narsizm və aqressivlik əlamətləri də özünü göstərir. Onların fikrincə, bu tip şəxslər ünsiyyət problemi də yaşayır.

## Səhərlər bir dilim tort... insanı arıqladır

Səhər yeməyində bir dilim tort yemək arıqlamağa kömək edir. Bunu türkiyəli alimlər deyir. Onların bildirdiyinə görə, 90 kilo ağırlığında olan bir adam bu üsulu tətbiq edərək 8 ayda 20 kilo arıqlaya bilər. İsraildə Hebrev Universiteti və Ariel Universitetinin artıq çəkili 193 nəfər üzərində apardığı araşdırma zamanı müəyyən olub ki, səhərlər bir dilim tort yeyənlər digərlərinə nisbətən daha tez arıqlayır. İsrailli alimlər isə bildirib ki, insanların həzm sistemi səhərlər daha aktiv fəaliyyət göstərir. Onların gəldiyi nəticəyə görə, səhər yeməyində yeyilən tort gün ərzində keks və ya tort kimi qidalara olan tələbatı azaldır.



## Müalicə olunduğu xəstəxananı yandırdı



Uzun illərdən bəri xərçəng xəstəsi olan tayvanlı Li Çin Hin müalicə olunduğu xəstəxananı yandırıb. Hadisə Tayvanın Taynan şəhərində baş verib. Xərçəng xəstəsi olan qocaların müalicə olunduqları xəstəxanada gecə saatlarında başlanmış yanğın səhərədək davam edib. Yanğında 12 xəstə həlak olub, 60 pasiyent ağır yanıq xəsarətləri alıb. 67 yaşlı Linin yanğının səbəbkarı olduğunu müşahidə videokameraları ilə çəkilmiş görüntülər sübut edib. Çılpaq halda yanğından qaçmağa çalışan xərçəng xəstəsi Lin xəstəxananın anbarında gizlənibmiş.

O, polisdə verdiyi ifadəsində bildirib ki, tənziflərə və adyallara od vuraraq paltar anbarına atıb. Yanğından sağ çıxan pasiyentlərin çoxu 80-90 yaşlılardır.

## Öz yas mərasiminə qatıldı

Braziliyda keçmiş hind kinolarındakına bənzər mənzərə yaşanıb. Alagoinhas şəhərində Jose Marcos Araujo adlı kişi şəhər xəstəxanasının morqunda ona göstərilən bir cəsədi səhv olaraq 41 yaşlı "moyka" işçisi olan qardaşınınkı hesab edib və polislərə də bu cür məlumat verib. Ölən adamın qardaşı olduğunu düşünən Araujo, daha sonra cəsədi xristian ənənələrinə uyğun dəfn etmək üçün anasının evinə aparıb. Evdə cənazə mərasimi keçirildiyi vaxt küçədə gəzən Gilberto isə bir dostundan özünün cənazə mərasiminin keçirildiyini öyrənib. Vəziyyəti aydınlaşdırmaq üçün evə gedəndə isə qohumlardan çoxu şok keçirərək bayılıb, bəziləri isə evdən qaçıb. Anası isə qəzetçilərə açıqlamasında "həyatı boyu bu qədər sevinmədiyini" deyib.



## Alimlərdən xəbərdarlıq: soyuqda xəstələnməmək üçün burnunuzu bağlayın

İsveçrə alimləri sübut ediblər ki, şaxtalı havada burnu şərflə bağlamaq soyuqdəymə riskini azaldır. Bu barədə lenta.ru saytı "The Daily Telegraph"a istinadən xəbər verir. Araşdırmaçılar bildirir ki, hər 5 adamdan biri rinovirus daşıyıcısıdır ki, bu da insanın immun sisteminə olduqca ciddi təsir göstərir.

Bununla yanaşı, alimlər müəyyənləşdiriblər ki, bədənin temperaturu immunitetə daha çox təsir edir, nəinki virusun özü. Bu səbəbdən də orqanizmi çökdürən soyuq havanın burun dəliklərindən içəri girməsinin qarşısını almaq üçün onu şərflə bağlamaq vacib şərtdir. Nəşr xatırladır ki, daha öncə bir qrup həkim insanların xəstələnməməsi üçün onların nazik geyinməsini məsləhət görmüşdü.






QOÇ - Kifayət qədər uğurlu gündür. Nəzərdə tutduğunuz bütün ədalətli planların reallaşacağı gözlənilir. Qonaq getmək ehtimalınız da var. Amma gərək gecəni öz evinizdə keçirəsiniz.



BUĞA - Günün ilk yarısında mümkün qədər ehtiyatlı olun. Çünki sizə qarşı təxribat hazırlandığı güman olunur. Nahardan sonrakı ərəfəni isə bütünlüklə ailə-sevgi məsələlərinə həsr edin.



ƏKİZLƏR - Yeni simalarla, xoş təsadüflərlə rastlaşma ehtimalınız böyükdür. Hətta bir neçə sürpriz də mümkündür. Saat 19-dan sonra bütün təkliflərdən imtina edin, hətta xeyirli görünsə də.



XƏRÇƏNG - Şəxsi işlərinizdə əsaslı dönüşə başlamaq istəyirsinizsə, bu təqvimdən yararlanın. Təcrübəli adamların məsləhətindən nəticə çıxarın. Həmkarlarınızla səmimi davranın. Sürprizlər gözlənilir.



ŞİR - Təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, səfərə də çıxasınız. Ümumiyyətlə, bu gün uzaqda yaşayan doğmalarınızla mütləq əlaqə saxlamalısınız. Ədalət prinsiplərindən çıxmayın.



QIZ - Səhər saat 03:57-dən mənfi enerjili Ay bürcünüzdə qərar tutduğu üçün yeni, riskli və ağlınız kəsməyən işlərdən imtina etməlisiniz. Əgər dinimizə riayət etsəniz, uğurlarınız yaxınlaşacaq.



TƏRƏZİ - Yalnız istirahətə aludə olun. Hər hansı fəaliyyət və ya riskli sövdələşmə zərərinizə ola bilər. Özünüzü hər hansı münaqişələrdən qoruyun. Nahardan sonra qonaq getməyə dəyər.



ƏQRƏB - Maraqlı bir gün yaşayacaqsınız. Ətrafınızda olan hər şey ürəyinizcə olacaq. Ulduzlar günün ikinci yarısını gəzinti və əyləncələrə, qonaqlıqlara həsr etməyinizi tövsiyə edir.



OXATAN - Göy qübbəsi bu təqvimdə bütün külli-ixtiyarı öz əlinizə verəcək. Deməli, proseslərin inkişafı çıxardığınız qərarlardan asılı olacaq. Ədalətli addımlar atın, Tanrı hökmünü unutmayın!



OĞLAQ - Yeni əlaqələrə başlamaq üçün şanslı ərəfədir. Çalışın ki, təşəbbüskarlığı əldən verməyəsiniz. Nahardan sonra aldığınız bütün təkliflərə razılıq verin. Riskdən qorxmayın.



SUTÖKƏN - Sağlamlığınıza zidd işlər görməyiniz ümumi əhvalınızda passivlik yarada bilər. Odur ki, səhhətinizə qarşı diqqətli olun. Yeni planlarınızı bir daha götür-qoy edin. Sədəqə verməkdən çəkinməyin.



BALIQLAR - Fəaliyyət zəminində böyük uğurlara gedən yolu tapacaqsınız. Buna görə də hər şeyi dəfələrlə ölçüb-biçin. Asudə vaxtlarınızı isə xilas mənbəyiniz olan məhəbbətə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## McDonaldsda yeməyin içindən diş çıxdı




Yaponiyadakı "McDonalds" restoranındakı müştərilərdən biri kartof fri porsiyasının içindən insan dişi tapıb. Hadisə Osaka əyalətində baş verib. Şəbəkənin nümayəndələri baş vermiş hadisəyə görə üzrxahlıq bildirsələr də, yeməyin içinə diş düşməsi versiyasını ağlabatan hesab etməyiblər. Onlar söyləyiblər ki, bugünlərdə işçilərdən heç birinin dişinin düşməsi hadisəsi baş verməyib. Amma bu, sözügedən şəbəkə ilə bağlı baş vermiş ilk belə hal deyil. Bundan öncə də Yaponiyanın Aomori, Tokio şəhərlərində də analoji hal baş vermişdi.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib.
Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.